# AZƏRBAYCAN DİLİ

## DÖVLƏT DİLİ




METODİK VƏSAİT

2





## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

*Musiqisi* ***Üzeyir Hacıbəylinin,***
*sözləri* ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HƏVVA ABDULLAYEVA

# AZƏRBAYCAN DİLİ 2

Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
dərsliyin metodik vəsaiti

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**kovserneshriyyat@gmail.com** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

**"KÖVSƏR" NƏŞRİYYATI**
**BAKI – 2018**

# M Ü N D Ə R İ C A T


G İ R İ Ş ........ 3
1-ci və 2-ci dərslər. Mövzu: Gəlin danışaq! ........ 14
3-cü və 4-cü dərslər. Mövzu: [A] səsi və «A» hərfi ........ 16
5-ci və 6-cı dərslər. Mövzu: [N] səsi və «N» hərfi ........ 19
7-ci və 8-ci dərslər. Mövzu: [Ə] səsi və «Ə» hərfi ........ 22
9-cu və 10-cu dərslər. Mövzu: [T] səsi və «T» hərfi ........ 26
11-ci və 12-ci dərslər. Mövzu: [B] səsi və «B» hərfi ........ 30
13-cü və 14-cü dərslər. Mövzu: [U] səsi və «U» hərfi ........ 34
15-ci və 16-cı dərslər. Mövzu: [L] səsi və «L» hərfi ........ 38
17-ci və 18-ci dərslər. Mövzu: [M] səsi və «M» hərfi ........ 42
19-cu və 20-ci dərslər. Mövzu: [R] səsi və «R» hərfi ........ 45
21-ci və 22-ci dərslər. Mövzu: [İ] səsi və «İ» hərfi, [I] səsi və «I» hərfi ........ 49
23-cü və 24-cü dərslər. Mövzu: [D] səsi və «D» hərfi ........ 50
25-ci dərs. Mövzu: [K], [K’] səsi və «K» hərfi ........ 52
26-cı dərs. Mövzu: [O] səsi və «O» hərfi ........ 53
27-ci və 28-ci dərslər. Mövzu: [G] səsi və «G» hərfi ........ 54
29-cu və 30-cu dərslər. Mövzu: [Y] səsi və «Y» hərfi ........ 56
31-cü və 32-cü dərslər. Mövzu: [Z] səsi və «Z» hərfi ........ 58
33-cü və 34-cü dərslər. Mövzu: [X] səsi və «X» hərfi ........ 60
35-ci və 36-cı dərslər. Mövzu: [Q] səsi və «Q» hərfi ........ 61
37-ci və 38-ci dərslər. Mövzu: [F] səsi və «F» hərfi ........ 63
39-cu dərs. Mövzu: [S] səsi və «S» hərfi ........ 65
40-cı və 41-ci dərslər. Mövzu: [Ş] səsi və «Ş» hərfi ........ 66
42-ci və 43-cü dərslər. Mövzu: [Ü] səsi və «Ü» hərfi ........ 68
44-cü və 45-ci dərslər. Mövzu: [C] səsi və «C» hərfi ........ 70
46-cı və 47-ci dərslər. Mövzu: [Ç] səsi və «Ç» hərfi ........ 72
48-ci və 49-cu dərslər. Mövzu: [E] səsi və «E» hərfi ........ 73
50-ci və 51-ci dərslər. Mövzu: [V] səsi və «V» hərfi ........ 75
52-ci və 53-cü dərslər. Mövzu: [Ö] səsi və «Öö» hərfi ........ 77
54-cü və 55-ci dərslər. Mövzu: [Ğ] səsi və «Ğ» hərfi ........ 79
56-cı və 57-ci dərslər. Mövzu: [H] səsi və «H» hərfi ........ 81
58-ci və 59-cu dərslər. Mövzu: [P] səsi və «P» hərfi ........ 83
60-cı dərs. Mövzu: [J] səsi və «J» hərfi ........ 85
61-ci və 62-ci dərslər. Mövzu: Mənim Vətənim ........ 86
63-cü və 64-cü dərslər. Mövzu: İl ərzində keçilənlərin təkrarı və ümumiləşdirilməsi ........ 87
Yekun qiymətləndirmə testləri ........ 89
Əlavə oxu materialları ........ 92
Ədəbiyyat siyahısı ........ 95


**Dərslikdə istifadə olunmuş şərti işarələr:**

* - dili praktik cəhətdən bilənlər üçün nəzərdə tutulmuş didaktik materialları fərqləndirir;

.. - çalışmanın mətnində buraxılmış hərf və ya şəkilçinin yerində işlənir;

— - çalışmanın mətnində buraxılmış sözlərin yerində işlənir;

◆ - çalışmalara aid əlavə tapşırıqları fərqləndirir;

● - sait səslərin yerində işlənir;

● - samit səslərin yerində işlənir.

? - mətnə aid tapşırıqlara işarə edir.

# GİRİŞ

Azərbaycan Respublikasında ümumi orta təhsilin Konsepsiyası (Milli Kurikulumu) əsasında hazırlanmış və 2007-ci ilin iyulunda təsdiq olunmuş, çərçivə sənədi kimi konseptual xarakter daşıyan «Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu» bu fənn üzrə təlim nəticələri, məzmun standartları, təlim strategiyaları və qiymətləndirmə məsələlərini əhatə etməklə bütün fəaliyyətlərin əsasını təşkil edir. Kurikulumda nəzərdə tutulmuş məzmun standartları və bütün fəaliyyətlər (təlim strategiyaları və qiymətləndirmə məsələləri) şəxsiyyətyönümlü təhsil sisteminin əsas prinsiplərinə (şagirdyönümlülük, inkişafyönümlülük, təlimdə bərabər imkanların yaradılması, fəaliyyətin stimullaşdırılması və s.) uyğun olaraq şagirdlərin ümumi inkişafına yönəldilir.

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu dövlət dili kimi Azərbaycan dilinin öyrənilməsinin məqsəd və vəzifələrini, istiqamətini müəyyən etməklə müəllimlərin, şagirdlərin, idarəetmə və qiymətləndirmə ilə məşğul olanların fəaliyyətini istiqamətləndirir.

Azərbaycan Respublikasının Konstitusiyasının tələblərinə uyğun olaraq dövlət, orta ümumtəhsil məktəblərində, o cümlədən təlim digər dillərdə aparılan orta ümumtəhsil məktəblərində Azərbaycan dili tədrisini həyata keçirməklə dövlət dili kimi, bu dilin öyrənilməsinə şəraiti təmin edir.

Təlim digər dillərdə aparılan orta ümumtəhsil məktəblərində şagirdlər dövlət dilinin öyrənilməsinə yaradılmış imkanlardan istifadə edərək Azərbaycan dilində dinləyib-anlama, danışma, oxu və yazı üzrə müvafiq bacarıqlara yiyələnir, cəmiyyət həyatının müxtəlif sahələrində fəaliyyət göstərmək üçün zəruri nitq vərdişləri qazanırlar.

Bu məktəblərdə şagirdlər dövlət dili kimi Azərbaycan dilini öyrənməklə nəinki yalnız bu dildə müxtəlif mənbələrdən informasiya əldə etmək, fəaliyyət sahəsini təkmilləşdirmək, ümumi həyati bacarıqlar əldə etmək imkanlarını genişləndirir, eyni zamanda, dünyada geniş yayılmış türk dillərinə bələd olur, türkdilli ölkələrdə də fəaliyyət göstərmək üçün əlaqə və ünsiyyət bacarıqlarına (kommunikativ) sahib olurlar.

Təlim digər dillərdə olan məktəblərdə dövlət dili kimi Azərbaycan dili təliminin məqsədi məhz bu imkanları reallaşdırmaq – şagirdlərdə dinləyib-anlama, danışma, oxu və yazı üzrə müvafiq baracıqlar formalaşdırmaqla onların nitqini inkişaf etdirməkdən ibarətdir.

Bu məqsədin həyata keçirilməsi üçün orta təhsilin müxtəlif pillələrində bir sıra vəzifələrin həyata keçirilməsi nəzərdə tutulur ki, bunlardan ibtidai təhsil pilləsində yerinə yetirilməsi zəruri olanlar aşağıdakılardır:

— Azərbaycan əlifbasının, çoxişlək sözlərin, söz birləşməsi və cümlə modellərinin, ən zəruri nitq etiketlərinin, tələffüz və yazı qaydalarının mənimsənilməsini təmin etmək;

— şagirdlərdə dinləyib-anlama, sürətli oxu, ilkin şifahi nitq və tərcümə bacarıqları formalaşdırmaq.

Kurikulumda təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili təliminin məzmunu üzrə «Ümumi təlim nəticələri» (1.1.), «Məzmun xətləri» (1.2.), «Məzmun standartları (1.4.) müəyyənləşdirilmişdir. 2-ci siniflərdə tədris işini planlaşdıran müəllimlərin tələbatını nəzərə alaraq burada ibtidai təhsil pilləsi üçün nəzərdə tutulan məzmunu (2-ci sinif üzrə) verməyi məqsədəuyğun hesab edirik.

## TƏLİM DİGƏR DİLLƏRDƏ OLAN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN AZƏRBAYCAN DİLİ TƏLİMİNİN MƏZMUNU

### 1.1. ÜMUMİ TƏLİM NƏTİCƏLƏRİ

**İbtidai təhsil pilləsi (I-IV siniflər) üzrə şagird:**

- dinlədiyi fikirlərə münasibət bildirir;
- kiçikhəcmli mətnləri sürətli və düzgün oxuyur, məzmununu izah edir;
- söz birləşməsi və cümlə nümunələrindən, zəruri tələffüz və yazı qaydalarından istifadə edərək kiçikhəcmli şifahi və yazılı mətnlər qurur və tərcümə edir;
- müşahidə etdiyi şəkil və illüstrasiyaların məzmun və əlamətlərini təsvir edir;
- məlumat xarakterli kiçik mətnləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

### 1.2. MƏZMUN XƏTLƏRİ

Fənn üzrə məqsəd və vəzifələrin həyata keçirilməsi üçün aşağıdakı məzmun xətləri müəyyənləşdirilir:

- dinləyib-anlama;
- danışma;
- oxu;
- yazı;

### 1.3. İBTİDAİ TƏHSİL PİLLƏSİNDƏ MƏZMUN XƏTLƏRİ ÜZRƏ TƏLİM NƏTİCƏLƏRİ

**Dinləyib-anlama**
**Şagird:**

- danışanı dinləyir və ona münasibət bildirir;
- nitq səslərini, söz və cümlələri fərqləndirir;

- sadə şifahi müraciətləri dinləyir və ona münasibət bildirir;
- dinlədiyi kiçikhəcmli mətnləri (hekayə, nağıl, şeir, tapmaca və s.) anladığını nümayiş etdirir.

**Danışma**
**Şagird:**

- öyrəndiyi söz, ifadə, cümlə modelləri əsasında fikirlərini ifadə edir;
- müşahidə etdiyi və maraqlarına uyğun olan kiçik fakt və hadisələri şərh edir;
- şəkil və illüstrasiyalar əsasında cümlə və mətn qurur.
- müəllim və yoldaşları ilə şifahi ünsiyyət qurur.

**Oxu**
**Şagird:**

- öyrəndiyi yeni sözləri fərqləndirir, onların mənalarını izah edir;
- mətni səlis və düzgün oxuyur;
- mətndəki əsas fakt və fikirləri müəyyənləşdirir;
- oxuduğu mətnin məzmununa münasibət bildirir.

**Yazı**
**Şagird:**

- davamlı və aydın yazı bacarığı nümayiş etdirir;
- öyrəndiyi orfoqrafiya, durğu işarəsi qaydalarını yazısında tətbiq edir;
- təqdim olunmuş mövzuda kiçikhəcmli nəqli və təsviri xarakterli yazılı mətnlər qurur;
- verilmiş mövzu üzrə kiçik təqdimatlar hazırlayır.

## II S İ N İ F

### 1.4. MƏZMUN STANDARTLARI

**II sinfin sonunda şagird:**

- Təqdim olunan nitq nümunələrini anlayır;
- Verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir;
- Verilmiş nitq nümunələrindən istifadə etməklə ünsiyyət qurur;
- İlkin oxu bacarıqları nümayiş etdirir;
- İlkin yazı bacarıqları nümayiş etdirir.

**1. Dinləyib-anlama**
**Şagird:**

**1.1. Təqdim olunan sadə nitq nümunələrini anladığını nümayiş etdirir.**
1.1.1. Müraciətlərə uyğun sadə tapşırıqları icra edir.
1.1.2. Dinlədiyi kiçikhəcmli mətnlərdəki çətin sözləri müəyyənləşdirir.
1.1.3. Dinlədiyi kiçikhəcmli mətnlərin məzmununa aid suallar tərtib edir.

**2. Danışma**
**Şagird:**

**2.1. Düzgün tələffüz bacarıqları nümayiş etdirir.**
2.1.1. Verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir.
2.1.2. Kiçikhəcmli sadə cümlələri (sual, nəqli) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir.
**2.2. Verilmiş sadə nitq nümunələrindən istifadə etməklə ünsiyyət bacarıqları nümayiş etdirir.**
2.2.1. Müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır.
2.2.2. Müşahidə etdiyi əşya və hadisələri birinci şəxsin (mən) dili ilə təsvir edir.
2.2.3. Sadə cümlələrdən (nəqli və sual) istifadə etməklə kiçikhəcmli dialoqlar qurur.

**3. Oxu**
**Şagird:**

**3.1. İlkin oxu bacarıqları nümayiş etdirir.**
3.1.1. Hərfləri və sözləri, söz birləşmələri və cümlələri düzgün oxuyur.
3.1.2. Bir neçə cümlədən ibarət kiçik mətnləri oxuyur və məzmununu izah edir.
3.1.3. Oxuduğu kiçikhəcmli mətndəki sözləri lüğət vasitəsilə ana dilinə və əksinə tərcümə edir.

**4. Yazı**
**Şagird:**

**4.1. İlkin yazı bacarıqları nümayiş etdirir.**
4.1.1. Hərfləri və sözləri düzgün yazır.
4.1.2. Verilmiş söz birləşməsi və cümlə nümunələrini düzgün yazır.
4.1.3. Kiçikhəcmli mətnlər (verilmiş təsvirlərə əsasən) yazır.

## FƏNDAXİLİ VƏ FƏNLƏRARASI İNTEQRASİYANIN NƏZƏRƏ ALINMASI

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili təlimi məzmununun müəyyənləşdirilməsində, üsul və vasitələrin seçilməsində, eləcə də şagird nailiyyətlərinin izlənilməsi və qiymətləndirilməsində fəndaxili və fənlərarası inteqrasiyanın nəzərə alınması ümumpedaqoji prinsiplərdən biri kimi çıxış edir. Fəndaxili və fənlərarası inteqrasiyanın rol və əhəmiyyəti nəzərə alınmadan təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərində Azərbaycan dili təlimini təsəvvür etmək çətindir. İnteqrasiya bu fənnin tədrisinin didaktik əsasını təşkil edir, məzmun standartlarının müəyyənləşdirilməsində, məzmun xətləri üzrə bacarıqların formalaşdırılmasında ona istinad olunur. Belə ki, hər bir sinifdə ayrı-ayrı məzmun xətləri üzrə üfüqi əlaqələri nəzərə almadan şagirdlərin nitq fəaliyyətini inkişaf etdirmək və onlarda zəruri bacarıqlar formalaşdırmaq mümkün deyil.

Azərbaycan dili təlimində (digər fənlərin tədrisində olduğu kimi) inteqrasiyanın iki növündən istifadə olunması zəruri hesab olunur: fəndaxili inteqrasiya; fənlərarası inteqrasiya.

Fəndaxili inteqrasiya Azərbaycan dili təlimində məzmun xətləri arasında qarşılıqlı əlaqələri təmin etməklə dinləyib-anlama, danışma, oxu və yazı bacarıqlarının bir vəhdət halında qavranılmasına imkan yaradır. Nitq fəaliyyətinin göstərilən növləri üzrə bacarıq və vərdişlərin dilin məntiqinə uyğun olaraq formalaşdırılması, əldə edilmiş biliklərin şüurlu tətbiqi fəndaxili əlaqələr nəzərə alınmaqla reallaşdırıldıqda öyrənilmiş biliklər unudulmur, davamlı olur, daha da möhkəmləndirilir, nəticədə nitqin müxtəlif situasiyalarında dil vahidlərindən məqsədə müvafiq istifadə asanlaşır.

Fəndaxili inteqrasiya həmçinin fənn üzrə siniflərarası (şaquli) əlaqələrin məqsədyönlü qurulmasında, müvafiq bacarıqların formalaşdırılmasında varisliyin gözlənilməsini nəzərə almağı vacib didaktik tələb kimi zərurətə çevirir. Fənlərarası inteqrasiyanın nəzərə alınması isə fənn üzrə müəyyən anlayışların öyrənilməsini asanlaşdırır, vaxta qənaət olunmasına imkan verir, öyrənilənlərin səmərəliliyini təmin edir. Məlum məsələdir ki, ikinci bir dilin öyrənilməsini ana dilinə istinad etmədən, şagirdin öyrəndiyi başqa bir dilin xüsusiyyətləri ilə qarşılaşdırma və analogiya aparmadan həyata keçirmək mümkün olmur. Şagirdlərin digər fənlər üzrə malik olduqları bilik, bacarıq və vərdişlər Azərbaycan dili təlimində dil üzrə yeni anlayışların mənimsənilməsi prosesini daha da intensivləşdirir, nitq fəaliyyətinin müxtəlif növləri üzrə bacarıqların təkmilləşməsinə imkan yaradır, şagirdlərin təlim yükünü azaldır.

## TƏLİM DİGƏR DİLLƏRDƏ APARILAN MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ PROSESİNDƏ İNTERAKTİV TƏLİM METODLARINDAN İSTİFADƏ

Təlim digər dillərdə aparılan məktəblərdə dövlət dili kimi Azərbaycan dilinin öyrədilməsinin səmərəliliyi tədrisin təşkilində tətbiq olunan texnologiyaların düzgün müəyyənləşdirilməsindən, onların məqsədəmüvafiq şəkildə seçilib əlaqələndirilməsindən çox asılıdır. Bu fənni tədris edərkən nəzərə almaq lazımdır ki, təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dilinin öyrədilməsi milli maraqları əks etdirən vacib məsələ olduğu üçün ona çox həssaslıqla yanaşılmalıdır. Azərbaycanlı və digər millətlərə mənsub olan uşaqlara Azərbaycan dilinin öyrədilməsi prosesində öyrənənləri maraqlandıran və cəlb edən, öyrənməni asanlaşdıran, öyrədilən tədris materiallarının möhkəmliyini və davamlılığını təmin edən forma, üsul və vasitələrin düzgün seçilməsi mühüm metodik tələblər kimi diqqət mərkəzində saxlanmalıdır.

«Azərbaycan Respublikasında ümumi orta təhsilin Konsepsiyası» (Milli Kurikulumu) sənədində təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dili tədrisinin təşkilində aşağıda göstərilən tələblərin nəzərə alınması vacib hesab olunur:

● Mövcud standartlar, təlim strategiyaları, resurslar və qiymətləndirmə sistemi nəzərə alınmaqla, tədris fəaliyyətinin perspektiv və cari planlaşdırılması; ● Azərbaycan dilinin interaktiv metodlarla öyrədilməsi; ● Kommunikativ təlim şəraitinin yaradılması, şagirdlərin iki-iki və qrup halında işləmələrinin təmin olunması; ● Şagirdlərin fərdi xüsusiyyətlərinin nəzərə alınması; ● Şagirdlərin Azərbaycan dilini öyrənməyə olan marağının izlənilməsi və inkişaf etdirilməsi; ● İKT və yardımçı texniki vasitələrdən istifadə olunması; ● Köməkçi didaktik vasitələrdən istifadə edilməsi; ● Nitq inkişafı üzrə nailiyyətlərin vaxtaşırı monitorinqi və qiymətləndirilməsi.

Təlim digər dillərdə olan məktəblərdə şagirdlərdə dövlət dili kimi Azərbaycan dilini öyrənməyə həvəs oyatmaq, şagirdləri maraqlandıran mühit yaratmaq mühüm şərtdir.

Azərbaycan dilinin öyrədilməsində fəal təlim metodlarının seçilməsi və tətbiqi fənnin mahiyyətinin kommunikativ məqsəd daşımasından, nitq fəaliyyətinin müxtəlif növləri üzrə praktik bacarıq və vərdişlər formalaşdırmaq vəzifəsindən irəli gəlir.

2-ci siniflərdə Azərbaycan dilinin təlimində ayrı-ayrı məzmun xətləri üzrə formalaşdırılması nəzərdə tutulan bacarıqlar öyrənmə prosesində onların qarşılıqlı şəkildə əlaqələndirilməsini, şagirdlərdə situasiyaya uyğun dialoqa girmə bacarıqlarının formalaşdırılmasını şərtləndirir ki, bu da öz növbəsində müəllim-şagird, şagird-şagird-şagirdlər ünsiyyətini zərurətə çevirir. Təcrübələr göstərir ki, ənənəvi təlim üsullarının dilin öyrədilməsinə tətbiqi arzu olunan nəticələri əldə etməyə imkan vermir. Beynəlxalq təcrübədə dillərin öyrədilməsində istifadə olunan təlim texnologiyalarının mənimsənilməsi və onların yaradıcı tətbiqi qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsini asanlaşdırır.

Azərbaycan dilinin öyrədilməsi prosesinin mahiyyəti məhz qarşılıqlı fəaliyyətin, ünsiyyətin reallaşdırılması ilə sıx surətdə bağlıdır. İnteraktivlik isə **«qarşılıqlı fəaliyyətə əsaslanan»** deməkdir. Kurikulumda təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dilinin tədrisində interaktiv (fəal) təlim metodlarından istifadənin metodik tələb kimi qarşıya qoyulması bu zərurətdən irəli gəlir.

İnteraktiv metodların təlim prosesinə tətbiqi müəllim-şagird münasibətlərinin xarakterinə əsaslı təsir göstərir: müəllimi tədris prosesinin aparıcı siması (idarəedicisi) mövqeyindən «öyrənməyi öyrədən» mövqeyinə keçirir. Həm də burada müəllimin fəaliyyəti yalnız dərs deməklə məhdudlaşmır, bu fəaliyyət dərsə qədərki mərhələdə daha qabarıq görünür. Tədris prosesində isə o, iştirakçılardan biri kimi, təlim fəaliyyətinin təşkilatçısı, əlaqələndiricisi, istiqamətvericisi, şagirdlərin məsləhətçisi və köməkçisi vəzifələrinin icraçısı kimi çıxış edir.

Şagird isə təlim fəaliyyətinin qarşılıqlı fəaliyyət göstərən subyektlərindən biri kimi, bilikləri «hazır» şəkildə qəbul edən «passiv obyekt»dən prosesin fəal iştirakçısına — axtaran, öyrənən, tədqiq edən, bilikləri «kəşf» edənə çevrilir.

İnteraktiv metodlardan istifadə təlim prosesində şagirdi fəallaşdırır, onu bilikləri axtarıcılıq yolu ilə əldə etməyə sövq edir, sinfin, qrupun digər şagirdləri ilə əməkdaşlıq etməyə, qarşılıqlı münasibətlər qurmağa və beləliklə də, ünsiyyətə girməyə, tədqiqat yolu ilə alınan nəticələri müzakirə etməyə, təqdimatlar hazırlamağa, oyun və yarışların fəal iştirakçısı kimi kollektiv fəaliyyət göstərməyə, çıxış etməyə təhrik edir, lazım gəldikdə mənsub olduğu qrupun maraqlarını qorumağa və müdafiə etməyə, müzakirə və problemlərin həlli prosesində onları dinləməyə alışdırır, fikir mübadiləsinə şərait yaradır. İnteraktiv metodların təlim prosesinə tətbiqi şagirdlərdə ünsiyyət şəraitini öyrənməklə dialoqa girmək, ümumiləşdirmələr aparmaq, nəticə çıxarmaq, alınmış nəticələri təqdim etmək və əsaslandırmaq bacarıqlarının formalaşdırılmasına imkan verir.

Təlim prosesində belə bir mühitin yaradılması şagirdlərin təfəkkür fəaliyyətini stimullaşdırır, idraki, hissi və psixomator fəaliyyətlərin inkişafını təmin edir, öyrənməyə motiv yaradır.

Yaradılmış problemli vəziyyət şagirdlərin intellektual imkanlarının səfərbər edilməsini şərtləndirir, şagird hissi-emosional vəziyyətin təsiri altında öyrənmə mühitinə daxil olur, seyrçi mövqedən prosesin iştirakçısına çevrilir. Bu həm də şagirdləri kollektivdə formalaşdırmaqla cəmiyyət həyatına hazırlamış olur; bu prosesdə əldə edilmiş bacarıqlardan müstəqil fəaliyyət zamanı istifadə və tətbiq etmək vərdişləri yaradır.

İnteraktiv təlim metodlarından istifadə tədris prosesində şagirdləri fəallaşdırmaqla yanaşı, onların dünyagörüşlərinin inkişafına və genişlənməsinə, şagirdlərdə məntiqi və tənqidi təfəkkürün formalaşmasına, şəxsi-iradi keyfiyyətlərin bərqərar olmasına təsir göstərir, yaradıcı təfəkkür elementlərinin reallaşdırılmasına və tətbiqinə meydan verir, davranış mədəniyyəti, qarşılıqlı hörmət hissi aşılayır, onları müstəqil qərarlar qəbul etməyə alışdırır.

## FƏAL (İNTERAKTİV) DƏRSİN MƏRHƏLƏLƏRİ

### I MƏRHƏLƏ: MOTİVASİYA

Məlumdur ki, hər bir tədqiqat maraq doğuran bir məsələnin axtarılması üzərində qurulur.

İnteraktiv təlim metodlarından istifadə şagirdləri problemləri öz qüvvələri ilə həll etməyə — «kəşf» etməyə təhrik etdiyindən, birinci növbədə, «kəşf edilməli olan»ın müəyyənləşdirilməsi tələb olunur.

Şagirdin təlim fəaliyyəti zamanı onda öyrəndiklərinə maraq oyatmaq, öyrənmə prosesinin fəal iştirakçısına-tədqiqatçısına çevirmək üçün onu problemli vəziyyətlərlə, real ziddiyyətlərlə qarşılaşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Tədris prosesində şagirdləri maraqlandıracaq, onların intellektual imkanlarını səfərbər edəcək belə emosional situasiya yaratmadan onları idraki fəallığa, əməkdaşlıq etməyə, problemin həlli üçün lazım gəldikdə birgə fəaliyyət göstərməyə sövq etmək çətin olur.

Şagirdin diqqətini öyrənilən məsələ üzərində mərkəzləşdirmək üçün problemin nədən ibarət olmasının xatırladılmasına ehtiyac duyulur ki, bu da **tədqiqat sualının** formalaşdırılması ilə nəticələnir.

Şagird belə problemli vəziyyətlərlə qarşılaşdıqda ziddiyyətləri aradan qaldırmaq üçün onun həlli yolları üzərində düşünür, fərziyyələr irəli sürür, axtarışa qoşulur, problemin həllini tapmayınca fikrini məşğul edən bu sualdan «yaxa qurtara bilmir».

Beləliklə, interaktiv dərsin I mərhələsində şagirdin diqqəti (özünün də xəbəri olmadan) problemin üzərinə elə ustalıqla yönəldilməlidir ki, bu, psixoloji amilə çevrilə bilsin, onda məsələnin həllinə maraq oyatsın.

Motivasiya zamanı suallar elə ardıcıllıqla qoyulmalıdır ki, şagird tədqiqat sualına addım-addım yaxınlaşsın, mülahizələr irəli sürməyə imkan tapsın, məlumdan naməluma doğru addımlaya bilsin.

Motivasiyanın uğurlu olması üçün nəzərə almaq lazımdır ki: 1) Motivasiya üçün seçilən material maraq doğurmalıdır; 2) Tədqiqat aparmaq və yaradıcılıq üçün imkan verməlidir; 3) Yönəldici suallar fərziyyələr irəli sürməyə həvəs oyatmalı, müxtəlif fikir və mülahizələr söyləməyə təhrik etməlidir; 4) Tədqiqat sualı standartda nəzərdə tutulan məzmun əsasında müəyyənləşdirilməli, qarşıya qoyulan məqsədin yerinə yetirilməsinə yönəldilməlidir.

Hazırladığımız vəsaitdə şagirdlərin Azərbaycan və tədris aparılan dillər üzrə məlum biliklərinə istinad edilərək onlar öyrədilməsi nəzərdə tutulan tədris materiallarının xarakter xüsusiyyətləri ətrafında düşünməyə sövq edilir (Bu zaman dili praktik cəhətdən bilənlərdən motivasiyanı gücləndirəcək faktor kimi istifadə edilə bilər).

### II MƏRHƏLƏ: TƏDQİQATIN APARILMASI

Bu mərhələdə tədqiqat sualının aydınlaşdırılması üçün lazım olan nümunələr, faktlar toplanır, seçilir və onların üzərində araşdırma, incələmə, təhlillər aparılır. Fakt və hadisələr, çalışmalır şagirdləri problemin həllinə yaxınlaşdırır. Motivasiya mərhələsində yaradılmış maraq daha da gücləndirilir və inkişaf etdirilir, fəallıq artırılır.

Tədqiqatın aparılması mərhələsində müxtəlif iş formalarından istifadə oluna bilər. Məktəblərdə Azərbaycan dilinin öyrənilməsində daha çox kollektivlə, böyük və kiçik qruplarla, cütlərlə iş formaları əlverişli hesab olunur.

Şagirdlər tədqiqat sualı ilə bağlı yeni-yeni dil vahidləri ilə tanış olduqca, müqayisələr, tutuşdurmalar apardıqca keçmiş və yeni biliklər arasında əlaqə yaradılır, ideyalar irəli sürülür, doğru cavabların layihələri hazırlanır, təqdimatların konturları cızılır.

### III MƏRHƏLƏ: İNFORMASİYA MÜBADİLƏSİ

Şifahi və yazılı təqdimatlar problemlə bağlı ideyaların mübadiləsini reallaşdırır. Tapılan həll yollarının müxtəlifliyi ilə tanışlıq maraqlı tərəfləri cəlb edir və onlar bir-birlərinin cavablarını dinləməyə maraq göstərirlər.

Təqdimatlarda sistemsiz şəkildə olsa da, yeni biliklərin dairəsi öz ifadəsini tapmış olur.

Təlim prosesində təqdimatların hazırlanması və informasiya mübadiləsi də digər mərhələlər kimi, canlı nitq situasiyası yaratdığı üçün kommunikativliyi təmin edir və dilin öyrənilməsinə münbit şərait yaranır.

### IV MƏRHƏLƏ: İNFORMASİYANIN MÜZAKİRƏSİ VƏ TƏŞKİLİ

Bu mərhələdə məqsəd şagirdlərin şifahi və yazılı təqdimatlarını sistemləşdirmək və qaydaya salmaq, onların tədqiqat sualı ilə bağlılığını müəyyənləşdirməkdir.

Müəllimin yardımçı sualları təqdimatlar arasındakı əlaqələri üzə çıxarmağa, tədqiqat sualı ətrafında ümumiləşdirmələr aparmağa və axtarılan cavabın aydınlaşmasına, durulmasına istiqamətlənir. Müəllim müzakirəni məqsədyönlü şəkildə elə məcraya yönəldir ki, şagirdlər doğru cavabı ümumiləşdirmə mərhələsinə gəlib çatsınlar. Bu mərhələdə təfəkkür əməliyyatları daha da fəallaşır və bütün intellektual imkanlar səfərbər olunur, idraki, hissi və psixomator fəaliyyət sahələri gərginləşir.

### V MƏRHƏLƏ: NƏTİCƏ VƏ ÜMUMİLƏŞDİRMƏ

Bu elə bir mərhələdir ki, şagirdi məmnuniyyət hissi keçirməyə, həzz duyğusunu yaşamağa, gələcək yeni uğurlara ruhlandırır.

Şagirdlər tədqiqat sualına doğru cavab verildiyinə əmin olduqda tədqiqatın kulminasiya anı yaşanır. Cavablar tədqiqat sualı ilə tutuşdurulur, fərziyyələr arasında doğru olanlar nəticə ilə əlaqələndirilir, əldə olunmuş nailiyyətlərin sevinci duyulur.

Nəhayət, ümumiləşdirilmiş fikir səsləndirilir və tədqiqat sona çatır.

### VI MƏRHƏLƏ: YARADICI TƏTBİQETMƏ

Bu məqsədlə şagirdlərə müxtəlif tapşırıqlar verilir. Təlim digər dillərdə aparılan məktəblərdə Azərbaycan dilinin öyrənilməsi nitq fəaliyyətinin ayrı-ayrı məzmun xətləri üzrə bacarıq və vərdişlərin təkrarını, möhkəmləndirilməsini və tətbiqini tələb edir. Təbiidir ki, bu və ya digər bacarıqların birdən-birə formalaşdırılması mümkün olmur. Şagirdlərin danışma, oxu və yazı üzrə bacarıqları daim inkişaf etdirilir və davamlı şəkil alır. Əldə edilmiş bacarıqlar konkret nitq situasiyalarında tətbiq edilməklə təkmilləşdirilir və fəallaşdırılır.

### VII MƏRHƏLƏ: EV TAPŞIRIQLARI

Azərbaycan dili təlimində bacarıq və vərdişlərin formalaşdırılması və təkmilləşdirilməsi üçün ev tapşırıqları mühüm əhəmiyyətə malikdir. Şagirdlər dərsdə formalaşdırılmış nitq fəaliyyəti növlərini müxtəlif ev tapşırıqları vasitəsilə tətbiq edirlər. Rəsmlər çəkməklə müəyyən əşyanı adlandıran sözü təkrar edir, tələffüz edir, cümlədə işlədir, yaxud nitq etiketlərindən istifadə etməklə dialoq qurur, əşyaları, hadisələri təsvir etməklə dil vahidərindən istifadə edir, dilin normalarını tətbiq edirlər.

## QİYMƏTLƏNDİRMƏ VƏ REFLEKSİYA

Qiymətləndirmə şagirdin öz fəaliyyətini nəzərdən keçirməsinə, qüsur və çatışmazlıqlarını aşkar etməsinə, nəticədə nöqsanların aradan qaldırılmasına kömək edir; şagirdi nailiyyətlərini izləməyə alışdırır; özünənəzarəti təmin edir; inkişaf səviyyəsini müəyyənləşdirmək imkanı yaradır.

Qiymətləndirmə müəllimə təlim işini təşkil etməyə, formalaşdırılmalı olan bacarıq və vərdişlərin səviyyəsinin qarşıya qoyulmuş məqsəd baxımından müvafiqliyini təyin etməyə, yeni bilik, bacarıq və vərdişlərin formalaşdırılması üçün münasib vaxtın yetişdiyini və fəaliyyətə başlamağın məqsədəmüvafiqliyini izləməyə imkan verir.

**Refleksiya** təlim prosesinin bütün mərhələlərini təhlil etməklə onu vahid proses kimi nəzərdən keçirməyə imkan verir. Tədqiqat zamanı şagirdin ayrı-ayrı mərhələlər üzrə keçdiyi yolu onun gözləri qarşısında yenidən canlandırmaqla fəaliyyətlərini izləmələri, fikirlərin sistemləşdirilmə mexanizmini təsəvvür etmələri təşkil edilmiş olur. Azərbaycan dili təlimində qiymətləndirmə və refleksiyanı həm dərsin müxtəlif mərhələlərində, həm də bütün mərhələlər başa çatandan sonra aparmaq məqsədəuyğundur.

Azərbaycan dilindən fəal dərsin səmərəli təşkili və nəticənin uğurlu olmasında düzgün planlaşdırma mühüm əhəmiyyət kəsb edir. Dərsin hər bir mərhələsini aydın təsəvvür etməyən, hər mərhələnin konkret təlim məqsədini müəyyənləşdirə bilməyən müəllim uğurlu nəticələr əldə edə bilməz. Dərs planlaşdırılarkən reallaşdırılması nəzərdə tutulan standarta uyğun təlim məqsədi və ya məqsədləri müəyyənləşdirilməli və onlara uyğun iş növləri, üsul və vasitələr seçilməlidir.

Təlim digər dillərdə olan məktəblərin 2-ci siniflərində Azərbaycan dili dərsləri planlaşdırılarkən aşağıdakı mərhələlərin («Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları» kitabında tövsiyə olunan) nəzərə alınmasını biz də məqsədəuyğun hesab edirik: 1. Mövzunu müəyyənləşdirmək; 2. Standartı konkretləşdirmək; 3. Dərsin məqsədini (məqsədlərini) müəyyən etmək; 4. Dərsin motivasiyasını işləyib hazırlamaq; 5. Tədqiqat sualını müəyyənləşdirmək; 6. Aparılacaq tədqiqatın mərhələlərini planlaşdırmaq və bu zaman tədqiqat üçün tapşırıqları, iş üsulları və formalarını, məlumat mənbələrini dəqiqləşdirmək; 7. Müzakirə üçün suallar hazırlamaq; 8. İdeyaları və alınacaq nəticələri qısaca ifadə etmək; 9. Dərsin hər mərhələsinə sərf olunacaq vaxtı müəyyənləşdirmək; 10. Qiymətləndirmə standartlarına əsasən vasitələr hazırlamaq; 11. Dərs üçün lazım olan resursları (təchizatı) müəyyən etmək.

Azərbaycan dili dərslərində şagirdləri fəallaşdırmaq, dilin öyrənilməsinə maraq oyatmaq, münbit öyrənmə mühiti yaratmaq üçün **şaxələndirmə, beyin həmləsi, Venn diaqramı, diskussiya, rollu oyunlar, konseptual cədvəl, BİBÖ, ziqzaq** və s. kimi interaktiv təlim metodlarından, həmçinin qeyri-standart dərs formalarından (cütlərlə, böyük və kiçik qruplarla iş) istifadə faydalı hesab edilir. Bununla yanaşı, dərsin məqsədinə müvafiq olaraq kollektiv iş, fərdlərlə iş formalarından da yeri gəldikdə istifadə məqsədəuyğun hesab olunur.

(bax: Azərbaycan Respublikasının təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu (I-IV siniflər) — Bakı-2007).

## ŞAGİRD NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Şagirdlərin fənlər üzrə məzmun standartlarına uyğun bilik, bacarıq və vərdişlərinin səviyyəsinin yoxlanılması davamlı və dinamik olmaqla nailiyyətlərin izlənilməsini təmin etmək baxımından çox əhəmiyyətli və sistemli bir prosesdir.

Şagird fəaliyyəti üzərində fasiləsiz, davamlı müşahidə aparılmadan, irəliləmə və geriləmə qeydə alınmadan və bunlara müvafiq zəruri mənimsəmə şəraiti yaradılmadan məzmun standartlarında qəbul edilmiş təlim nəticələrinə nail olunması təmin edilə bilməz. Bunun üçün hər bir dərsdə şagirdin fəaliyyəti — onun yazılı və şifahi cavabları, ev tapşırıqlarını yerinə yetirməsi səviyyəsi, sinifdəki müstəqil işləri, oyun və yarışlarda, qrup daxilindəki fəallığı əhəmiyyətlilik baxımından eyni dərəcədə nəzərə alınmalı və dəyərləndirilməli, qiymətləndirmədə bunlara vacib faktor kimi istinad edilməlidir.

Müəllimin şagird fəaliyyətinin dinamikasını fasiləsiz və davamlı olaraq müşahidəsi təlim prosesində daha yüksək səviyyəyə nail olunmasına təkan verən yol və vasitələrin, resursların tapılmasına imkan verir. Odur ki, məzmun standartlarının mənimsənilməsi prosesində müəllim hər bir şagirdin fəaliyyətini daim diqqət mərkəzində saxlamalı, onun irəliləyişini və geriləməsini vaxtında müşahidə etməli, zəruri fəaliyyət sahəsini stimullaşdıracaq qərarların qəbul edilməsinə etinasız yanaşmamalıdır.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi müəllimə həmçinin öz fəaliyyətini təhlil etməyə, lazım gəldikdə tədrisin planlaşdırılmasında müəyyən zəruri dəyişiklik etməyə və buna uyğun yol və vasitələrin, forma və üsulların seçilməsində ləngimədən qərarlar qəbul etməyə imkan verir. Beləliklə, şagird nailiyyətlərinin qiymətləndirilməsi onların irəliləyişinin və geriləməsinin izlənilməsi, təlim prosesində müəyyən qərarların qəbul edilməsi, şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsi, eyni zamanda, kurikulumun qiymətləndirilməsi üçün zəruridir.

Təsadüfi deyildir ki, qiymətləndirmə və təlim proseslərinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxılır. Çünki qiymətləndirmə təlim nəticələri ilə maraqlı tərəflər arasında əks-əlaqə vasitəsi kimi sistemli bir prosesdir.

Məzmun standartlarının mənimsənilməsi səviyyəsini müəyyənləşdirmək üçün, əsasən, **diaqnostik** (ilkin səviyyənin qiymətləndirilməsi), **formativ** (irəliləyişin izlənilməsi) və **summativ** (yekun) qiymətləndirmə növlərindən istifadə olunur.

**İlkin səviyyənin qiymətləndirilməsi** (diaqnostik) şagirdin bilik və bacarıqlarının səviyyəsini müəyyən etməyə xidmət edir və təlim prosesini düzgün təşkil etməkdə müəllimə kömək göstərir. Şagirdlərin artıq nələri bildiklərinin aşkara çıxarılması öyrənilmiş materiallara yenidən vaxt itirilməsinin qarşısını alır, şagirdin sonrakı fəaliyyəti üçün düzgün istiqamətləndirilməsinə şərait yaradır. Bu prosesdə, eyni zamanda, yeni materialın mənimsənilməsinə hazırlıq səviyyəsi aşkar edilir, həmçinin yeni materialı mənimsəməyə hazır olduğu ehtimal olunan şagirdləri müəyyən etmək imkanı yaranır.

**Şagird irəliləyişlərinin monitorinqi** (formativ qiymətləndirmə) tədrisin düzgün istiqamətləndirilməsini təmin edir, şagirdin bilik və bacarıqlarının səviyyəsində daha irəli getməsi üçün nələri etmənin üzərində düşünməyə, şagird fəaliyyətini stimullaşdıracaq alternativ üsul və vasitələrə müraciət etməyə ehtiyac olub-olmadığını müəyyənləşdirməkdə müəllim üçün indikatora çevrilir.

Məzmun standartlarının reallaşmasına istiqamətlənən formativ qiymətləndirmə sinifdə hər bir şagirdin fəaliyyətinin səviyyəsini müəyyən etməklə tədris prosesinin tənzimlənməsinə, sinifdəki bütün şagirdlərin irəliləyişinin təmin olunmasına, geridə qalan şagirdlərin ehtiyaclarını aşkara çıxararaq onlara əlavə kömək göstərilməsinə imkan verir, beləliklə, müəllimin fəaliyyətini istiqamətləndirir. Odur ki, şagird irəliləyişinin monitorinqi müntəzəm xarakter daşımalıdır. Müəllim bunu ev tapşırığını yoxlamaqla, sinifdə şagirdin mənimsəmə fəaliyyəti üzərində müşahidə aparmaqla, müəyyən tapşırıqların icra vəziyyətini müxtəlif formalarda yoxlamaqla həyata keçirə bilər. Hər bir dərsdə şagirdin fəaliyyəti izlənilməklə yanaşı, hər altı həftədən gec olmayaraq şagirdlərin standartlar üzrə nailiyyətlərinin daha ümumi yoxlanılması təşkil edilməlidir.

Hər bir növbəti mərhələdə monitorinq şagirdlərin əldə etdiyi nailiyyətlərin standartlara uyğunluğunu öyrənməyə xidmət edir. Bu monitorinqlər nəticəsində əldə edilmiş materiallar tədris prosesinin tənzimlənməsində əhəmiyyətli rol oynayır. Nəticələr müəllimə imkan verir ki, öz fəaliyyətini bir daha nəzərdən keçirsin. İrəli getməli, yoxsa kifayət səviyyədə mənimsənilməmiş hissəyə yenidən vaxt ayırmalı olduğunu müəyyənləşdirsin; şagirdlərin öyrəndiklərini yaradıcı tətbiq edə bilmələrini təyin etsin; planlaşdırmada hər hansı bir dəyişiklik aparılmasına ehtiyac olub-olmadığına, olarsa hansı formada həyata keçirilməli olmasına qərar versin.

**Yekun qiymətləndirmə** (summativ) standartda nəzərdə tutulmuş məzmun xətləri üzrə təlim nəticələrinə şagirdlərin hansı səviyyədə nail olduqlarını müəyyən edir. Yekun qiymətləndirmə müəllimə imkan verir ki, şagirdin materialı mənimsədiyini və lazımi səviyyədə qavradığını aşkar etsin, şagirdin mənimsədiyini tətbiq etmə səviyyəsini müəyyənləşdirsin, irəli getmək üçün lazımı səviyyəyə nail olunduğuna əmin olsun.

Yekun qiymətləndirmə şagirdlərin irəliləyişini dəyərləndirir. Bu qiymətləndirmə mövzunun, bəhs və ya bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Yekun qiymətləndirmədə məqsəd şagirdin mənimsədiklərini tətbiq etmə bacarığına nə dərəcədə malik olduğunu aşkara çıxarmaqdır.

Hər bir fənn kurikulumunda məzmun standartları, təlim strategiyaları ilə yanaşı, mənimsənilmiş təlim nəticələrinin qiymətləndirilməsi üçün müvafiq qiymətləndirmə standartları da müəyyənləşdirilmişdir. Qiymətləndirmə standartları milli kurikulumda əks olunmuş nailiyyətlərə (nəticələrə) uyğun hazırlanır.

## TƏDRİS KOMPLEKTİNİN SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

Təlim digər dillərdə aparılan ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün «Azərbaycan dili» tədris komplekti «Azərbaycan Respublikasının təlim digər dillərdə aparılan ümumtəhsil məktəbləri üçün Azərbaycan dili kurikulumu» (I-IV siniflər) əsasında hazırlanmışdır. Tədris komplekti dərslik və metodik vəsaitdən ibarətdir və birlikdə məzmun xətləri üzrə standartda nəzərdə tutulmuş təlim nəticələrinə nail olmaq üçün zəruri resursları təmin edir.

Dərslikdə 68 saat üçün hazırlanmış tədris materialları 34 paraqrafda cəmləşdirilmiş, 13, 14, 21 və 32-ci paraqraflar bir, qalanları isə iki dərs üçün nəzərdə tutulmuşdur.

Müəllimin ixtiyarına verilən saatlardan isə (4 saat) hər rübün sonunda təkrar məqsədi ilə, həmçinin summativ qiymətləndirmələr üçün istifadə edilməlidir.

Tədris komplektinin xüsusiyyətlərinə keçmədən, qeyd etmək yerinə düşər ki, 2-ci sinif Azərbaycan dili təliminin ən mürəkkəb və çətin dövrünü təşkil edir. Bu dövrün çətinliyini xarakterizə edən cəhət ondan ibarətdir ki, 2-ci sinif yalnız əlifba təlimi dövrünü əhatə etməklə məhdudlaşmır. Bu siniflərdə şagirdlərə tipoloji cəhətdən fərqli bir dilin səs sistemi və əlifbası öyrədilməklə müvazi olaraq, nitq fəaliyyətinin müxtəlif növləri üzrə bacarıq və vərdişlər formalaşdırılması nəzərdə tutulur, dilin nəzəri məsələləri barədə məlumat verilməsə də, praktik yolla Azərbaycan dilinin öyrədilməsi həyata keçirilir.

Azərbaycan dilindən dərslikdə hər bir paraqraf eyni bir hərfin öyrədilməsinə aid materialları əhatə etməklə bir-birini tamamlayır. Dərslikdəki materiallar bir-birini təkrar etmir. Müəyyən bacarıq və vərdişlərin formalaşdırılması üzrə zəruri biliklər dərslikdə verilir.

2-ci siniflər üçün dərsliyin ən mühüm özəlliyi orasındadır ki, Azərbaycanda fəaliyyət göstərən təlim digər dillərdə aparılan məktəblərdə şagirdlərin Azərbaycan dilini bilməsi eyni səviyyədə deyil. Hətta eyni bir sinifdə bu dili yenicə öyrənməyə başlayan şagirdlərlə yanaşı, Azərbaycan dilini praktik cəhətdən bilən və bu dildə sərbəst nitq bacarıqlarına malik olan şagirdlər də təhsil alırlar. Bunu nəzərə alaraq dərslik iki səviyyə üçün işlənmiş, hər iki səviyyənin imkanlarını nəzərdə tutan təlim materialları verilmiş və bunlar şərti işarələrlə fərqləndirilmişdir. Dili praktik cəhətdən bilənlər üçün hazırlanmış materiallar, eyni zamanda, dili zəif bilən şagirdlərdə dilin öyrənilməsinə maraq oyatmağa da xidmət edir.

Dərslik komplekti hazırlanarkən varislik nəzərə alınmış, şagirdlərin Azərbaycan dilindən I sinifdə dinləyib-anlama və danışma məzmun xətləri üzrə təlim nəticələri, bacarıqların səviyyəsi didaktik materialların xarakterində öz ifadəsini tapmışdır.

Dərslikdə müxtəlif məzmun xətləri üzrə (dinləyib-anlama, danışma, oxu və yazı) verilən materiallarda interferensiyanın qarşısının alınması üçün tədris dilinin xüsusiyyətləri nəzərə alınmış, Azərbaycan dilində müvafiq bacarıqların formalaşdırılması üçün zəruri elementlər (cins anlayışı, morfoloji kateqoriyaların səciyyəvi əlamətləri, cinsə görə uzlaşma, sintaktik xüsusiyyətlər) praktik yolla mənimsədilir. Məsələn, Azərbaycan dilində cins kateqoriyasının olmaması, əlamət və miqdar bildirən sözlərin aid olduqları əşya bildirən sözlərlə əlaqələnməsində cinsə görə uzlaşmanın olmaması barədə aydın təsəvvür yaratmaq və müvafiq bacarıqlar formalaşdırmaq məqsədilə rəngarəng sxemlərdən istifadə olunur, müvafiq anlayışlar şagirdlərin nitqinə hazır ifadələr, nitq modelləri daxil edilməklə mənimsədilir:




yaxud:




və ya şəxsə görə Azərbaycan dilində uzlaşma ilə əlaqədar fərqli cəhətlər:




Bu sxemlərdə həm qız, həm də oğlan adlarından, III şəxsi bildirən **«o»** əvəzliyindən eyni zamanda istifadə təsadüfi xarakret daşımır. Məlum olduğu kimi, **«o»** əvəzliyi bəzi dillərdə müxtəlif sözlərlə ifadə olunduğu halda, Azərbaycan dilində bir sözlə ifadə olunur.

Dərslikdə hərf və səslərin öyrədilməsi üzrə qurulmuş sistem bütün paraqraflarda gözlənilir. Məsələn, içərisində öyrədilməsi nəzərədə tutulan səs və ya hərf, həmin səsin işləndiyi müvafiq hecalar olan sözləri əks etdirən predmet şəkillərdən istifadə dərsliyin bütün paraqraflarında eyni sistemlə verilir.

Qeyd olunan sistemdə eyni anlayışı bildirən hər hansı bir şəkildən dərslikdə müxtəlif hərflərin öyrədilməsində istifadəyə metodik prinsip kimi yanaşılmalı, həmin sözlərdə olan səslərlə bağlı düzgün tələffüz bacarıqlarının formalaşdırılması və lüğətin fəallaşdırılması istiqaməti diqqət mərkəzində saxlanılmalıdır. Bu sistem həmçinin dinləyib-anlama və danışma üzrə müvafiq bacarıqların formalaşmasına imkan verir.

2-ci siniflər üçün hazırladığımız dərslikdə Azərbaycan şəxs adlarından sıx-sıx istifadəyə də metodik prinsiplərdən biri kimi yanaşılmalı, onun əhəmiyyəti düzgün dəyərləndirilməlidir. Şagirdlərin təlim yükünü əlavə anlayışlar hesabına artırmamaq məqsədi ilə (çünki adlar tərcümə edilmir) dərs toplusunda içərisində Azərbaycan dilinin spesifik səsləri və fonetik xüsusiyyətləri (məsələn, ahəng qanunu) işlənən şəxs adlarının müxtəlif xarakterli çalışmalarda işlədilməsinin arxasında xüsusi təlim məqsədi gizlədilmişdir. Məsələn, dərsliyin ayrı-ayrı paraqraflarında içərisində öyrədilən hərflər olan adlarla yanaşı, əlavə informasiya vermədən içərisində [e, ö, ə, ü, h, g, ğ, y, c] səsləri işlənən Nərmin, Aygün, Könül, Ömər, Cəmilə,

Toğrul, Mələk, Elçin, Ülkər, Həmidə, Nərgiz və s. kimi adlara da müraciət olunmasından məqsəd spesifik səslərin düzgün tələffüzü ilə bağlı müvafiq bacarıqların formalaşdırılmasıdır.

Dərslikdə müxtəlif məzmun xətləri üzrə verilmiş materiallar fəndaxili inteqrasiyanın tələbləri nəzərə alınaraq üzvi surətdə bir-birini tamamlayır və bu, şagirdlərdə müvafiq bacarıqların formalaşmasına təkan verir.

2-ci siniflər üçün hazırlanmış standarta uyğun olaraq dərsliyin hər bir paraqrafında nitq fəaliyyətinin müxtəlif növləri üzrə bacarıq və vərdişlərin interaktiv metodlarla formalaşdırılmasına, təkmilləşdirilməsinə və inkişafına imkan verən çalışmalar, şəkillər, dialoqlar, oyun xarakterli iş növləri nəzərdə tutulmuşdur. Bütün bunlar, bir tərəfdən, şagirdlərdə öyrənməyə motiv yaratmağa, onları həvəsləndirməyə xidmət edirsə, digər bir tərəfdən də, təlim fəaliyyəti zamanı yeknəsəqliyi aradan qaldırır, qeyri-standart (qruplarla, cütlərlə) iş formalarının tətbiqini təmin edir.

Tədris vəsaitində istifadə olunmuş çalışmalar nitq fəaliyyətinin müxtəlif növləri üzrə bacarıqlar formalaşdırılmasına imkan yaratdığı üçün eyni bir çalışma növündən müxtəlif məqsədlərlə istifadə olunması tövsiyə olunur. Məsələn, şəkillər üzrə çalışmalar keçilən səslərlə bağlı şagirdin lüğət ehtiyatının genişlənməsinə və fəallaşmasına real zəmin yaratmaqla yanaşı, həmin sözdə olan müvafiq səsin və ya səslərin, hecanın düzgün tələffüzü, sözün səs, heca tərkibinin müəyyənləşdirilməsi, sözün cümlədə və birləşmə daxilində işlədilməsi istiqamətində, eyni zamanda, məzmun standartlarında nəzərdə tutulmuş seçib ayırma və qruplaşdırmaqla sadalama kimi təfəkkür əməliyyatlarının aparılmasına imkan verir.

Dərslikdə dilin qrammatik quruluşunun praktik yolla mənimsənilməsini təmin edən çoxlu sxemlərdən istifadə olunmuşdur ki, buradakı dil materialları Azərbaycan dilinin qrammatik quruluşu barədə müəyyən təsəvvürlərin yaranmasını təmin etməklə, eyni zamanda, tələffüz, oxu və ilkin tərcümə bacarıqlarını formalaşdırır. Bütün bu sxemlərdə Azərbaycan dilinin xarakterik qrammatik kateqoriyaları ilə bağlı xüsusiyyətlər (cəm şəkilçiləri, mənsubiyyət, hal, xəbərlik şəkilçiləri, feillərdə zaman və şəxs şəkilçiləri və s.) praktik şəkildə öz ifadəsini tapmış və şagirdlərin göz yaddaşına təsir etmək məqsədi ilə fərqli fonlarla sözün digər hissələrindən ayrılaraq fərqləndirilmişdir. Müəllimlər bu imkanları da lazımi şəkildə dəyərləndirməli və diqqət mərkəzində saxlamalıdırlar.

Dərslikdə şagirdlərin oxu bacarıqlarının formalaşdırılmasına xüsusi diqqət yetirilmişdir. Nəzərdən qaçırmaq olmaz ki, şagirdlərdə düzgün, sürətli oxu bacarıqları bilavasitə əlifba təlimi dövründə formalaşdırılır, sonrakı dövrdə isə inkişaf etdirilir. Odur ki, dərslikdə bu istiqamətin reallaşdırılması üçün bütün imkanlar səfərbər olunmuş, keçilən hərflərlə bağlı mümkün olan nitq modellərindən istifadə ilə oxu materialları tərtib edilmişdir. Bu məqsədlə hecalarla oxu, rabitəli kiçik mətnlərin, dialoqların oxusu, sxemlər üzrə dil materiallarının oxusu, seirlərin, tapmacaların, lətifələrin, atalar sözləri və nitq etiketlərinin oxusu müvafiq məzmun xətti üzrə təlim nəticələrinə nail olmağı təmin etməlidir.

Oxu və tərcümə bacarıqlarının təkmilləşməsi və inkişafı üzrə nəzərdə tutulmuş mətnlərin getdikcə genişləndirilməsi narahatlıq doğurmamalıdır. Bu, bir tərəfdən, dili praktik cəhətdən bilənlərin tələbatını ödəməyə xidmət edir, digər tərəfdən, şagirdlərin mexaniki, hərfi tanımadan «əzbər oxu»sunun qarşısını alır. Adətən, əlifba təlimi dövründə verilmiş cəmi 2-3, bəzən 4-5 kiçik cümlə bir neçə şagird tərəfindən oxunduqda əzbər yadda qalır və şagird mətnə baxaraq oradakı sözləri səs-hərf tərkibini incələmədən (hecalarla oxumadan) «oxuyur» ki, bu səbəbdən də düzgün oxu bacarığının formalaşması ləngiyir və əlifba təlimi başa çatdıqdan sonra şagirdlərdə müvafiq bacarıq formalaşdırılmamış olur. Mətn bir qədər geniş olduqda isə bu «mexaniki oxuma» mümkün olmur, şagirdin verilmiş hissəni sözün həqiqi mənasında oxuması üçün real zəmin yaranmış olur. Belə geniş mətnlərin bütövlükdə eyni şagirdə oxutdurulması vacib deyil, mətnin ayrı-ayrı hissələrini müxtəlif şagirdlərə oxutmaq daha məqsədəuyğun hesab edilir.

Metodik vəsaitdə müəllimin fəal təlim metodları ilə işləməsi üzrə zəruri olan məsələlər əhatə olunmuş, hərflərin öyrədilməsi nümunəsində təxmini dərs modeli qurulmuşdur. Müəllimlərin yaradıcılığını məhdudlaşdırmamaq, eyni zamanda, vəsaitin həcmini nəzərə alaraq bütün dərslərin geniş icmallarını vermək məqsədəuyğun hesab edilməmişdir. Verilmiş nümunələr təxmini hesab edilməli və hər bir dərs müəllim üçün yeni-yeni ideyaların qaynağı olmalıdır.

Dərslik ilə işləyərkən müəllim müəllifin həyata keçirmək istədiyi ideyaların reallaşmasına nail olmalı, bunun üçün lazım olan bütün resursları hərəkətə gətirməlidir. Məsələn, yeni öyrədilən səs içərisində işlənmiş hecaların tələffüzü üçün verilmiş çalışmalarda fərqli rəngdən istifadə edildiyi müəllimin diqqətindən yayınmamalıdır və o bundan istifadə edərək şagirdləri axtarıcılığa həvəsləndirməlidir.

Dərslikdə şagirdlərin yazı bacarıqlarının səviyyəsinin yoxlanılması üçün kiçik imla mətnləri verilmişdir ki, müəllimlər özləri də belə materiallar seçə, analoji sxemlər, cədvəllər tərtib edə, şəkillər və illüstrasiyalardan istifadə edə bilərlər.

Müəllim şagirdlərin nailiyyətlərini hər bir dərsdə dərslikdə verilmiş müxtəlif növ tapşırıqların yerinə yetirilməsi səviyyəsinə uyğun olaraq qiymətləndirməli, şagird nailiyyətlərinin monitorinqi (izlənilməsi) isə hər altı həftədən gec olmayaraq təşkil edilməlidir. Bu işləri müəllimin münasib bildiyi dərslərin ikinci saatında (fərdi planına uyğun olaraq) aparması məqsədəuyğun hesab edilir. Şagird nailiyyətlərinin izlənilməsi 9, 17, 28-ci paraqraflardan sonra və 34-cü paraqraf əsasında planlaşdırılmış təkrar dərslərində də həyata keçirilə bilər.

Şagirdlərin tələffüz və oxu bacarıqlarının səviyyəsinin yoxlanılması canlı müşahidə yolu ilə mümkün olduğundan yoxlama materiallarını sinfin səviyyəsinə uyğun olaraq dərslikdəki keçilmiş münasib tədris

materialları, həmçinin vəsaitin sonunda əlavə oxu üçün verilmiş bədii parçalar əsasında müəllimlərin tərtib etməsi tövsiyə olunur. Bu məqsədlə müəllim özünün münasib bildiyi yoxlama materiallarından da istifadə edə bilər.

Metodik vəsaitin sonunda şagirdlərin bilik və bacarıqlarının səviyyəsini yoxlamaq və yekun qiymətləndirmə üçün test tapşırıqlarına aid nümunələr verilmişdir. Müəllimlər məzmun standartlarına uyğun yoxlama materialları ( test və tapşırıqlar) tərtib etməkdə və yoxlama formasını seçməkdə sərbəstdirlər.

Müəllim hər bir dərsdə şagirdlərin fəaliyyətinin müvafiq meyarlar əsasında qiymətləndirilməsini həyata keçirir. Bu məqsədlə yaxşı olar ki, dərsin 1-ci saatında şagirdin qrup daxilində fəaliyyəti, dərsin 2-ci saatında isə şagirdin fəaliyyəti fərdi qaydada — tapşırıqları yerinə yetirmə səviyyəsi, fikirlərini ifadə edə bilmə və müzakirələrdə dinləyib suallar verə bilmə qabiliyyəti izlənilsin və meyarlara uyğun qiymətləndirmə aparılsın. (bax. cədvəl 1,2)

Metodik vəsaitin sonunda müəllimlərin əlavə oxu üçün tövsiyə edə biləcəyi bədii parçalar, şeirlər və tapmacalardan nümunələr verilmişdir. Tədris ilinin sonunda əlifbadakı bütün hərflər keçilib qurtardığından müəllim yay tətilində oxumaq üçün Azərbaycan dilində nəşr olunan uşaq qəzet və jurnallarının adlarını uşaqlara söyləməli, oxu bacarıqlarının təkmilləşdirilməsi üçün onların oxunmasını tövsiyə etməlidir.

Hər bir dərsin qarşısına qoyulmuş təlim məqsədinin nə səviyyədə yerinə yetirilməsi müəllimin pedaqoji ustalığından, işə məsuliyyətlə yanaşmasından və pedaqoji innovasiyalara bələdliyindən, münbit öyrənmə mühitini təşkil edə bilmək qabiliyyətindən asılı olacaqdır. Bu işdə müəllimlərə uğurlar arzulayırıq.

### QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ №1

| Meyarlar / Şagirdlərin adı və soyadı | Əməkdaşlıq edir | Yoldaşlarını dinləyir | Qrupa verilən tapşırıqların yerinə yetirilməsində iştirak edir | Deyilən fikirlərə münasibət bildirir | Ümumi nəticə |
|---|---|---|---|---|---|
| 1. | | | | | |
| 2. | | | | | |
| 3. | | | | | |
| 4. | | | | | |
| 5. | | | | | |

**Qeyd.** Müəllim qrupların fəaliyyətini izləyir və meyarlar üzrə fərdi olaraq şagirdlərin qruplarda işləmək bacarığını qiymətləndirir. Bunun üçün dərsin əvvəlindən sonunadək müəllim şagirdlərin adı qarşısında hər hansı göstərilən meyar üçün «+» işarəsi qoymaqla qeydlərini edir.

### QİYMƏTLƏNDİRMƏ CƏDVƏLİ №2

| Meyar / Qrup | I qrup | II qrup | III qrup | IV qrup |
|---|---|---|---|---|
| Fəal iştirak edir | | | | |
| Tapşırıqları yerinə yetirir | | | | |
| Öz fikirlərini ifadə edir | | | | |
| Yoldaşlarını dinləyir və suallar verir | | | | |
| Ümumi nəticə | | | | |

**Qeyd.** Müəllim şagirdlərlə birlikdə onların müzakirələrdə iştirakının meyarlar üzrə qiymətləndirməsini həyata keçirir. Dərsdə qrupların işindən asılı olaraq hər hansı verilmiş meyarların qarşısından «+» və ya «-» işarəsi yazılır, sonda nəticə çıxarılır.

# İLLİK TEMATİK PLANLAŞDIRMA

| Standart | Mövzular | Metodik vəsait (səh.) | Dərslik (səh.) | Saat |
|---|---|---|---|---|
| 1.1.1.; 2.2.1.; 2.2.2.; 2.2.3. | §1. Gəlin danışaq! | 14 | 5 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 4.1.1. | §2. [A] səsi və «A» hərfi | 16 | 10 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1. | §3. [N] səsi və «N» hərfi | 19 | 11 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1. | §4. [Ə] səsi və «Ə» hərfi | 22 | 12 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1. | §5. [T] səsi və «T» hərfi | 26 | 13 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1. | §6. [B] səsi və «B» hərfi | 30 | 14 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1. | §7. [U] səsi və «U» hərfi | 34 | 15 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1. | §8. [L] səsi və «L» hərfi | 38 | 16 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.; 4.1.2. | §9. [M] səsi və «M» hərfi | 42 | 18 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §10. [R] səsi və «R» hərfi | 45 | 19 | 2 |
| 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §11. [İ] səsi və «İ» hərfi, [I] səsi və «I» hərfi | 49 | 21 | 2 |
| 2.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §12. [D] səsi və «D» hərfi | 50 | 23 | 2 |
| 1.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.2. | §13. [K], [K'] səsi və «K» hərfi | 52 | 25 | 1 |
| 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.2. | §14. [O] səsi və «O» hərfi | 53 | 27 | 1 |
| 2.1.1.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §15. [G] səsi və «G» hərfi | 54 | 29 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.1.2.; 2.2.1; 3.1.1.; 4.1.1.; 4.1.2. | §16. [Y] səsi və «Y» hərfi | 56 | 30 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §17. [Z] səsi və «Z» hərfi | 58 | 32 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 2.2.1.; 3.1.1.; 3.1.3.; 4.1.2. | §18. [X] səsi və «X» hərfi | 60 | 34 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.1.2.; 2.2.1.; 3.1.1.; 4.1.1.; 4.1.2.; 4.1.3. | §19. [Q] səsi və «Q» hərfi | 61 | 36 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.1.2.; 2.2.1.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3. | §20. [F] səsi və «F» hərfi | 63 | 39 | 2 |
| 1.1.2.; 1.1.3.; 3.1.2.; 4.1.1.; 4.1.2. | §21. [S] səsi və «S» hərfi | 65 | 41 | 1 |
| 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2.; 4.1.3. | §22. [Ş] səsi və «Ş» hərfi | 66 | 43 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.2.1.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3. | §23. [Ü] səsi və «Ü» hərfi | 68 | 46 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.2.1.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §24. [C] səsi və «C» hərfi | 70 | 49 | 2 |
| 1.1.3.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3. | §25. [Ç] səsi və «Ç» hərfi | 72 | 51 | 2 |
| 1.1.2.; 2.1.1.; 2.1.2.; 2.2.1.; 2.2.2.; 3.1.2.; 3.1.3.; 4.1.2. | §26. [E] səsi və «E» hərfi | 73 | 54 | 2 |
| 1.1.3.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3. | §27. [V] səsi və «V» hərfi | 75 | 56 | 2 |
| 1.1.2.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3. | §28. [Ö] səsi və «Öö» hərfi | 77 | 59 | 2 |
| 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3. | §29. [Ğ] səsi və «Ğ» hərfi | 79 | 62 | 2 |
| 1.1.2.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §30. [H] səsi və «H» hərfi | 81 | 65 | 2 |
| 1.1.2.; 2.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2. | §31. [P] səsi və «P» hərfi | 83 | 68 | 2 |
| 1.1.2.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3. | §32. [J] səsi və «J» hərfi | 85 | 72 | 1 |
| 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3. | §33. Mənim Vətənim | 86 | 77 | 2 |
| 1.1.1.; 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2.; 4.1.3. | §34. Təkrar | 87 | 82 | 2 |
| | Müəllimin ixtiyarına verilən saatlar | | | 4 |

# 1-ci və 2-ci DƏRSLƏR. (§1)

## MÖVZU: GƏLİN DANIŞAQ! (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.2.1.; 2.2.2.; 2.2.3.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; təqdim olunan və şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; şəkildə gördüyü əşyaları qruplaşdırır; dərslikdə gördüyü şəkilləri (səh. 4, 5, 6) təsvir edir, oxuduğu məktəb haqqında birinci şəxsin dili ilə danışır; sadə cümlələrdən istifadə etməklə yoldaşları ilə dialoq qurur.

**İnteqrasiya:** A-d. 1.1.1, 1.2.1, H-b.1.1.2.

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Əyləncəli oyun, müzakirə, rollu oyunlar.

**Resurslar:** Dərslik, şəkillər, plakat.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim lövhədən 3 şəkil asır: 1-ci şəkildə şagirdlər görüşürlər; 2-ci şəkildə müəllim və şagird görüşür; 3-cü şəkildə valideynlər görüşürlər. Müəllim sinfə müraciət edir:

— Şəkildə gördüklərinizin mənasını necə izah edə bilərsiniz? (Şagirdlərin cavabları dinlənilir. Müəllim şagirdlərə görüşmə etiketləri barədə məlumat verir, yoldaşları ilə ünsiyyət qurmaq yollarını başa salır (Salam! Gün aydın! Sabahınız xeyir! Necəsən? Xoş gördük! Necə dincəldiniz? və s.).

Yardımçı sual:

— Görüşmə zamanı nitq etiketləri ilə tanış oldunuzmu?

**Tədqiqat sualı:** Tanış olmaq məqsədilə hansı sözlərdən istifadə etmək lazımdır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Hamı dairə boyunca düzülür. Hər bir iştirakçı növbə ilə özündən əvvəlkinin və özünün adını deyir. Məsələn, **I şagird:** — Mənim adım Samirdir.

**II şagird:** — Mənim adım Elşəndir, yoldaşımın adı isə Samirdir.

**III şagird:** — Mənim adım Aynurdur, yoldaşlarım isə Elşən və Samirdir.

Oyun dairə boyunca davam edir. Sonuncu şagird isə hamının adını çəkməlidir, kimin adını unutsa, başqaları ona kömək edə bilərlər.

***II addım:*** Müəllim şagirdlərin fəaliyyətini ümumiləşdirmək üçün suallar verir:

— Siz nəyi öyrəndiniz?

— Şəkildə (dərslik, səh.4) gördüyünüz müəllim şagirdlərlə görüşərkən hansı sözlərdən (nitq etiketlərindən) istifadə edə bilər?

— Şəkildəki (dərslik, səh.4) şagirdlər görüşərkən hansı sözləri işlədirlər?

Cavablar dinlənilir. Müəllim şagirdlərin cavablarını ümumiləşdirir:

— Siz bildiniz ki, tanış olmaq üçün əvvəlcə adınızı, sonra soyadınızı söyləməlisiniz. Artıq siz bir-birinizi yaxından tanıdınız, yoldaşlarınızı dinləməyi, onlara sual verməyi bacardınız.

***III addım:*** Müəllim şagirdlərə məktəb, sinif avadanlıqları, dərs ləvazimatlarının şəkilləri təsvir olunmuş kartoçkalar paylayır. Şagirdlərlə şəkildə göstərilənlər barədə müzakirə aparır. Bu mövzuda oyun keçirir. Oyun «Nə gördün?» adlanır.

***IV addım:*** Uşaqlar 2 qrupa bölünür. I qrupun üzvləri II qrupun üzvlərinə müraciət edirlər:

— Sinifdə (dərslik, səh.5) hansı əşyalar var?

— Sinifdə yazı taxtası, müəllim üçün stol, stul, partalar var.

II qrupun üzvləri sual verirlər:

— Şəkildə hansı məktəb ləvazimatlarını görürsünüz?

— Şəkildə çanta, dəftər, albom, qələm, kitab var.

Sonra qruplar sualları dəyişirlər.

***V addım:*** Şagirdlərin məktəb haqqında bilikləri təkmilləşdirilir, I sinifdə əldə etmiş olduqları bilik və bacarıqlara istinad edilərək, məktəb avadanlıqları, dərs ləvazimatları haqqında öyrəndikləri yada salınır və yeni sözlər öyrənilir.

***VI addım:*** Müəllim şagirdlərin gördüklərini başqasına çatdıra bilmək bacarığını yoxlamaq məqsədilə oyun keçirir. Uşaqlar 3 qrupa bölünür. Hər qrupa dərsliyin 6-cı səhifəsindəki bir şəkli təsvir etmək tapşırılır. Uşaqlara kömək məqsədilə müəllim şifahi şəkildə köməkçi (açar) sözləri xatırladır: (I şəkil – çəmənlik, göyərçin, qanad, yaralı, sarğı, tutmaq, sarımaq, xilas etmək və s.), (II şəkil – bağ, yuva, fəsil, nərdivan, köçəri quşlar, sərçə, çəkic, mişar, balta, düzəltmək, çıxmaq, asmaq və s.), (III şəkil – həyət, bel, susəpən, ləklər, belləmək, əkmək, qulluq etmək və s.)

Hər qrupun iştirakçıları şəkildə gördüklərini danışırlar. I qrupun iştirakçısı digər qrupun iştirakçısına sual verə bilər və ya əksinə. Cavablar dinlənilir və müzakirə edilir. Müəllim şagirdlərin kiçik həcmli cümlələr qurmasını istiqamətləndirir, nitqlərindəki bəzi səhvlərin aradan qaldırılmasına çalışır.

**Nəticə və ümumiləşdirmə:** Dərsin sonunda belə bir nəticəyə gəlinir: görüş zamanı insanlar ünsiyyət qurmaq üçün müəyyən edilmiş nitq etiketlərindən (sözlərdən) istifadə edirlər.

**Ev tapşırığı:** Günün müəyyən saatlarında (səhər, günorta, axşam) ailə üzvləri ilə görüşərkən işlədilən nəzakətli sözləri öyrənmək.

**Qiymətləndirmə:** Qiymətləndirmə alqışlar vasitəsilə həyata keçirilir. Müəllim şagirdlərə bildirir ki, hamınız yaxşı fikirlər söylədiniz, fəal iştirak etdiniz. Bunun üçün gəlin bir-birimizi alqışlayaq (Alqışlama ayrı-ayrı qruplar üçün, tək bir şagird üçün də ola bilər).

## MÖVZU: GƏLİN DANIŞAQ! (2-ci SAAT)

**Qeyd**. Standart, təlim nəticələri, inteqrasiya, dərsin tipi, forması, üsulu, resurslarla bağlı 1-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim şagirdlərdə ailə anlayışı haqqında təsəvvür yaratmaq məqsədilə lövhədən otaq təsvir olunmuş şəkil asır. Sonra sinfi 3 qrupa bölür. Hər qrupa müxtəlif şəkillər (baba, ata, nənə, kitab, şkaf, it, pişik, uşaq, cücə, qlobus və s.) paylayır, sonra qruplara müraciət edərək soruşur:

— Bu otaqda kim yaşaya bilər?

Hər qrupun üzvü lazım bildiyi şəkli ( yalnız kim? sualına cavab verən) gətirib «otaqda yerləşdirir» (şəkillərin arxası yapışqanlı olmalıdır). Müəllim sinfə müraciət edir:

— Bu otaqda yaşayan insanları birlikdə necə adlandırmaq olar?

Yardımçı sual:

— Bu insanları nə üçün bir «otaqda yerləşdirdiniz?» Onları bir sözlə necə adlandırmaq olar? (Müxtəlif cavablar səsləndirilir)

Müəllim lövhədən tədris aparılan və Azərbaycan dillərində uşaqlara paylanmış şəkilləri adlandıran sözlər (baba, nənə, ata, ana, qız, it, pişik, cücə, kitab, qlobus və s.) yazılmış plakat asır və həmin sözləri oxumağı təklif edir. Uşaqlar təhsil aldıqları dildə yazılmış sözləri oxuyurlar, Azərbaycan dilindəki sözləri isə oxumaqda problemlə qarşılaşırlar. Müəllim yönəldici sualla uşaqlara müraciət edir:

— Uşaqlar, siz şəkilləri adlandırmaqda çətinlik çəkmədiniz. Azərbaycan dilində səsləndirdiyiniz sözləri oxumaqda çətinlik çəkirsiniz? Axı bu hərflərin çoxu sizə tanışdır! (Uşaqlar öz mülahizələrini səsləndirirlər).

**Tədqiqat sualı:** Kimləri ailə üzvü hesab etmək olar? Sözləri oxuya bilmək üçün nə lazımdır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim qruplara belə bir tapşırıq verir. Hər qrupdan bir nəfər öz ailəsi haqqında I şəxsin dili ilə məlumat verməlidir. Qrup üzvləri danışan yoldaşlarına kömək edə bilərlər. Müəllim yönəldici, istiqamətləndirici fikirlər səsləndirməklə söylənilən məlumatın dolğunlaşmasına kömək edir.

Sonra şagirdlərin diqqəti dərsliyin 7-8-ci səhifəsindəki şəkillərə cəlb edilir. Şagirdlər şəkildə gördükləri əşyaların adlarını sadalayırlar.

***II addım.*** Müəllim qruplara adlandırdıqları şəkillər üzrə (dərslik səh.7-8) belə bir tapşırıq verir: I qrup **heyvan və quşların**, II qrup **meyvə və tərəvəzlərin,** III qrup isə **ev əşyalarının** adlarını qruplaşdıraraq söyləməlidir. Dili praktik cəhətdən bilənlərə 6-cı səhifədəki şəkillərdən biri üzrə danışmaq tapşırığı verilə bilər.

***III addım.*** Müəllim Azərbaycan əlifbası ilə şagirdlərin ilkin tanışlığını təşkil etmək məqsədilə onların diqqətini yenidən 7-8-ci səhifələrdəki şəkillərə cəlb edir. Şagirdlər şəkilləri adlandırmağa başlayırlar. Müəllim yanaşı şəkillərin adlarında eyni səsin sözdəki yerinə diqqəti cəlb edir, həmin səsin işarəsi ilə ilkin tanışlığa stimul yaradır. Şəkillərin kənarında müvafiq səslərin işarələrinin çap nümunələri verilmişdir ki, müəllim həmin işarələri göstərərək Azərbaycan əlifbasını il boyu öyrəndikcə təhsil aldıqları dilin əlifbası ilə oxşar və fərqli cəhətlərlə qarşılaşacaqlarını şagirdlərin nəzərinə çatdırır. Sonra tədris dilində səs və hərflərin sayı ilə əlaqədar müsahibə aparır və Azərbaycan dilində 34 səs və 32 hərf olduğu barədə məlumat verir.

Tədqiqat sualı xatırladılır. Təklif olunan sözləri şagirdlərin nə üçün oxuya bilmədikləri ilə bağlı yeni mülahizələr dinlənilir.

**Nəticə və ümumiləşdirmə:** Ailə ilə bağlı fikirlər ümumiləşdirilir: Baba, nənə, ata, ana, oğul, qız ailə üzvləri adlana bilər. Azərbaycan dilində olan səslər və hərflər tədris dilindəki ilə eyni deyil, odur ki, bu dildə oxuyub, yaza bilmək üçün Azərbaycan əlifbasını öyrənmək lazımdır.

**Ev tapşırığı:** Dərsliyin 7-8-ci səhifəsində verilmiş səslərə uyğun yeni sözlər tapın. (I sinifdə əldə edilmiş bilik və bacarıqlara istinad etməklə).

**Qiymətləndirmə:** Qiymətləndirmə alqışlar vasitəsilə həyata keçirilir.

## 3-cü və 4-cü DƏRSLƏR (§2)

### MÖVZU: [A] SƏSİ VƏ «A» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 4.1.1.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; şəkildə gördüyü əşyaları qruplaşdırır; dərslikdə gördüyü şəkilləri (çalışma 3, 4) təsvir edir; «Aa» hərfini kalliqrafik cəhətdən düzgün yazır, böyük və kiçik hərfləri fərqləndirir.

**İnteqrasiya:** A-d. 1.1.3, X-d. 1.1.2, 2.1.1, Riy. 1.1.1, İnf. 1.2.3.

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, rollu oyunlar, müzakirə, oyun-yarış.

**Resurslar:** Dərslik, şəkillər, plakat, iş vərəqləri, göstərici, mulyaj, kəsmə əlifba.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən içərisində [a] səsi işlənən və içərisində [a] səsi işlənməyən əşyaların şəkilləri (məsələn: alma, qarpız, bayraq, dəftər, xətkeş, nəlbəki və s.) asılır. Müəllim uşaqların I sinifdə əldə etmiş olduqları bilik və bacarıqlara istinad edərək səs və hərf anlayışlarını yada salır: (Biz səsləri deyirik və eşidirik; hərfləri yazırıq və görürük) və tədris dilində içərisində [a] səsi olan sözlər söyləməyi təklif edir. Bu üsuldan istifadə edərək situasiyanı Azərbaycan dilində davam etdirir. Bunun üçün lövhədən asılmış şəkillərdə gördüklərini Azərbaycan dilində adlandırmağı şagirdlərə təklif edir.

— Dediyiniz sözlərin hamısında [a] səsini eşitdinizmi? (**Alma, bayraq, qarpız** sözlərində eşidildiyi bildirilir)

**Tədqiqat sualı:** Səs nədir, hərf nədir? [A] səsi sözün hansı hissəsində işlənə bilir?

**Tədqiqatın aparılması:** Uşaqlarla «Sehirli torba» oyunu keçirilir. Sinif 3-4 nəfərlik qruplara bölünür. Hər qrup özlərinin liderini və hər qrupdan cavabları qiymətləndirmək üçün nümayəndələr seçir. Müəllim qrup liderlərinə təklif edir ki, növbə ilə torbadan əşyaları çıxarıb adlarını Azərbaycan dilində desinlər. Sonra həmin sözlərdə [A] səsinin sayını və yerini müəyyənləşdirsinlər. İştirakçılar oyunun tələblərini yerinə yetirirlər. Tapşırığın öhdəsindən hansı lider gələ bilmədikdə həmin qrupun digər üzvlərinə müraciət edilir. Bütün əşyalar çıxarılıncaya qədər oyun davam etdirilir. Oyun qurtardıqdan sonra seçilmiş nümayəndələr müəllimin köməyi ilə qalibi müəyyənləşdirirlər. Müəllim oyunu yekunlaşdıraraq həmin işi dərslik üzrə davam etdirməyə başlayır.

— Uşaqlar, indi dərslikdə 2-ci çalışmadakı şəkillərə baxın, həmin şəkillərdə gördüklərinizi Azərbaycan dilində deyin. Müəllim şagirdlərin çətinlik çəkdikləri halda, şəkilləri adlandırmaqda onlara kömək edir. Sonra sinfə belə bir tapşırıq verir:

— Uşaqlar, şəkilləri ardıcıllıqla rəqəmlərlə işarələyin.

Müəllim sinfə iş vərəqləri paylayır. İş vərəqlərində cədvəl çəkilmişdir:

| Sözün əvvəlində | Sözün ortasında | Sözün sonunda |
|---|---|---|
| | | |

Müəllim əvvəlki qruplara təklif edir ki, şəkil üzrə deyilən sözlərdə [a] səsinin yerini bildirən rəqəmi nömrələrə uyğun olaraq cədvələ yapışdırsınlar (məsələn: **bayraq** sözündə [a] səsi ortadadır, şagird onu «1» rəqəm ilə nömrələyib — «1» rəqəmini cədvəldə II xanaya yapışdırır və bu qayda ilə iş davam edir). Bu çalışmadakı şəkillər əsasında müəllim, eyni zamanda, seçib ayırma və qruplaşdırmaqla sadalama bacarıqları üzrə iş apara bilər.

Sonra müəllim şagirdlərə [a] səsinin harada eşidildiyinə diqqət yetirmələrini tövsiyə edərək dərslikdəki 4-cü çalışmada verilmiş hecaları oxuyur, şagirdlər həmin hecaları təkrar edirlər. Şagirdlər eşitdikləri hecalarda [a] səsinin yerini müəyyənləşdirdikdən sonra ümumiləşdirmə aparılır.

**Nəticə və ümumiləşdirmə:** [A] səsini deyirik, eşidirik, «Aa» hərfini yazırıq və görürük. [A] səsi sözün və hecanın əvvəlində, ortasında və sonunda işlənə bilir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Dərslikdəki 5-ci çalışmanın tələbinə uyğun sözlər tapmaq və 2-ci çalışmadakı şəkillərdən birini evdə çəkmək tapşırılır.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [A] SƏSİ VƏ «A» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 3-cü dərsə bax.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim şagirdlərin ev tapşırıqlarını necə yerinə yetirmiş olmalarını yoxlayır, kimin hansı şəkli çəkdiyini müəyyənləşdirir. Sonra şəkillərin içərisindən ən yaxşıları seçmək üçün 3 nəfərdən ibarət nümayəndələr qrupunu seçməyi təklif edir. Nümayəndələr şəkillərin içərisindən bəyənilənləri seçirlər, həmin şəkillər hamının tanış olması üçün lövhədən asılır. Sonra müəllim ev tapşırığının nəticəsini yoxlamaq üçün şagirdlərin [a] səsi ilə başlayan sözlər deməsini yarış şəklində təşkil edir: «Kim daha çox...» yarışı keçirir. Daha çox söz deyə bilən şagirdlər rəğbətləndirilir. Müəllim sonra sinfə belə bir sualla müraciət edir:

— Uşaqlar, keçən dərsimizdə [a] səsi ilə tanış olduq. [A] səsi ilə başlayan, içərisində [a] səsi olan və [a] səsi ilə bitən sözlər dedik, eyni zamanda, hecaları tələffüz etdik. Gəlin dərslikdəki 4-cü çalışmadakı hecalara baxaq. Siz onları oxuya bilirsinizmi? Bəs niyə oxuya bilmirsiniz? Həmin hecaları yazmağı necə, bacarırsınızmı? Düşünün. Niyə yaza bilmirsiniz?. Müəllim şagirdlərin evdə çəkdikləri şəkilləri göstərərək onların diqqətini yazı bacarığının formalaşmasına cəlb edir:

— Kim deyər, bu gördükləriniz həmin əşyaların özüdür, yoxsa şəkli?

Müvafiq cavab alındıqdan sonra müəllim tədqiqat sualı ilə sinfə müraciət edir.

**Tədqiqat sualı:** — Uşaqlar, [a] səsinin şəklini çəkmək olarmı? Əgər biz [a] səsinin şəklini çəksək, deməli, «Aa» hərfini yazmağı öyrənəcəyik.

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim lövhədə «Aa» hərfini yazır və yazı bacarığı üzrə şagirdlərin işini təşkil edir. İş yekunlaşdırılır.

***II addım:*** Sonra dərslikdəki 4-cü çalışmanın 2-ci hissəsi üzrə problem situasiya yaradılır.

— Uşaqlar kim deyər, təhsil aldığınız dildə elə hecalar varmı ki, o həm də sözdür? Fikirləşib nümunələr deyin. Kim belə nümunələr deyər? Müvafiq cavab alındıqdan sonra tapşırığın icrasına başlamaq üçün şagirdlər 5 qrupa bölünürlər. Qruplar dərslikdəki şəkillərdən beşi ilə adlandırılır **(bayraq, alma, ay, qartal, aşıq)**. Müəllim iş formasını izah edir:

— Uşaqlar, mən hər hecanı tələffüz etdikdə diqqətli olun. Hansı hecanı söz hesab etsəniz, əllərinizdəki göstəricinin yaşıl üzünü göstərin, sözün mənasını tədris dilində deyin. Hansı qrupun lideri daha tez göstəricini qaldırsa və sözün mənasını düzgün desə, qalib həmin qrup hesab olunacaq. Bu qayda ilə oyun davam etdirilir. Müəllim lövhədə qrupların adlarını cədvəldə yazır və hər qrupun düzgün cavabı cədvəldə ştrixlə göstərilir. İş başa çatdıqda ştrixlər sayılır və qalib qrup müəyyənləşdirilir. Müəllim həmin hecalardan hansıların həm də söz olduğunu təkrar edir, mənasını deyir. Müəllim deyir:

— Uşaqlar, indi bu yarışı davam etdirəcəyik, liderlərinizi seçin. Müəllim hecaları oxuyur. Şagirdlər eşitdikləri hecaların işləndiyi sözləri tapmağa çalışırlar. Hansı qrup tez tapsa, göstəricinin yaşıl üzünü qaldırır. Müəllim lövhədəki cədvəldə ştrixləri qoyur. Hecalar oxunub qurtardıqdan sonra qaliblər müəyyənləşdirilir və rəğbətləndirilir. Bu çalışmadakı şəkillər əsasında, eyni zamanda, seçib ayırma və qruplaşdırmaqla sadalama bacarığı üzrə iş aparmaq tövsiyə olunur.

Vaxt qaldıqda həmin qruplara süjetli şəkil üzrə cümlələr qurmaq tapşırığı verilir. Uşaqlara içərisində [a] səsi olan adlar vermək təklif olunur. Hər qrup öz variantını təqdim edir və lazım gəldikdə düzəlişlər edilir.

**Nəticə və ümumiləşdirmə:** Müəllim «Aa» hərfinin [a] səsinin şəkli, işarəsi olduğunu bildirir. 4-cü çalışmadakı hecalardan söz olanları təkrar etməklə Azərbaycan dilində belə heca-sözlərlə bütün hərflər keçildikcə qarşılaşacaqlarını söyləyir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** 3-cü çalışmadakı şəkillərin içərisindən **gilas** və **yarpaq** şəklini çəkmək və həmin sözlərdən beşinə aid cümlə qurmaq tapşırılır.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 5-ci və 6-cı DƏRSLƏR. (§3)

### MÖVZU: [N] SƏSİ VƏ «N» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir onları qruplaşdırır; dərslikdə və İş dəftərində gördüyü şəkilləri (çalışma 4, 6) təsvir edir; öyrəndiyi hərfləri və hecaları düzgün oxuyur; «Nn» hərfini kalliqrafik cəhətdən düzgün yazır, böyük və kiçik hərfləri fərqləndirir.

**İnteqrasiya:** A-d. 1.1.3, Riy. 1.1.1, H-b. 2.1.1, T-i. 2.2.2.

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Bütün siniflə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, kəsmə əlifba, iş vərəqləri, göstərici, plakat.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim lövhədən içərisində [n] səsi işlənən və işlənməyən əşyaların şəkillərini (**nar, pencək, ilan, banan, traktor, velosiped, armud, çətir** və s.) asır. Əvvəlki dərslərdə səs və hərf anlayışları barədə deyilənlərə istinad edərək lövhədən asılmış şəkilləri adlandırmağı təklif edir. Nəzərə almaq lazımdır ki, I sinifdə Azərbaycan dili dərsində şagirdlər müəyyən əşyaları adlandıra bilmək bacarıqlarına yiyələnmişlər. Odur ki, müəllim bu imkanlardan, eləcə də fənlərarası əlaqədən istifadə etməyi bacarmalıdır. Müəllim yardımçı sualla şagirdlərə müraciət edir:

— Dediyiniz sözlərin hamısında [n] səsini eşitdinizmi?

Cavab alındıqdan sonra müəllim həmin sözlərin içərisindən [n] səsi işlənən sözləri seçib deməyi təklif edir və şagirdləri istiqamətləndirir:

— Uşaqlar, gəlin həmin şəkillərə bir də baxaq və içərisində [n] səsi eşitdiyiniz sözləri seçək. Məsələn, kim (müəllim **nar** şəklini göstərərək soruşur) bu şəkildə gördüyünü Azərbaycan dilində adlandıra bilər? («Nar» sözü deyilir.) Burada [n] səsi varmı?

Təsdiq edildikdə müəllim ikinci sualı verir:

— Bəs deyə bilərsinizmi, bu səs sözün hansı hissəsində eşidilir?

Cavab doğru olduqda müəllim **traktor** şəklini göstərərək soruşur:

— Bu şəkildə gördüyünüzü sözlə ifadə edə bilərsinizmi?(«Traktor» sözü deyilir)

— Bu sözdə [n] səsini eşitdinizmi? (Bu sözdə [n] səsinin olmadığı bildirilir)

Müəllim kəsmə əlifbada [n] səsini ifadə edən hərfi uşaqlara göstərir.

**Tədqiqat sualı:** [N] səsi təhsil aldığınız dildə varmı? Bu səs Azərbaycan dilində sözün hansı hissəsində işlənə bilir? Azərbaycan və təlim dillərində olan [n] səsi eyni hərfləmi işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** «Sehirli torba» oyunu keçirilir. Bu oyun barədə artıq əvvəlki dərslərdən uşaqların təsəvvürü var. Operativ şəkildə 4 qrup müəyyənləşdirilir və liderlər seçilir. Müəllim lövhədə qrupların adları **(günəş, nərgiz, nar, xonça)** yazılmış sxem çəkir və oyun başlayır:

Hər bir qrupun lideri növbə ilə torbaya yaxınlaşaraq oradan müəyyən əşya və ya onun şəklini çıxarıb adlandırmalı, həmin sözdə [n] səsinin yerini və sayını söyləməlidir. Şagirdləri fəallaşdırmaq məqsədi ilə əvvəlki dərsdə bu oyunda lider cavab verə bilmədikdə qrupun digər üzvlərinə müraciət edilməsinə yol verilirdi. Bu dərsdə yalnız liderlər cavab vermək hüququna

malik hesab olunurlar. Müəllim qrupların cavablarını hər dəfə «+» və ya «-» işarələri ilə sxemdə göstərir. Axırıncı əşya çıxarılana qədər oyun davam edir. Oyun qurtardıqdan sonra şagirdlərin iştirakı ilə qalib qrup müəyyənləşdirilir və elan edilir. Müəllim şagirdlərin emosional vəziyyətini qiymətləndirərək onları ruhdan düşməməyə həvəsləndirir.

***II addım:*** Oyuna uyğun analoji iş dərslikdəki müvafiq çalışma üzrə yarış şəklində davam etdirilir. Müəllim şagirdlərin diqqətini dərslikdəki 2-ci çalışmaya cəlb edir. Şəkilləri göstərərək qrupların öz aralarında şəkildə gördükləri əşyaların adlarını tapmalarını təklif edir. Yenə də liderlər müəyyənləşdirilir. Bu oyunda liderlər digər qrupların liderlərinə şəkillərdən seçib ayırdığını ( şəkillərin nömrəsini deməklə) adlandırmağı təklif edir. Cavab doğru olduqda həmin qrup xal qazanır və müəllim lövhədəki cədvəldə cavabı «+» işarəsi ilə, əks halda «-» işarəsi ilə qeyd edir. Oyun yekunlaşdırılır və doğru cavablar sayılıb qalib qrup müəyyənləşdirilir. Çalışma əsasında həmçinin seçib ayırma və qruplaşdırmaqla sadalama bacarığının formalaşdırılması üzrə iş aparılır. Bu əməliyyatın müvafiq çalışmalar əsasında bundan sonrakı bütün dərslərdə aparılması tövsiyə olunur.

***III addım:*** İş vərəqləri paylanır. Müəllim şəkilləri qruplarla birgə sıralayır. Hər şəkil 1, 2, 3, 4, 5 və s. nömrələrlə şifrələnir. Bu mərhələdə şəkillərdə təsvir olunan əşyaların adlarında [n] səsinin yerini müəyyənləşdirmək üzrə yarış keçirilir. Qruplar şəkillərə baxaraq sözləri tələffüz edir, həmin sözlərdə [n] səsinin yerini iş vərəqlərindəki müvafiq cədvəldə rəqəmlərlə qeyd edirlər.

| Sözün əvvəlində | Sözün ortasında | Sözün sonunda |
|---|---|---|
| | | |

İş başa çatdıqdan sonra liderlər iş vərəqlərini təqdim edirlər. Müəllim cavabları yoxlayaraq müzakirəni təşkil edir. İş vərəqlərindəki cavabların hansıların yanlış olduğu müəyyənləşdirilir və həmin cavablar yenidən təhlil edilir. Ümumiləşdirmə aparılır.

***IV addım:*** Müəllim dərslikdəki 3-cü çalışmada verilmiş hecalara diqqəti cəlb edir. Onları tələffüz edir və şagirdlərin müəllimdən sonra təkrar etmələrini təklif edir. Tələffüz üzrə iş başa çatdıqdan sonra müəllim həmin hecalarda [n] səsinin yerinin müəyyənləşdirilməsi üzrə işi davam etdirir.

**Yardımçı sual:**

— Uşaqlar, sözlərdə [n] səsinin yerini müəyyənləşdirərkən nə məlum oldu?
— [N] səsi sözün əvvəlində, ortasında və sonunda işlənə bilir.
— Bəs hecalarda necə, [n] səsi hecanın əvvəlində, ortasında və sonunda işlənə bilirmi?
— [N] səsi hecanın əvvəlində və sonunda işlənir.

***V addım:*** «Ana» sözünü cümlə içərisində işlətmək üzrə iş aparılır.

**Nəticə və ümumiləşdirmə:** [N] səsi hecanın əvvəlində və sonunda, sözün əvvəlində, ortasında və sonunda işlənir. [N] samit səsdir. Azərbaycan dilində [n] səsinin işarəsi – «Nn» hərfinin tədris dilindəki ilə eyni, yoxsa fərqli yazıldığı müəyyənləşdirilir.

Şagirdlər dərsin sonunda [n] səsinin sözün müxtəlif yerlərində işlənməsinə aid nümunələr deyir, həmin misallarda [n] səsinin sayını və yerini müəyyənləşdirir, içərisində [n] səsi işlənən sözlər hesabına lüğətlərini genişləndirir, həmin sözlərdən istifadə etməklə cümlə (dili praktik cəhətdən bilənlər şəkil üzrə rabitəli kiçik mətnlər) qururlar.

**Ev tapşırığı:** Evdə içərisində [N] səsi olan 10 söz tapmaq, «nar» şəkli çəkmək tapşırılır.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [N] SƏSİ VƏ «N» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 5-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Ev tapşırığı yoxlanılır. Müəllim sinfə müraciət edir:

— Uşaqlar, evdə hansı meyvənin şəklini çəkmisiniz?

— Hamı xorla «nar şəklini» cavabını verir. Müəllim həmin sözün fonematik təhlilini aparır.

— Uşaqlar, **nar** sözündə birinci hansı səs eşidilir? ([N] səsi)

— Bəs ikinci hansı səsi eşidirsiniz? ([A] səsini)

— Uşaqlar, bu sözdə neçə səs var? (Üç səs)

— Uşaqlar, bu sözdə üç səs var və siz bunların ikisini artıq keçmisiniz. Həmin səslərin işarələrini, yəni hərfləri də tanıyırsınız və yaza bilirsiniz. 3-cü səsi isə hələ keçməmisiniz. Müəllim heca anlayışına diqqəti cəlb edir:

— Kim deyər, bu söz neçə hecadan ibarətdir? (Bir hecadan)

Müəllim şagirdlərin ana dilindən biliklərinə istinad edir, heca barədə söhbəti genişləndirir.

— Uşaqlar, mən bir tapmaca deyəcəyəm, görək kim onun cavabını daha tez tapacaq? Tapmaca belədir: **Aldım bir dənə, açdım – min dənə.**

Tapmacanın cavabını tapan olmadıqda müəllim nar şəklini göstərir, uşaqlar xorla «nar» sözünü deyirlər.

**Tədqiqat sualı:** — Uşaqlar, siz «ana» sözünü artıq oxuya bilirsiniz. Bəs yazmağı necə, bacarırsınızmı? Bu sözdən başqa, hansı hecaları yaza bilərsiniz? Görək içərisində [n] səsi olan sözləri cümlədə işlədə bilirsinizmi? İçərisində [n] səsi olan hecalar müxtəlif sözlərdə işlənə bilirmi?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim: — Gəlin dərslikdəki 3-cü çalışmaya baxaq. Mən hecaları oxuyacağam, diqqətli olun, görək siz özünüz hansı hecaları oxuya biləcəksiniz?

Hecalar oxunur, onların içərisindən **«na, an»** hecalarını şagirdlər oxuya bilirlər.

Çalışma üzrə iş davam etdirilir. Müəllim bu hecalardan hansıların həm də söz olduğuna şagirdlərin diqqətini cəlb edir. Dili praktik cəhətdən bilənlər daha çox fəallıq göstərirlər: **«mən, sən, on, gün, nar, qan, yun»** sözləri səsləndirilir. Müəllim həmin sözlərin şagirdlərin lüğətinə daxil olması üçün tədris dilində mənalarını deməyi və «mən, sən» sözlərinə aid cümlə qurmağı təklif edir. Şagirdlərin cümlə qurmaq bacarığını inkişaf etdirmək məqsədilə müəllim lövhədən bir plakat asır.

***II addım:*** Plakatda «Hamının nənəsi» şeirindən bir bənd yazılıb. Muəllim şeiri oxuyur:

***Nənəmi sən də,***
***Gəl yaxşı tanı.***
***Mənim nənəm tək,***
***Bir nənə hanı?***

— Uşaqlar, eşitdiyiniz şeirdə hansı söz bir neçə dəfə işlənib? («Nənə» cavabı verilir)

— Uşaqlar, kim **«nənə»** sözünü işlətməklə cümlə qura bilər? Gəlin dərslikdəki 4-cü çalışmadakı şəklə baxaq.

Müəllim şagirdlərin şəkil üzrə cümlə qurmaq (dili bilənlərin isə rabitəli cümlələr söyləmək) bacarıqlarını izləyir, təkmilləşdirmələr aparır.

***III addım:*** Şagirdlərin yazı bacarıqlarının formalaşması üzrə iş gedir. Nümunə üzrə şagirdlər «ana» sözünü yazırlar.

***IV addım:*** Müəllim şagirdlərin lüğətini genişləndirmək üçün Sinif 4 qrupa bölünür. Qruplara keçən dərsdə qoyulan adlar yada salınır **(günəş, nərgiz, nar, xonça).** Lövhədə qrupların adı yazılmış cədvəl çəkilir. Yarışın şərti izah olunur. Müəllim hecaları oxuyur. Şagirdlər şəklə baxırlar. Hansı qrup içərisində həmin heca işlənən sözü tez tapsa, göstəricini qaldırır. Söz tələffüz edilir. Cədvəldə həmin qrupa aid müvafiq xanada «+» işarəsi qoyulur. Kim həmin heca işlənən başqa sözlər deyə bilsə «+» -lər çoxalır. Nəzərə almaq lazımdır ki, dərslikdə ancaq məhdud sayda əşyaların şəkilləri verilib, digər tərəfdən, bütün sözlərin şəklini çəkmək mümkün deyil. Odur ki, müəllimlər bunu nəzərə almalı və şagirdləri bu istiqamətdə məlumatlandırmalıdırlar. Oyunun bu şəkildə aparılması şagirdləri fəallaşdırır və emosional vəziyyət yaradır. Məsələn, [nək] hecası ilə **inək** sözündən başqa, **köynək**, [çan] hecası ilə **«çanta»** sözündən başqa, **siçan,** [lan] hecası ilə **ilan, oğlan, Nurlan, Tərlan** və s.kimi sözlər deyilə bilər. Şagirdlər belə sözləri tapa bilmədikdə müəllim özü misallar söyləyib, onları həvəsləndirməlidir. Oyun yekunlaşdırılır. Hansı qrupda «+» - lərin sayı çoxdursa, həmin qrup qalib elan olunur. Ümumiləşdirmə aparılır, şəkil əsasında deyilən sözlər bir daha səslənir.

**Nəticə və ümumiləşdirmə:** [N] səsi birhecalı, ikihecalı və üçhecalı sözlərdə **(nar, banan, qaranquş)** sözün əvvəlində, ortasında və sonunda işlənən samit səsdir. İçərisində [n] səsi işlənən hecalar müxtəlif sözlərdə işlənə bilir (çanta, siçan). Sözləri yaza bilmək üçün hərfləri yazmağı öyrənmək lazımdır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Evdə **inək** şəkli çəkin. İnək barədə danışmağa hazırlaşın. **«Ana»** və **«nənə»** sözlərini cümlələrdə işlədin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 7-ci və 8-ci DƏRSLƏR. (§4)

### MÖVZU: [Ə] SƏSİ VƏ «Ə» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; [ə] səsini və verilmiş hecaları düzgün tələffüz edir; şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir və onları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 4, 7) təsvir edir; öyrəndiyi hərfləri, hecaları və sözləri düzgün oxuyur; «Əə» hərfini və verilmiş sözləri düzgün yazır, böyük və kiçik hərfləri fərqləndirir.

**İnteqrasiya:** A-d. 1.1.3, X-d. 1.1.2, Riy. 1.1.1, H-b. 2.1.1, T-i. 2.2.2.

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş .

**Dərsin üsulu:** Beyin həmləsi, rollu oyun, müzakirə .

**Resurslar:** Dərslik, şəkillər, kəsmə əlifba, iş vərəqləri, plakat və cədvəllər.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən içərisində [ə] səsi olan və olmayan əşyaların (**banan, çanta, ilan, kələm, qələm, əlcək**) şəkilləri asılır. Müəllim lövhədən asılmış şəkilləri adlandırmağı təklif edir. Şagirdlər çətinlik çəkdikdə dili praktik cəhətdən bilənlər fəallıq göstərirlər. Bu zaman şagirdlərin əşya, predmet, əlamət və hərəkətləri adlandırmaqla bağlı indiyəqədərki təcrübələrinə istinad edilir.

**Yardımçı sual:**

— Deyilən sözlərin hamısında [ə] səsini eşitdinizmi?

Cavab alındıqdan sonra müəllim içərisində [ə] səsi işlənən sözləri seçib deməyi təklif edir. **Kələm, qələm, əlcək** sözləri təkrar edilir. Müəllim **əlcək** şəklini göstərərək sinfə müraciət edir:

— Kim bu əşyanın adını həm tədris (müvafiq dilin adı) həm də Azərbaycan dilində deyər? (tədris dilindəki söz, **əlcək**)

— Tədris dilində bu söz hansı səslə başlayır? ([...] səsi ilə)

— Bəs Azərbaycan dilində bu söz hansı səslə başlayır? ([Ə] səsi ilə)

— Bu sözdə yalnız bir [ə] səsi eşidirsiniz? (Bu sözdə 2 [ə] səsi eşidilir. Əvvəldə və ortada)

Müəllim kəsmə əlifbada «Ə» hərfinin çap şəklini göstərir, lövhədə «Ə» hərfinin əlyazma nümunəsini yazır.

**Tədqiqat sualı:** [Ə] səsi tədris dilində də varmı? [Ə] səsi sözün hansı hissəsində işlənə bilir? [Ə] necə səsdir?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim şagirdlərin diqqətini dərslikdəki 2-ci çalışmaya cəlb edir. Şagirdlər 6 qrupa bölünürlər. Hər qrup 2 şəkli adlandırmalı və həmin sözlərdə [ə] səsinin yerini və sayını söyləməlidir. Qruplar içərisində [a] və [n] səsi olan sözlərlə adlandırılır.

Bu, eyni zamanda, həmin sözlərin fəallaşdırılmasına kömək edir. Qrupları «**Qartal, Durna, Maral, Bayraq, Xonça, Qaranquş»** adlandırmaq məsləhətdir. Qrupların liderləri müəllimin təklif etdiyi 2 sözü şəkil əsasında söyləyir, müəllim lövhədə çəkdiyi cədvəldə doğru cavabı ştrixlə həmin qrupun adı yazılmış müvafiq xanada qeyd edir.Hansı qrup təklif olunan şəkli adlandıra bilmədikdə və ya həmin sözdə [ə] səsinin yerini və sayını müəyyənləşdirə bilmədikdə həmin qrupun adının altında «0» işarəsi qoyulur və sözlər müəllimin köməyi ilə aydınlaşdırılır. Sonra şagirdlərə iş vərəqləri paylanır və onlar şifahi cavablarına əsasən [ə] səsinin yeri göstərilən cədvələ müvafiq əşyaların şəkillərini göstərən rəqəmi yapışdırırlar. İş vərəqləri təhvil verilir və müzakirə başlanır. Müzakirə əsasında [ə] səsinin **əl, əlcək, ələk, ərik, əncir** sözlərində əvvəldə, **qələm, dəftər, çiyələk, səməni, yəhər** sözlərində ortada, **dəvə, pəncərə** sözlərində isə sonda olduğu söylənilir. Sonra isə **əlcək, ələk** sözlərində əvvəldə və ortada, **dəvə, pəncərə** sözlərində ortada və sonda olduğu müəyyənləşdirilir.

***II addım:*** Müəllim lövhədən şeir parçası yazılmış plakat asır. Plakatda içərisində [ə] səsi olan sözlər fərqli rənglə verilir. Müəllim şeiri oxuyur:

**Qərənfiləm mən,**
**Gözəl güləm mən.**
Yaşıl saplaqlı
Bir **sünbüləm mən.**

Sinfə müraciət olunur:

— Şeirdə hansı səs daha çox eşidilir? ([Ə] səsi)

Müəllim rəngli verilmiş sözləri təkrar edərək soruşur:

— Bu sözlərdə [ə] səsi sözün hansı hissəsində işlənib?

Bütün sözlərdə [ə] səsinin sözün ortasında işləndiyi müəyyənləşdirilir.

***III addım:*** Müəllim sinfə müraciət edir:

— İndi isə görək kim içərisində [ə] səsi olan sözlər deyə bilər? Gəlin bu barədə öz aranızda məsləhətləşin, tapdığınız sözləri liderlər təqdim etsin. İstəsəniz, qrupların liderlərini dəyişə bilərsiniz. Hansı qrup daha çox söz deyə bilsə, həmin qrup qalib hesab olunacaq.

Uşaqlara fikirləşmək üçün vaxt verilir, sonra cavablar dinlənilir və lövhədəki sxemdə hər qrupun adı qeyd olunan müvafiq xanada rəqəmlərlə göstərilir. Təqdimatlar qurtardıqda qalib müəyyənləşdirilir.

***IV addım:*** Müəllim deyir:

— Uşaqlar, indi mən bir tapmaca deyəcəyəm, həmin tapmacanın cavabında iki [ə] səsi işlənib – ortada və sonda. Görək bu tapmacanı kim tapa biləcək? (Bu iş dili praktik cəhətdən bilənlər üçün nəzərdə tutulur, eyni zamanda, digər şagirdlər üçün dili öyrənməyə stimul yaradır). Müəllim T.Elçinin sərçəyə aid tapmacasını deyir:

**Balaca bir quşam mən,**
**Budağa qonmuşam mən.**
**Hər tərəfə qar yağıb,**
**Soyuqdan donmuşam mən.**
**Yem gəzirəm, çik-çirik,**
**Görməsin məstan pişik.**
***(T.Elçin)***

Müəllim yardımçı sual verir.

— Uşaqlar, qışda ən çox gördüyünüz quş hansıdır?

Tapmacanın cavabı tapılmadıqda müəllim **sərçə** şəklini göstərir. Uşaqlar müəllimdən sonra bu sözü təkrar edirlər.

Sərçə sözündə [ə] səsinin yeri və sayı bir daha nəzərdən keçirilir.

***V addım:*** Müəllim uşaqların diqqətini dərslikdəki 3-cü çalışmaya cəlb etmək üçün deyir:

— Uşaqlar, indiyə qədər dediyimiz sözlərdə [ə] səsinin işlənmə yeri ilə tanış olduq. Bəs, görəsən, [ə] səsinin hecada yeri necədir? İndi həmin çalışmadakı hecaları mənimlə birlikdə tələffüz edin və [ə] səsinin yerinə diqqət yetirin. Şagirdlər müəllimin ardınca çalışmadakı hecaları təkrar edirlər. [Ə] səsinin hecada yeri müəyyənləşdirilir: [Ə] səsi hecanın əvvəlində, hecanın ortasında və hecanın sonunda işlənə bilir. Müəllim həmin tapşırıq əsasında lüğət üzrə işə keçir.

— Uşaqlar, siz içərisində [ə] səsi olan sözlər dediniz, şəkilləri adlandırdınız. Kim deyə bilər, eşitdiyiniz hecaların içərisində mənasını bildiyiniz sözlər varmı? Kim həmin sözlərdən mənasını bildiyini göstərə bilər? Müəllim hecaları bir daha aramla oxuyur və şagirdlərin cavablarını dinləyir. Sonra işi yekunlaşdıraraq **ət, əl, səs, əy, sən, mən, ək, əs** və s. sözləri göstərir, onların həm heca, həm də bir hecadan ibarət söz olduğunu söyləyir, mənalarını tədris dilində şagirdlərin iştirakı ilə deyir məsələn.

Sözlərin tədris dilindəki qarşılığına diqqəti yönəldərək müəllim sinfə müraciət edir:

— Uşaqlar, tədris dilində eşitdiyiniz sözlərdə [ə] səsinin işlənməsinə rast gəldinizmi?

Bu sözlərdə [ə] səsinin işlənmədiyi bildirilir. Müəllim deyir:

— Biz deyə bilərikmi ki, tədris dilində bu səs yoxdur? (Təsdiq cavabı alınır)

***VI addım:*** Uşaqların diqqəti söz daxilində [ə] səsinin yerinə bir daha cəlb edilərək, cümlə qurmaq bacarığı üzrə işə keçilir. Müəllim:

— Uşaqlar, nümunələrdən gördük ki, [ə] səsi hecanın və sözün əvvəlində, ortasında, sonunda işlənə bilir. Kim deyər, cümlələr nədən qurulur? (Sözlərdən)

— İndi isə gəlin içərisində [ə] səsi olan sözləri cümlədə işlədək. Müəllim bir cümlə deyir (Nənəm nə aldı? Nənəm çiyələk aldı) və uşaqlara təklif edir ki, şəkil üzrə tapdıqları sözləri — **əlcək, ərik, ələk** və s. cümlədən sonra nöqtə qoy. Dili praktik cəhətdən bilənlərə təklif edilir ki, dərslikdə 4-cü çalışmadakı şəkil üzrə cümlələr qurub danışsınlar.

**Nəticə və ümumiləşdirmə:** [Ə] səsi sözün əvvəlində, ortasında və sonunda işlənir. [Ə] sait səsdir. [Ə] səsi «Əə» hərfi ilə işarə olunur. Şagirdlər **«nənə» və «nə»** sözlərini oxuya və yaza bilirlər. Onlar [ə] səsinin sözün müxtəlif yerlərində işlənməsinə aid nümunələr deyir, həmin nümunələrdə [ə] səsinin sayını və yerini müəyyənləşdirir, içərisində [ə] səsi işlənən sözlər hesabına lüğətlərini genişləndirir, ilkin oxu və yazı bacarıqlarına yiyələnirlər.

**Ev tapşırığı:** Evdə **çiyələk** şəkli çəkin. [Ə] səsi ilə başlayan 5 söz tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Ə] SƏSİ VƏ «Ə» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 7-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim şagirdlərin evdə çəkdikləri çiyələk şəkillərinə baxır, fərqlənənləri lövhədən asır. **Çiyələk** sözünün [ə] səsinə görə fonematik təhlilini aparır.

— Uşaqlar, bu nə şəklidir? Kim bu sözü Azərbaycan və tədris dillərində deyər?

Cavab alınır: **çiyələk**, (tədris dilindəki müvafiq söz).

— Uşaqlar, məsələn, **çiyələk** sözünün tədris dilinə tərcüməsi neçə hecadan ibarətdir? (3 hecadan).

— Bəs **çiyələk** sözü burada: tədris dilindəki müvafiq söz neçə hecadan ibarətdir? Gəlin bu sözü hecalarla deyək və sxemini çəkək. (Müəllim sözü asan bölünən hissələrlə tələffüz edir və lövhədə hecaları göstərən sxem çəkir)

— Uşaqlar, gəlin sxemə baxaq. Bu söz neçə hissəyə bölündü? (3 hissəyə)

Gəlin baxaq, hansı hissələrdə [ə] səsi işlənmişdir? Artıq siz «Ə» hərfini oxuya və yaza bilirsiniz. Odur ki, bu hecalarda [ə] səsinin yerini asanlıqla görürsünüz.

İkinci və üçüncü hissələrdə cavabı alınır.

— İkinci hecada neçə səs var? (İki)

— [Ə] səsi hecanın əvvəlində gəlir, yoxsa sonunda? Müəllim lövhədəki sxemdə [ə] səsinin yerini göstərici ilə göstərir.

— Uşaqlar, gəlin baxaq, III hissədə [ə] səsi harada yerləşir? (Ortada)

Yenə də müəllim göstəricinin ucunu [ə] səsinin üzərinə qoyur və göstərir.

— Uşaqlar, hecalar nədən yaranır? (Səslərdən)

— Bəs sözlər nədən yaranır? (Hecalardan)

— İndi gəlin **çiyələk** sözünə aid cümlə quraq. Kim belə cümlə deyə bilər?

— **Çiyələk qırmızıdır. Çiyələk şirindir.**

— Kim deyər, cümlələr nədən düzəlir? (Sözlərdən)

— Kim bu cümlələri tədris dilinə tərcümə edə bilər? (Müvafiq cavablar alınır).

— Uşaqlar, **çiyələk** sözünü oxuya bilirsinizmi? (Sinifdə sakitlik yaranır)

**Tədqiqat sualı:**

Sözləri oxuyub yaza bilmək üçün həmin sözdəki hərfləri öyrənmək lazımdırmı? Gəlin görək keçdiyimiz hərflər olan sözləri necə, oxuya və yaza bilirikmi? «Nə» sualından nə vaxt istifadə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** Şagirdlərin ilkin oxu texnikasına yiyələnmələri üzərində iş gedir. Dərslikdəki 6-cı çalışma üzrə hecalarla oxu bacarıqları formalaşdırılır. Sonra isə şagirdlərin tərcümə bacarığı yoxlanılır, həmin sözlər tədris dilində deyilir.

***II addım:*** Müəllim:

— Uşaqlar gəlin biz də gözəl yazmağı öyrənək. Nümunə üzrə yazı bacarıqlarının inkişafı izlənilir,lazım gəldikdə metodiki kömək göstərilir.

***III addım:*** Şagirdlərin hecalardan sözlər düzəltmək bacarığı üzrə işə keçilir.

— Uşaqlar, biz dedik ki, sözlər hecalardan düzəlir. Görək **[na], [nə], [a]** hecalarından neçə söz düzəldə bilərsiniz? Şagirdlər qruplara bölünür. Keçən dərsdəki qrupların adı dəyişdirilir. Dərslikdəki əşyaların şəkillərindən **(əncir, ərik, çiyələk, səməni, dəvə)** qrupların adları formalaşdırılır. Hər qrupa uyğun şəkil verilir.

— Uşaqlar, mən hecaları oxuyacağam, siz məndən sonra təkrar edəcəksiniz. Sonra mən hər bir hecanı ayrılıqda dəyəcəyəm, siz şəkillərə baxıb içərisində eşitdiyiniz heca olan sözü tapıb deməlisiniz. Hansı qrup göstəricini (Bundan sonra göstərici kimi rəmzlərdən — şəkillərdən istifadə olunacaq) tez qaldırsa, söz əvvəlcə ona veriləcək. Düzgün cavab lövhədə qrupun şəklinin altındakı müvafiq xanada qeyd olunacaq. Sonra həmin hecada [ə] səsinin yeri, sözün hecaları müəyyənləşdiriləcək, sözdə neçə [ə] səsi olması və yeri izah olunacaq. Şəkildəki söz tapıldıqdan sonra qrup üzvləri həmin heca ilə başqa sözlər axtarıb tapmalı və deməlidirlər. Nə qədər əlavə söz deyilsə, ştrixlərlə qrupa aid müvafiq xanada göstəriləcək. Tapşırığın bu hissəsi dili bilənlər üçün nəzərdə tutulur. Bu iş sinfin daha da fəallaşmasına stimul verir, qrupun axtarışa qoşulmasına, tədqiqatçılığa şərait yaradır (Məsələn, [lə] hecası ilə əlavə **lələk, ləçək, təmizlə, işlə,** [çək] hecası ilə **ləçək, milçək, hörümçək** və s. kimi sözlər deyilə bilər. İş yekunlaşdırılır və qalib qrup elan olunur.

***IV addım:*** Müəllim şagirdlərin cümlə qurmaq bacarıqları üzrə işə keçir:

— Uşaqlar, gəlin bir daha yada salaq, hecalar nədən yaranır? (Səslərdən)

— Bəs sözlər nədən yaranır? (Hecalardan)

— Bəs cümlələr nədən yaranır? (Sözlərdən)

— İndi gəlin görək tapdığımız sözlərdən cümlələr düzəldə bilərikmi? Kim **dəftər, qələm** sözlərini cümlədə işlədə bilər? Görək hansı qrup daha maraqlı cümlələr deyəcək?

Şagirdlər əl qaldırırlar. Qrupların cavabları dinlənilir. Cümlələr deyilir. Lazım gəlsə, düzəliş edilir.

Bu iş **«çəkmə və əlcək»** sözlərinin cümlədə işlədilməsi üzrə davam etdirilir.

Qruplarla iş yekunlaşdırılır şəkil üzrə işə keçilir. Şəkildə gördükləri əsasında uşaqların cümlə qurmaq bacarıqları izlənilir.

***V addım:***

— Uşaqlar, siz «Əə» hərfini oxuya və yaza bilirsiniz. Artıq **«nənə və nə»** sözlərini yazmağı, oxumağı öyrəndiniz. **«Nə»** sual bildirən sözdür. Siz bu sözün tərcüməsini artıq bilirsiniz.

— Kim deyər, tədris dilində nə? (tədris dilində) sualından nə vaxt istifadə olunur? (Cavablar dinlənilir)

— Bəs heyvanlara və quşlara hansı sual verilir?

— Tədris dilində heyvanlara və quşlara **«...»** (tədris dilindəki sual) sualı verilir.

— Uşaqlar, yadda saxlayın: Azərbaycan dilində heyvanlara və quşlara **«nə»** sualı verilir. **Nə? — inək, dəvə, qartal, qaranquş** və s. Azərbaycan dilində **«kim»** sualı ancaq insanlara verilir.

**Nəticə və ümumiləşdirmə:** «Nə» sualı Azərbaycan dilində həm cansız əşyalara, həm də heyvan və quşlara verilir. Şagirdlər içərisində "Əə" hərfi olan hecaları və sözləri (Nanə, nə, nənə) düzgün oxuyur, "Əə" hərfini və verilmiş sözləri düzgün yazırlar.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Şəkli evdə çəkməyə çalışın. Şəkildə gördükləriniz əsasında cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 9-cu və 10-cu DƏRSLƏR. (§5)

### MÖVZU: [T] SƏSİ VƏ «T» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; [t] səsini və verilmiş hecaları düzgün tələffüz edir; şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir və onları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 4) təsvir edir; öyrəndiyi hərfləri, hecaları və sözləri düzgün oxuyur; «Tt» hərfini və verilmiş sözləri düzgün yazır, böyük və kiçik hərfləri fərqləndirir.

**İnteqrasiya:** A-d. 1.1.3, Riy. 1.1.1, T-i. 2.2.2

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Bütün siniflə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, iş vərəqləri, kəsmə əlifba, plakat və cədvəllər.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən **at** və **it** şəkli asılır. Müəllim şəkilləri uşaqlara göstərərək onları tədris dilində adlandırmağı təklif edir. (Cavab alınır)

Müəllim soruşur:

— Uşaqlar, bu sözlərdə [t] səsi eşidirsinizmi? (Şagirdlər cavab verirlər)

— İndi gəlin bu şəkilləri Azərbaycan dilində adlandıraq. (**«At, it»** sözləri söylənir)

— Uşaqlar, bu sözlərdə [t] səsi eşidirsinizmi? (Təsdiqedici reaksiya bildirilir)

— **At** sözündə birinci hansı səsi eşidirsiniz? ([A] səsini)

— Uşaqlar, siz bu səslə artıq tanışsınız. Onu oxuya və yaza bilirsiniz.

— İkinci hansı səsi eşidirsiniz? ([T] səsini)

— Müəllim şəklin yanından «at» sözü yazılmış plakat asır. Bu sözü oxuya bilirsinizmi? (Xorla: «bəli» deyilir)

— Bəs **«it»** sözündə [t] səsi neçənci səsdir? (İkinci)

— Bu sözdəki hərflərin heç birini tanımırsınız. İndi isə mən sizə [t] səsinin necə işarə olunduğunu göstərəcəyəm.

Müəllim kəsmə əlifbada «T» hərfinin çap və əlyazma nümunələrini göstərir. Lövhədə kəsmə əlifba ilə «a» və «t» hərfləri yanaşı qoyulur, «at» sözü alınır.

— Uşaqlar, əvvəl tanış olduğunuz səslərin sözün, hecanın müxtəlif hissələrində işləndiyini artıq bilirsiniz.

**Tədqiqat sualı:** Görək [t] səsi necə səsdir, sözün hansı hissələrində işlənə bilir? İçərisində [t] səsi olan hecalardan hansı sözlər düzəlir? Bu səs tədris dilində varmı? Azərbaycan və tədris dillərində bu səs eyni hərfləmi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim səs, söz, cümlə anlayışlarını əlaqələndirərək lövhədən **tülkü** və **toyuq** şəkillərini asır. Sinfə müraciət edilir:

— Uşaqlar, bu şəkillərdə gördüklərinizi Azərbaycan dilində adlandıra bilərsiniz?

**«Tülkü və toyuq»** sözləri söylənilir.

— Bu sözlərdə [t] səsi hansı hissədə eşidilir? (Hər iki sözdə [t] səsi əvvəldə eşidilir)

Müəllim lövhədən başqa bir şəkil asır. Bu şəkildə tülkü toyuğu tutur. Müəllim:

— Uşaqlar, gördüyünüzü bir cümlə şəklində deyə bilərsiniz? Siz artıq **tülkü** və **toyuq** sözlərini bilirsiniz. Bu şəkildə nə görürsünüz? Tülkü nə edir?

Yerdən səslər gəlir. Uşaqlardan cavab vermək istəyənlər var. Cavablar dinlənilir: «Tülkü toyuğu tutur».

***II addım:*** Müəllim uşaqların səs, heca, söz, cümlə ilə bağlı anlayışlarını dərinləşdirmək üçün onları sxemlərlə tanış edir. Bir düzbucaqlı (  ) çəkilir və sinfə müraciət olunur:

— Uşaqlar, gəlin oxumağı və yazmağı öyrəndiyiniz sözlərdən birini səs və hecalar üzrə sxemdə göstərək. Sözdə neçə səs varsa, həmin sxemi onların sayı qədər hissəyə böləcəyik. «Ana» sözündə neçə səs var? (Üç səs)

— Deməli, həmin sxemi biz üç damaya böləcəyik. Sxem göstərilir:



Hər bir səsin — I səs [a], II [n], III isə yenə də [a] işarəsini yazaq, artıq siz bu hərfləri yaza bilirsiniz. Hərflər müvafiq xanalara yazılır.

| | | |
|---|---|---|
| A | N | A |

— Uşaqlar, [a] necə səsdir? (Sait cavabı alınmalıdır). Bu sözdə neçə [a] səsi var? Gördüyünüz kimi, 2 «a» hərfi yazmışıq. Biz oxuyanda bu sözü necə tələffüz edirik? — [A-na] şəklində. Deməli, bu sözdə iki heca var. Gəlin indi bunu sxemdə (sxemdə hissələr heca bölündüyü yerdən ayrılır) göstərək:




— Uşaqlar, səsləri və hecaları sxemdə göstərdik. Gəlin indi cümlələrin sxemini çəkək. Müəllim şəkli göstərərək «Tülkü toyuğu tutur» cümləsini təkrar edir. Bu cümlədə neçə söz eşidirsiniz? (3 cavabı alınır)



Deməli, biz 3 sözün işarəsini çəkməliyik. Müəllim sxemi lövhədə göstərir.

Cümlənin böyük hərflə başlanması və sonda nöqtə qoyulması barədə tədris dilindəki biliklərlə əlaqə yaradılır.

***III addım:*** Müəllim sinfə müraciət edir:

— Uşaqlar, keçən dərsimizdə qrupları necə adlandırmışdıq? Şəkillərin içərisindən hansı şəkilləri tapmalıyıq? Gəlin şəkilləri tapaq. Deməli, **ərik, əncir, səməni, çiyələk** və **dəvə**. Doğrudur. (Şəkillər ayrılır.) Hər qrupun adını daşıyan şəkil həmin qrupa verilir.

— Uşaqlar, indi dərslikdə 2-ci çalışmadakı şəkillərə baxın. Öz aranızda məsləhətləşin. Şəkilləri sıra ilə nömrələyin. Mən şəklin nömrəsini elan edəndə hansı qrup öz simvolunu tez qaldırsa, söz həmin qrupun liderinə veriləcək və cavablar lövhədəki sxemdə qeyd olunacaq. Şəkil üzrə iş bu qayda ilə davam edir (məsələn, şəkil 3, **səməni** şəkli qaldırılır. Qrupun liderinə söz verilir. O, **tülkü** sözünü deyir, bu sözdə bir [t] səsi olduğunu bildirir). Müəllim şəkil üzrə işin növbəti mərhələsinə keçir. İş vərəqləri paylanır. İş vərəqlərində sxem (əvvəlində, ortasında, sonunda yazılmış) çəkilmişdir. Uşaqlara izah edilir ki, çalışmadakı bütün şəkillərə diqqətlə baxsınlar. Şəkillərin nömrələrini iş vərəqlərində qeyd etsinlər. Məsələn,

| Əvvəlində | Ortasında | Sonunda |
|---|---|---|
| 3 | 1; 5 | 2; 4 |

İş vərəqləri təqdim edilir və lövhədən asılır. Müzakirə başlanır. Müzakirə sualları:

— Uşaqlar, deməli, hansı sözlərdə [t] səsi əvvəldə gəlib? Gəlin cavablara baxaq. Şəkillər göstərilir və sözlər təkrar edilir: **tülkü, toyuq, traktor, tut** sözlərində.

— Hansı sözlərdə [t] səsi ortada işlənib? (**Ütü, altı, yastıq** sözlərində)

— Bəs hansı sözlərdə [t] səsi sonda gəlib? (**Tut, şahmat, at** sözlərində)

Müzakirə başa çatır: [T] səsi sözün əvvəlində, ortasında, sonunda işlənə bilir.

***IV addım:*** İçərisində [t] səsi olan sözlərlə şagirdlər tanış edilirlər. Lövhədə kəsmə əlifba ilə «ata, at, ət» sözləri yığılır və sözlər xorla oxunur.

— Uşaqlar, sözlərdə [t] səsinin yerini dediyiniz misallarda müəyyənləşdirdiniz. Sözlər hecalardan düzəlir. Görək [t] səsinin hecalarda yeri necədir?

Dərslikdəki 3-cü çalışmaya baxaq. Müəllim hecaları oxuyur və uşaqlar müəllimdən sonra təkrar edirlər. Müəllim hecada [t] səsinin yeri üzrə müzakirə aparır. Fikirlər ümumiləşdirilir. [T] səsi hecanın əvvəlində və sonunda gələ bilir. Sonra müəllim hecaların oxunması üzrə ilkin oxu bacarıqları formalaşdırmaq məqsədi ilə deyir:

— Uşaqlar, hecalara diqqətlə baxın, bunların bəzilərini siz özünüz artıq oxuya bilirsiniz: ta, tə, ət, at. Bu hecalardan sözlər düzəldə bilərsinizmi? Fikirləşin.

— Uşaqlar, kim deyər tədris dilindəki [t] səsi necə səsdir: sait, yoxsa samit? (Samit cavabı alınır). Azərbaycan dilində də [t] səsinin samit səs olduğu söylənilir. Sonra [t] səsinin işarəsi ilə bağlı təlim dili ilə müqayisə aparılır.

— Uşaqlar kim «ata» sözünü təlim dilində deyər? (Müvafiq cavab alınır)

— Bu sözdə [t] səsi eşidirsinizmi? (Təsdiq (inkar) edilir)

— Deyə bilərikmi ki, təlim dilində də [t] səsi var? (Təsdiq eşidilir. Əgər həmin sözdə bu səs yoxdursa, müvafiq nümunə soruşulmalıdır).

Müəllim lövhədən **«ata»** — «...» (təlim dilində müvafiq söz) yazılmış plakat asır.

— Uşaqlar, hər iki dildə [t] səsinin işarəsinə baxın. (Plakatda səslərin işarələri eyni rəngdə göstərilib). Bu işarələr eynidirmi?

Uşaqlar hərflərin eyni, yaxud fərqli olduğunu bildirirlər. Ümumiləşdirmə aparılır.

***V addım:*** Cümlə qurmaq bacarıqları üzrə işə keçilir:

— [T] səsini heca və söz daxilində işlətdiniz. İndi isə içərisində [t] səsi olan sözləri cümlə içərisində işlədək. Dərslikdəki 4-cü çalışmaya baxın, şəkildə gördükləriniz əsasında cümlələr qura bilərsinizmi? Uşaqlara içərisində [t] səsi olan adlar verin: Tutu, Tələt, Təranə, Tahir və s. (Dili praktik cəhətdən bilənlərə təklif edilir ki, rabitəli kiçik mətn qursunlar). Dili bilənlər cümlələr deyirlər: **Toyuqlar tut yeyirlər. Tutu tut yeyir. Tələt tarı tutur.**

**Nəticə və ümumiləşdirmə:** [T] samit səsdir. Azərbaycan dilində sözün əvvəlində, ortasında, sonunda, hecanın isə əvvəlində, sonunda gəlir. [T] səsi Azərbaycan və təlim dillərində fərqli (eyni) hərflərlə (hər iki dildə müvafiq hərflərin işarələri göstərilir) işarə olunur.

Dərsin sonunda şagirdlər sözün müxtəlif yerlərində [t] səsinin işlənməsinə aid misallar deyir, içərisində [t] səsi olan hecalardan sözlər düzəldir, içərisində [t] səsi işlənən sözləri mənimsəməklə lüğətlərini genişləndirir, içərisində [t] səsi olan sözlərdən istifadə etməklə cümlə (dili bilənlər şəkillər və təklif olunan mövzu üzrə rabitəli kiçik mətnlər) qurur, indiyə qədər keçilən hərflər üzrə ilkin oxu və yazı bacarıqları nümayiş etdirirlər.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı: At** şəkli çəkin. İçərisində [t] səsi olan 10 söz tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [T] SƏSİ VƏ «T» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 9-cu dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Sinfə müraciət olunur:

— Uşaqlar evdə nə şəkli çəkmisiniz?

Xorla «at» şəkli deyilir. Ev tapşırığı yoxlanılır. Şəkillərdən ən yaxşıları lövhədən asılır. «At» sözündə [t] səsinin yeri barədə keçilənlər yada salınır.

— Uşaqlar, diqqətli olun, at sözünə bir [a] səsi artırsaq, sözün mənası dəyişər, yoxsa yox? Gəlin lövhədə yazaq: [at+a]=ata. Siz bu sözlərin hər ikisi ilə keçən dərsimizdə tanış olmusunuz. Kim bu sözlərin mənasını tədris dilində deyər? (Müvafiq cavablar eşidilir)

— Başqa bir misala baxaq: at-ət. Kim tədris dilində bu sözlərin mənasını deyər? **(Cavablar)**

— Uşaqlar, görürsünüz, sözdə səsləri dəyişsək, ya da artırıb-azaltsaq, sözün mənası dəyişir. **Nanə-nənə; nə-ən, an+a=ana** sözləri yazılmış plakat asılır. Plakatda dəyişən hərflər fərqli rəngdə hərflərlə göstərilir. Bu sözlərin mənasının dəyişməsi təlim dilindəki mənaları deyilməklə bir daha dəqiqləşdirilir.

**Tədqiqat sualı:** Sözdə səsin dəyişməsi ilə məna dəyişirmi? Bəs hecaları dəyişməklə necə, məna dəyişirmi? Eyni bir hecadan müxtəlif sözlər düzəldə bilərikmi?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim lövhədən asılmış **tar, nar** şəkillərini göstərir. Uşaqlara şəkilləri adlandırmaq təklif olunur. Bu sözlər əvvəlki dərslərdə də səsləndirildiyindən uşaqlar cavab verirlər. Müəllim uşaqların diqqətini səslənən sözlərdə eyni hissəyə yönəldir. Həmin sözlərdə yalnız 1-ci səslər fərqləndiyi müşahidə olunur. Müəllim yardımçı suallarla şagirdləri fərqlənən səsləri ayırmağa yönəldir, sonra **at və ot** şəkillərini göstərir. Hansı səsin dəyişməsi ilə mənanın dəyişməsini müşahidə etmələrini tövsiyə edir. Hecaları dəyişməklə mənanın dəyişməsini müşahidə etmək və hecalardan sözlər düzəltmək. [A] hecasına - [na] və [ta]; [nə] hecasına [nə] və [na] artırmaqla yeni sözlərin düzəldilməsi üzrə iş aparılır. Eyni hecanın müxtəlif sözlərin formalaşmasında iştirakı 7-ci çalışma üzrə (İş dəftəri) davam etdirilə bilər. Məsələn: [ta] - çanta, parta, balta; [ter] - kompüter, internet və s.

***II addım:*** Hecalardan sözlər düzəldilməsi sözün hecalarla oxunması ilə əvəz olunur və dərslikdəki 6-cı çalışmanın oxusu təşkil olunur.

***III addım:*** Şagirdlərin yazı bacarıqlarının formalaşması üzrə iş 1-ci və 2-ci çalışmalar əsasında təşkil olunur.

***IV addım:*** Şagirdlərin lüğətinin içərisində [t] səsi olan hecalar hesabına genişləndirilməsi üzrə iş kiçik qruplarla aparılır. Şagirdlər qruplara bölünür. Qrupları yeni rəmzlərlə adlandırmaq təklif olunur. İçərisində [t] səsi olan və əvvəlki dərsdə səslənmiş sözlərdən istifadə olunur. **Şahmat, çətir, yumurta, xəritə, ütü** şəkilləri qruplara verilir və hər şəkil verildikcə sözlər xorla təkrar olunur. Müəllim iş formasını bir daha qruplara izah edir. Hecalar müəllimdən sonra təkrar edilir. Müəllim hər hecanı ayrılıqda bir daha səsləndirir, şagirdlər həmin heca işlənən sözü tapmağa səy göstərirlər. Hansı qrup sözü tez tapsa, rəmzi qaldırır və müəllim qrupun adını təkrar edərək (Məsələn, «**Ütü**» qrupunun lideri buyur, tapdığınız sözü söylə! Hər dəfə qrupun adının səslənməsi sözlərin fəallaşdırılmasına, mənasının mənimsənilməsinə imkan verir) sözü həmin qrupun nümayəndəsinə verir. Lövhədəki cədvəldə şəkillərə uyğun xanalar ayrılır və cavablar müvafiq xanalarda qeyd olunur. (Dili bilənlər çalışmadakı 2-ci şərtə də əməl etməli, əlavə misallar söyləməlidirlər: **[tü]-ütü, tütək, [ta]-çanta, parta, ata, balta, tanış, taxıl və s.)** Hecaların hamısı oxunub qurtardıqdan sonra iş yekunlaşdırılır və qalib qrup elan olunur. Sonra həmin çalışma üzrə iş cütlərlə davam etdirilir.

***V addım:*** Cütlərlə iş təşkil olunur. Şagirdlərə (cütlərə) iş vərəqləri verilir. İş vərəqlərində [t] səsinin sözdə yerini göstərmək üçün cədvəl verilir. Şagirdlər sıra ilə bir şəkil üzrə [t] səsinin yerini cədvəldə qeyd edirlər. Müəllim şagirdlərə izah edir ki, təklif olunan şəkildə həmin səs neçənci səsdirsə, sxemdə müvafiq xanada həmin rəqəmi yazsınlar (məsələn, **dəftər** şəklinə baxaraq şagird «4» rəqəmini «ortada» sözünün altında yazır.

| Əvvəldə | Ortada | Sonda |
|---|---|---|
| | 4 | |

Sonra iş vərəqləri təqdim edilir və müzakirə başlanır. Qeyri-dəqiq cavablara aydınlıq gətirilir.

***VI addım:*** İndiyə qədər keçilən səslər və hərflər bir daha təkrar olunur. Yeni mənimsənilmiş sözlərin cümlə içərisində işlədilməsi ilə dərs yekunlaşır.

**Nəticə və ümumiləşdirmə:** [T] səsi işlənən sözlər və hecalar nümunəsində aydın oldu ki, sözdə səsin dəyişməsi mənanın dəyişməsi ilə nəticələnir. Ona görə də oxu və yazı zamanı sözün səs tərkibinə diqqət yetirmək lazımdır. Bir heca bir neçə sözün tərkibində işlənə bilir, yeni-yeni sözlərin düzəlməsində iştirak edir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Tapmacanın cavabını tapın və şəklini çəkin.

***Yemir, içmir, gecə-gündüz işləyir.***

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 11-ci və 12-ci DƏRSLƏR (§6)

### MÖVZU: [B] SƏSİ VƏ «B» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; verilmiş hecaları və şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir və onları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 4, 9) təsvir edir; öyrəndiyi hərfləri, hecaları və sözləri düzgün oxuyur; «Bb» hərfini və verilmiş sözləri düzgün yazır, böyük və kiçik hərfləri fərqləndirir.

**İnteqrasiya:** A-d. 1.1.3, X-d. 1.1.2, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müsahibə, rollu oyun, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, kəsmə əlifba, plakatlar, cədvəllər və iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim evə verilmiş tapşırığın icrasını yoxlayır və yeni mövzuya keçid üçün ondan bir vasitə kimi istifadə edir. Tapmaca təkrarlanır: Yemir, içmir; gecə-gündüz işləyir.

Tapmacanın cavabı soruşulur. Xorla «saat» cavabı verilir.

Müəllim şagirdlərə eşitdikləri tapmacadakı sözlərin tələffüzünə diqqət yetirmələrini tövsiyə edərək deyir:

— Uşaqlar, mən tapmacanı bir daha təkrar edəcəyəm, (Müəllim uşaqlara da müraciət edə bilər: kim tapmacanı təkrar edə bilər?) görün eşitdiyiniz sözlərdə [b] səsi eşidilirmi?

Tapmacaya qulaq asıldıqdan sonra münasibət bildirilir.

Lövhədən **saat, tülkü, ağac, bayraq, kitab, balıq** şəkilləri qarışıq asılır. Müəllim asılmış şəkilləri adlandırmağı təklif edir. Uşaqlar çətinlik çəkdikdə kömək edir. Sonra şagirdlərə müraciət olunur:

— Uşaqlar, dediyiniz sözlərin hamısında [b] səsi eşitdinizmi? Məsələn, **tülkü** sözündə bu səs varmı? («Yoxdur» — cavabı alınır)

— Gəlin şəkillərə bir də baxaq və [b] səsi olan sözləri seçib deyək? **(Balıq, bayraq, kitab)**

Müəllim kəsmə əlifbada «b» hərfinin çap və əlyazma nümunəsini göstərir.

— Uşaqlar, bu sözlərin hamısında [b] səsini sözün əvvəlində eşidirsiniz? (Xeyr)
— Uşaqlar, gəlin həmin sözləri tədris dilində deyək. Kim mənə kömək edər?
Yerdən əllər qalxır.
— Gəlin birlikdə deyək. (Uşaqlar sözləri deyirlər)
— Uşaqlar, bu sözlərdə necə, [b] səsini eşitdinizmi? (Şagirdlərin cavabları dinlənilir)
— Müəllim lövhədən **«balıq»** və onun tədris dilində qarşılığı yazılmış plakat asır. Plakatda «b» hərfləri digərlərindən fərqli rəngdə göstərilib.

**Tədqiqat sualı:** [B] necə səsdir? [B] səsi sözün hansı hissələrində işlənə bilir? [B] səsi Azərbaycan və təlim dillərində eyni hərflə mi işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** «Sehirli torba» oyunu ilə tədqiqata başlanılır. Əvvəlki dərsdə formalaşdırılmış qrupların adları xatırladılır və rəmzləri seçilir. Müəllim qrupların adlarını xüsusi intonasiya ilə sadaladıqca **(şahmat, çətir, yumurta, xəritə, ütü)** liderlər şəkillərin içərisindən öz rəmzləri olan şəkilləri seçib götürür və yerlərinə qayıdırlar. Qrupları əvvəlki adlarla adlandırmaq metodik cəhətdən faydalı hesab olunur; məqsəd əvvəlki dərsdə keçilmiş səsin və hərfin təkrarına şərait yaratmaqdır. Müəllim oyunun şərtlərini bir daha yada salır. Torbanın içərisində adında [b] səsi olan müxtəlif əşyalar, oyuncaqlar, şəkillər var. Liderlər torbadan növbə ilə bir əşyanı çıxarmalı, fikirləşmədən onun adını deməlidir. Lider cavab verə bilmədikdə qrupun digər bir üzvünə həmin sözü söyləmək üçün şans verilir. Çıxarılan əşyalar hələlik qrupda saxlanılır (bu üsul qrupun digər üzvlərinin arxayınlaşmaması məqsədi ilə məsləhət bilinir).

Lövhədə rəmzlər yapışdırılır və cavablar müvafiq xanalarda əks olunur. Torbadakı bütün əşyalar çıxarıldıqdan sonra oyunun II hissəsinə keçilir. Hər bir qrupun üzvləri lideri dəyişməklə əllərindəki əşyaları adlandıran sözdə [b] səsinin sayını deməlidir, sözün hansı hissəsində gəldiyini müəyyənləşdirməlidir. Oyunun bu mərhələsində cavab haqqı yalnız liderlərə verilir, çünki əşyalar artıq qrupda olduğundan onlar fikirləşmək, məsləhətləşmək üçün imkan tapırlar. Oyunun bu mərhələsinin nəticəsi də lövhədəki cədvəldə öz əksini tapır. Qruplarla iş yekunlaşdırılır, nəticələrə əsasən qalib qrup müəyyənləşdirilir. Prosesdə yanlış cavab verildikdə müəllimin yardımçı sualları ilə dəqiqləşdirmələr aparılır. Əşyalar torbaya qaytarılır və liderlər yerlərinə qayıdırlar.

***II addım:*** Müəllim oyunu dərslikdəki 3-cü çalışma üzrə davam etdirməyi təklif edir. Bu dəfə qruplar müəllimin tələffüz etdiyi hecalarda [b] səsinin yerini müəyyənləşdirməlidirlər. Müəllim hecaları oxuyur, şagirdlər müəllimdən sonra təkrar edirlər. Müəllim hansı qrupun adını çəksə, həmin qrupun üzvlərindən biri növbə ilə [b] səsinin yerini deməlidir. Qrupun lideri isə bu hecanı oxumalıdır (bu mərhələ keçilən hərflərdən formalaşan hecalara aiddir). Oyun yekunlaşır, cavabların nəticəsi elan olunur. Deməli, [b] səsi hecanın əvvəlində və sonunda işlənir.

Müəllim həmin çalışma üzrə daha bir oyunun keçirilməsinin maraqlı olacağını elan edərək şagirdlərdə maraq oyadır.

— Uşaqlar, bu hecalardan bəziləri həm də sözdür. Siz əvvəlki dərslərinizdə də bu cür hecalarla tanış olmuşsunuz. Mən həmin hecaları tələffüz edəcəyəm, hansı qrupun üzvləri sözün mənasını başa düşsə, tez rəmzini qaldırır və sözün mənasını tədris dilində deyir. Bu qayda ilə **bal, baş, beş, qab** və s.sözlər-hecalar oxunur və oyun davam edir. Oyunun bu hissəsi içərisində [b] səsi olan sözlər hesabına şagirdlərin lüğətinin genişləndirilməsinə imkan verir.

***III addım:*** Cütlərlə işə keçilir. İş vərəqləri paylanır. Müəllim hər partada oturan cütə içərisində [b] səsi olan bir əşyanın **(kitab, corab, badımcan, balıq, şəkərbura)** şəklini çəkməyi tapşırır. İş yekunlaşdırılır və iş vərəqləri təhvil verilir. Şəkillərdəki əşyaların adları səsləndirilir və yaxşı işlənmiş şəkillər barədə rəğbətləndirici fikir söylənilir.

***IV addım:*** İçərisində [b] səsi olan sözlər işlətməklə cümlə qurmaq bacarıqları üzrə işə keçilir. Bu məqsədlə dərslikdəki 4-cü çalışmada verilmiş şəkildən istifadə olunur. Şagirdlər kiçik cümlələr qururlar. Müəllim şagirdləri şəkildə gördüklərini adlandırmağa, təsvir etməyə yönəldir (Dili bilənlər rabitəli kiçik mətn qurmağa yönəldilir: Bura mətbəxdir. Ana mətbəxdədir. Onun əlində bıçaq var. Burada balıq da var. Ana balığı təmizləyir. Stolun üstündə bibər, badımcan da var və s.).

***V addım:*** Müəllim sinfə müraciət edir:

— Uşaqlar, gəlin təkrar edək, biz indiyə qədər neçə səs və hərfi öyrənmişik? Əvvəlcədən deyim ki, həmin sayda [b] səsi işlənir. (Beş hərf)

Siz I sinifdə Azərbaycan dilində saymağı öyrənmisiniz. Kim içərisində [b] səsi olan sayları deyə bilər? (Uşaqlar cavab verirlər: bir, beş.) Əks halda müəllim kömək edir.

Keçilmiş hərflər kəsmə əlifba ilə bir daha nümayiş etdirilir.

— Uşaqlar, artıq 5 hərfi oxuya və yaza bilirsiniz. İndi isə dərslikdəki 6-cı çalışmaya baxın. İndiyə qədər keçdiyiniz sözləri oxuyun və hərfləri təkrar edin. Şagirdlərin çalışma üzrə oxusu təşkil edilir.

**Nəticə və ümumiləşdirmə:** [B] səsi «Bb» hərfi ilə işarə olunur. Azərbaycan dilində [b] səsi hecanın əvvəlində və sonunda, sözün isə əvvəlində, ortasında və sonunda işlənə bilir. Azərbaycan dilində «Bb» hərfinin işarəsi tədris dilindəki ilə müqayisə edilir.

Dərsin sonunda şagirdlər sözün müxtəlif yerlərində [b] səsinin işlənməsinə aid misallar deyir, içərisində [b] səsi olan hecalardan sözlər düzəldir, içərisində [b] səsi olan sözlərin hesabına lüğətlərini genişləndirir, içərisində [b] səsi olan sözlərdən istifadə etməklə cümlələr qurur, indiyə qədər keçilən hərflər üzrə ilkin oxu və yazı bacarıqları nümayiş etdirirlər.

**Yaradıcı tətbiqetmə, ev tapşırığı:** Evdə **balıq** şəkli çəkin. İçərisində [b] səsi olan 10 söz tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [B] SƏSİ VƏ «B» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 11-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim evə verilmiş tapşırıqları yoxlayır. Şagirdlərin çəkdiyi şəkillərin (**balıq** şəkli çəkilib) içərisindən fərqlənənləri hamının görməsi üçün lövhədən asır. Şəkillərin yanından «balıq» sözü yazılmış plakat asılır (plakatda «ba» hecası fərqli rəngdə verilməlidir) və müəllim sinfə müraciət edir:

— Uşaqlar, bu söz hansı səslə başlayır? ([B] səsi ilə — cavab xorla səslənir).
— Sözdə 2-ci hansı səsi eşidirsiniz? ( [A] səsini — cavab xorla səslənir).
— Uşaqlar, bu söz deyilərkən neçə hissəyə ayrılır, yəni sözdə neçə heca var?
— Söz iki hissəyə ayrılır: [ba-lıq]
— Uşaqlar, bu sözdəki hansı hərfləri siz oxuya və yaza bilirsiniz?
— «B və A» hərflərini (xorla cavab verilir).
— Deməli, sözün 1-ci hecasını oxuya bilirsiniz. Oxuyaq — [ba]... Əlbəttə, sonrakı hecanı siz hələlik oxuya bilmirsiniz. Ancaq tezliklə bu hərfləri də öyrənəcəksiniz. Uşaqlar, mən indi bir tapmaca deyəcəyəm. Siz tapmacanın cavabı olan sözü artıq bilirsiniz. Bu sözdə də [b] səsi var. «Balıq» sözündə siz 1-ci hecanı oxuya bildiniz. Bu sözün isə 2-ci hecasını oxuya bilərsiniz. Yəqin siz indi tapmacanı eşitməyə tələsirsiniz. Görək kim daha tez cavabı səsləndirəcək?

**Tapmaca:**

*Ağaca çıxdım adamla,*
*Bir nəlbəki badamla.*
*Nə dili var, nə ağzı,*
*Hey danışır adamla.*

Uşaqlardan cavab verən olmasa, müəllim **kitab** şəklini və «kitab» sözü yazılmış plakatı lövhədən asır. Plakatda «kitab» sözündə [tab] hecası fərqli rənglə göstərilir.

— Uşaqlar, görürsünüz, bu sözdə 2-ci hecadakı bütün hərfləri siz artıq öyrənmisiniz, ona görə də bu hecanı oxuya bilirsiniz. Deməli, sözləri bütöv oxumaq üçün nə lazımdır? Əlbəttə, bütün hərfləri öyrənmək.

**Tədqiqat sualı**: İçərisində [b] səsi olan bütün sözləri və hecaları yaza bilirsiniz? Hansı sözləri və hecaları yaza bilirsiniz? Nə üçün «balıq» sözündə 2-ci, «kitab» sözündə 1-ci hecanı oxuya bilmədiniz?

**Tədqiqatın aparılması:** ***I addım:*** Şagirdlərin ilkin oxu və yazı bacarıqlarının inkişafı üzrə işə başlanılır. Müəllim əvvəlcə uşaqların diqqətini dərslikdəki 3-cü çalışmaya cəlb edir. Tapşırığın şərti izah olunur. Uşaqlara verilmiş hecaların içərisindən keçilən hərflərdən formalaşan hecaları seçib oxumaq tapşırılır. İşin sonrakı gedişi cütlərlə aparılır. Müəllim şagirdlərin oxuya bildikləri hecalardan birini lövhədə kəsmə əlifba ilə yığır və tapşırığın şərtini izah edir. Şagirdlərə iş vərəqləri paylanır. Cütlər hərflər toplusundan həmin hecada olan səslərin işarələrini – hərfləri seçir və oxuduqları hecada olduğu kimi iş vərəqlərində yapışdırırlar. İş vərəqləri təqdim edilir və işin müzakirəsi başlanılır. Uşaqlar çalışmadakı **ba, bə, ab, əb, tab, ban, bən, bət, bat, təb** hecalarını dərslikdə gördükləri formada yapışdırırlar. İş vərəqlərindəki hecalar oxunur, səhvlər varsa, izah olunur.

***II addım:*** Şagirdlərin yazı bacarıqlarının formalaşdırılması üzrə iş davam etdirilir. Nümunə üzrə «Bb» hərfinin kalliqrafik cəhətdən düzgün yazılışı öyrədilir.

***III addım:*** İş növü başqası ilə əvəz olunur. Müəllim tapşırığı qruplarla iş formasında həyata keçirir. Qrupların adları və tərkibi dəyişdirilir. Qruplar yeni adlarla **baba, nənə, ata, ana, əmi** adlandırılır.Hər qrupa adı yazılmış plakat təqdim olunur. Tapşırığın şərti izah olunur. Hər qrup təkrar olunmamaq şərti ilə içərisində [b] səsi olan 3 söz deyir. Sözlərdən biri şəxs adı olmalıdır (**Bahar, Banu, Bənövşə, Babək, Bəkir, Bəhram, Dilbər, Təbriz** və s). Qruplar variantlarını təqdim edirlər. Cavablar lövhədəki cədvəldə (qrupların adı yazılmış) müvafiq xanada qeyd edilir. Sözlər təkrar edildikdə cavab qəbul edilməmiş sayılır. İş yekunlaşdırılır. Cavablar müzakirə olunur.

***IV addım:*** İş cütlərlə aparılır. İş vərəqləri paylanır. Tapşırığın şərti izah olunur. Şagirdlər hərflər toplusundan tapşırıqdakı hər bir sözə aid hərfləri seçirlər. Onları nümunədə göstərildiyi kimi iş vərəqlərində elə ardıcıllıqla yapışdırmalıdırlar ki, sözlər alınsın. Sonra iş vərəqləri təqdim olunur və lövhədən asılır. Nəticələr müzakirə olunur. Alınmış sözlər xorla oxunur— **ata, baba, at, nanə, nənə**.

***V addım:*** İş tapmaca formasında («Tap görək») aparılır. Bu iş forması da uşaqlara məlumdur. Sadəcə müəllim iş formasına müəyyən əlavə elementlər daxil edir. Hecalar tələffüz edildikcə uşaqlar çalışmadakı şəkillərə baxırlar. Hecaları müəllim oxuyur, sonra şagirdlər təkrar edirlər. Bu çalışmadan məqsəd həm şagirdlərdə düzgün tələffüz bacarıqlarının təkmilləşdirilməsinə, həm də lüğətin fəallaşmasına və genişlənməsinə imkan yaratmaqdır. Oyunun qaydası izah olunur. Qruplar yerlərini tuturlar. Müəllim çalışmadakı hecaların içərisindən ixtiyari hecanı deyərək qruplardan birinin adını çəkir. Qrup üzvləri şəkillərə baxaraq içərisində həmin heca olan sözü tapıb deyirlər, həmin sözdə [b] səsinin sözün hansı hissəsində oduğunu müəyyənləşdirirlər. Bu oyunda hətta eyni bir heca müxtəlif qruplara ünvanlana bilər. Məqsəd sözlərin təkrarlanması və itigözlülük formalaşdırmaqdır (Bu oyunda hansı qrupun üzvləri şəkillərdən əlavə sözlər söyləyə bilsə, bu, onlara əlavə xal gətirir. Bu element dili bilənlərin imkanlarının reallaşmasına şəraiti təmin edir). Cavablar lövhədə qruplara aid cədvəldə qeyd edilir. Oyun yekunlaşır. Sözlər bir daha səslənir. Qalib qrup edan olunur.

***VI addım:*** Cümlə qurmaq bacarıqları üzrə işə keçilir. Müəllim Azərbaycanın dövlət rəmzlərindən bayraqla bağlı müsahibə aparır:

— Uşaqlar, bu şəkildə nə görürsünüz? (Oğlan bayraq şəkli çəkir)

— Bu bayraqda neçə rəng var? (Üç rəng)

— Rənglərin adlarını deyə bilərsiniz? (Yaşıl, qırmızı, mavi)

Cavab verməkdə çətinlik olarsa, müəllim kömək edir, dövlət bayrağı ilə bağlı şagirdlərin təsəvvürlərini genişləndirir. Sonra şagirdlər şəkil üzrə cümlələr qururlar.

**Nəticə və ümumiləşdirmə:** İçərisində [b] səsi olan bəzi sözləri və onların mənasını uşaqlar bildikləri halda, həmin sözləri yazıb oxuya bilmirlər. Deməli, sözləri oxumaq üçün tərkibindəki bütün hərfləri tanımaq lazımdır. Sözləri yaza bilmək üçün həmin sözlərin tərkibindəki bütün hərfləri yazmağı öyrənmək lazımdır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Azərbaycan bayrağının şəklini çəkin. **Baba** və **bayraq** sözlərinə aid müxtəlif cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 13-cü və 14-cü DƏRSLƏR. (§7)

### MÖVZU: [U] SƏSİ VƏ «U» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; verilmiş hecaları və şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir və onları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 4, 7) təsvir edir; öyrəndiyi hərfləri, hecaları və sözləri düzgün oxuyur; «Uu» hərfini və verilmiş sözləri düzgün yazır, böyük və kiçik hərfləri fərqləndirir.

**İnteqrasiya:** A-d. 1.1.3, 3.2.1, X-d. 1.1.2, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, diskussiya, sual-cavab, oyunlar, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakat, cədvəllər və iş vərəqləri, qayçı və kartoçkalar.

**Dərsin gedişi**

**Motivasiya:** Ev tapşırığı yoxlanılır. Yaxşı çəkilmiş şəkillər şagirdlərin görməsi üçün lövhədən asılır. Dövlət bayrağı barədə müsahibə aparılır:

— Uşaqlar, Azərbaycanın bayrağında neçə rəng var? Gəlin təkrar edək!

Cavab alınır: Üç rəng.

— Kim bayrağımızdakı rənglərin adını deyər? (Rənglər sadalanır-yaşıl, qırmızı, mavi)

Müəllim bayrağa hörmət hissi aşılayır və **bayraq, baba** sözlərinə aid uşaqların hazırladıqları cümlələr səsləndirilir.

Sonra müəllim Azərbaycan Respublikasının pul vahidi-manatla bağlı bilikləri genişləndirmək üçün müxtəlif pul nişanlarını (yaxud vəsait kimi pulun özünü) göstərərək soruşur:

— Uşaqlar, bu nədir (şəkildə nə təsvir olunub)? («Pul» sözü səslənir)

— Deyə bilərsinizmi, bunlar hansı dövlətin pullarıdır?

— Azərbaycanın.

— Bunların Azərbaycan pulu olduğunu nədən bilmək olar? Fikirlərinizi söyləyin və əsaslandırın. (Uşaqlar bir qədər fikirləşirlər. Müxtəlif cavablar səslənir).

— Hamısında Azərbaycan xəritəsinin şəkli var. (Cavabda çətinlik çəkildikdə müəllim kömək edir).

— Doğrudur.

— Uşaqlar, «pul» sözündə ortada hansı səsi eşidirsiniz? ([U] səsini)

Müəllim tədris dilində içərisində [u] səsi olan bir neçə sözü səsləndirir və sinfə müraciət edir:

— Uşaqlar, bu sözlərdə [u] səsi varmı? (Təsdiqedici reaksiya bildirilir)

— Uşaqlar, tədris dilində [u] necə səsdir — sait, yoxsa samit? (Sait cavabı alınır)

**Tədqiqat sualı:** [U] necə səsdir? [U] səsi sözün hansı hissələrində işlənə bilir? (U) səsi Azərbaycan və tədris dillərində eyni hərflə işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim lövhədən **durna, xoruz, toyuq** şəkillərini asır və həmin şəkilləri Azərbaycan dilində adlandırmağı təklif edir. Uşaqlar şəkilləri adlandırırlar («toyuq, xoruz, durna» sözlərini deyirlər.) Çətinlik olduqda müəllim kömək edir. Müəllim:

— Uşaqlar, bu sözlərdə [u] səsi varmı? (Təsdiqlənir)

Müəllim «Uu» hərfini şagirdlərə göstərir və lövhədə yazır. Şagirdlərə təklif edilir ki, şəkilləri tədris dilində adlandırsınlar. Tapşırıq icra edilir. Sözlər səsləndirilir.

— Uşaqlar, bəs bu sözlərdə [u] səsi eşitdinizmi? (Təsdiq (inkar) edilir)

Müəllim tədris dilinin əlifbasındakı müvafiq hərfi lövhədə Azərbaycan dilindəkinin qarşısında yazır və şagirdləri eyni səsin müxtəlif işarələrinə diqqətlə baxmağa dəvət edir.

— Uşaqlar, Azərbaycan və tədris dillərində eşitdiyiniz [u] səsi eyni hərfləmi işarə olunur, yazılır? (Xorla, «xeyr»(bəli) səslənir)

***II addım:*** Müəllim («bəli») şəkillər üzrə işi davam etdirir:

— Uşaqlar, **durna, xoruz, toyuq** sözlərində [u] səsini sözün hansı hissəsində eşidirsiniz? Ortada cavabı səslənir.

— Uşaqlar, yəqin maraqlanırsınız, görəsən, [u] səsi sözün əvvəlində və sonunda işlənmir? Axı dediyiniz sözlərin hamısında (**pul, xoruz, toyuq, durna**) [u] səsi ortada eşidilir. Müəllim növbəti— **quzu** və **ulduz** şəkillərini lövhədən asır. Sinfə müraciət edir:

— Uşaqlar, kim bu sözləri tədris dilində adlandırar? (**Sözlər səsləndirilir**)

— Bu sözlərdə [U] səsi eşidirsinizmi? (Xeyr/ bəli)

— Gəlin indi bu şəkilləri Azərbaycan dilində adlandıraq. Kim cavab vermək istəyir?

Şagirdlərdən bu sözləri deyənlər var — **quzu, ulduz**.

— Doğrudur. **Ulduz** sözü hansı səslə başlayır? ([U] səsi ilə)

— Doğrudur. İndi deyə bilərikmi, [u] səsi sözün əvvəlində də işlənir. (Xorla təsdiq edilir)

— Bəs quzu sözü hansı səslə bitir? ([U] səsi ilə — xorla cavab verilir)

— Doğrudur. Deyə bilərikmi, [u] səsi sözün sonunda da işlənir?

Xorla təsdiq edilir. Müəllim şəkilləri ümumiləşdirir:

— Deməli, Azərbaycan dilində [u] səsi sözün əvvəlində, ortasında və sonunda işlənə bilir. Yəqin siz özünüz də başqa sözlər bilirsiniz. Yadınıza salın, söyləməyə hazırlaşın. Hələlik uşaqlar fikirləşənə qədər müəllim bir tapmaca deyir. Tapmacanın cavabında [u] səsi olmasa da, tapmacada [u] səsi bir neçə dəfə işlənir. Uşaqlar qulaq asır və cavabı tapmağa çalışırlar.

**Tapmaca:** *Uzun-uzun uzanar, özünə köynək qazanar.* ***(Oxlov)***

— Uşaqlar, kim deyər, birinci sətirdəki sözlər hansı səslə başlanır? (Xorla [u] deyilir)

— Burada [u] səsi ilə başlayan neçə söz eşidirsiniz? (Cavab verilir)

— Uşaqlar, kim «uzun» sözünün tədris dilində mənasını deyər? (**Söz səsləndirilir**)

— Bəs **«uzun»** sözündə hansı hecalar var? Gəlin birlikdə bu sözü heca ilə tələffüz edək.

— [U-zun]. Deməli, bu sözdə neçə heca var? (2 heca var)

— Birinci hecada [u] səsindən başqa səs eşidilirmi? («Xeyr» səslənir)

— Uşaqlar, kim deyər, hansı səslər heca yarada bilir? Sait, yoxsa samit? (Sait səslər)

— Deməli, [u] səsi Azərbaycan dilində də tədris dilində olduğu kimi, sait səsdir.

— Uşaqlar, yəqin fikirləşməyə vaxtınız oldu, kim tapmacanın cavabını bilir?

Müxtəlif variantlar səslənir. Doğru cavab verilmədikdə müəllim «oxlov» sözünü söyləyir.

***III addım:*** Müəllim lövhədən **«bu, un, tut»** sözləri yazılmış plakatı asır. Sözləri oxuyaraq həmin sözlərlə şagirdləri tanış edir, onların mənası üzərində iş aparır və şagirdlərin müəllimlə birgə və müstəqil oxusunu təşkil edir. Sözlər cümlə içərisində işlədilir.

***IV addım:*** Müəllim qruplarla işə keçir. Sinfə müraciət olunur. Qrupların adları (keçən dərsdəki) soruşulur, yada salınır və **«ata, ana, nənə, baba, əmi»** sözləri yazılmış plakatlar təqdim edilir. Dərslikdəki 2-ci çalışmadakı şəkillər üzrə iş aparılır. Müəllim qrupların adlarını çəkərək şəklin nömrəsini deyir, adlandırmağı və həmin sözdə [u] səsinin yerini və sayını deməyi təklif edir. Hər qrup bir şəkli adlandırdıqdan sonra (adlandıra bilmədikdə müəllim başqa qrupa müraciət edir) müəllim oyunun qaydasını dəyişir. Şəklin nömrəsi səslənir və hansı qrup tez plakatı qaldırsa, söz həmin qrupun liderinə verilir. Cavablar lövhədəki müvafiq cədvəldə qeyd olunur və iş başa çatdıqda nəticələr elan olunur. Səsləndirilən sözlər birlikdə təkrar edilir.

***V addım:*** Dərslikdəki 5-ci çalışma əsasında şagirdlərin oxu bacarıqlarının formalaşdırılması üzrə iş aparılır.

***VI addım:*** İçərisində [u] səsi olan sözləri cümlədə işlətməklə cümlə qurmaq bacarıqlarının inkişafı üzrə davam etdirilir.

**Nəticə və ümumiləşdirmə:** Azərbaycan dilində [u] səsi sözün əvvəlində, ortasında və sonunda işlənə bilir. [U] sait səsdir. [U] səsi «Uu» hərfi ilə işarə olunur və tədris dilindəki müvafiq (hərf yazılır) hərfdən fərqli (eyni) yazılır.

Dərsin sonunda şagirdlər içərisində [u] səsi olan heca və sözlərdə bu səsin yerini və sayını müəyyənləşdirir, içərisində [u] səsi olan sözlərdən istifadə etməklə cümlələr (dili pratik cəhətdən bilənlər rabitəli kiçik mətnlər) qurur, ana dilinə və əksinə ilkin tərcümə, keçilən hərflər üzrə ilkin oxu və yazı bacarıqları nümayiş etdirirlər. Onlarda Azərbaycan dövlət rəmzlərinə hörmət hissi aşılanır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı: Ulduz** şəkli çəkin. Öyrənin: Azərbaycan bayrağındakı ulduz neçə guşəlidir? Bəs Azərbaycan Dövlət gerbindəki ulduz neçə guşəlidir? Sayın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [U] SƏSİ VƏ «U» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 13-cü dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim ev tapşırığını yoxlayır, uşaqlar çəkdikləri şəkilləri həvəslə göstərirlər. Müəllim şəkillərə baxaraq uşaqları həvəsləndirir. Dövlət rəmzləri ilə bağlı müsahibə aparır:

— Uşaqlar, keçən dərslərimizdə Azərbaycan bayrağının şəklini çəkmişdiniz. Kim deyər, Azərbaycan bayrağının ortasındakı rəng necədir? (Uşaqlar, «qırmızı» cavabını verirlər)

— Uşaqlar, bəs qırmızı rəngin üzərində nə şəkli görünür? («Ay və ulduz» cavabı verilir)

— Uşaqlar, deyə bilərsinizmi, bayrağımızdakı ulduz neçə guşəlidir? Siz evdə ulduz şəkli çəkmisiniz. Yəqin ki, saymısınız.

«Səkkiz» cavabı verilir. Cavabda çətinlik çəkildikdə müəllim ana dilində izahat verir.

— Uşaqlar, deyə bilərsinizmi, gerbimizdəki ulduz neçə guşəlidir? (Səkkiz)

Təsdiqlənir. Doğrudur, bayrağımızda və gerbimizdə səkkizguşəli ulduz həkk olunmuşdur.

— Uşaqlar, ulduz sözündə neçə [u] səsi eşidirsiniz? (İki [u] səsi eşidildiyi bildirilir)

— Bəs deyə bilərsinizmi, bu sözdə [u] səsi hansı hissədədir? (Əvvəldə və ortada)

**Tədqiqat sualı:**

— Uşaqlar, «ulduz» sözünü bilirsiniz, bu sözü deyirsiniz, mənasını başa düşürsünüz. Bəs bu sözü oxuyub, yaza bilərsiniz? «—» (müəllim təlim dilində bu sözün tərcüməsini səsləndirərək) sözünü necə, oxuyub, yaza bilirsiniz? Fikirləşin, cavablarınızı əsaslandırın.

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim lövhədən **«ulduz»** və «—» (təlim dilində bu sözün tərcüməsi) sözləri yazılmış plakat asır.

— Uşaqlar, kim gəlib lövhədə «—» (təlim dilindəki söz) sözünü yazar? (Əllər qalxır, səs-küy yaranır)

— Uşaqlar, bəs kim gəlib «ulduz» sözünü yazar?

Sakitlik. Fəallıq əvvəlkindən fərqlidir. Səbəb aydınlaşdırılır. Uşaqlar təlim dilində bütün hərfləri bildiklərini söyləyirlər. Azərbaycan dilində isə hələ 6 hərf keçilib. Müəllim uşaqları həvəsləndirir, tezliklə Azərbaycan dilində də oxuyub yazmağı bacaracaqlarını söyləyir.

Başlanmış söhbət dərslikdəki 3-cü çalışma əsasında davam etdirilir.

— Uşaqlar, dərslikdəki 3-cü çalışmaya baxın. Gəlin hecaları birlikdə oxuyaq. Görəcəksiniz ki, siz özünüz artıq bu hecaların çoxunu müəllimin köməyi olmadan da oxuya bilirsiniz. Bir neçə dərsdən sonra bu gün oxuya bilmədiyiniz hecaların hamısını özünüz müstəqil oxuyacaqsınız.

Çalışmadakı hecalar oxunur, şagirdlər oxuya bilmədiklərini müəllimin ardınca təkrar edirlər.

***II addım:*** Şagirdlərin lüğətinin içərisində [u] səsi olan sözlər hesabına genişlənməsinə imkan yaranır və müəllimlər bu imkandan istifadə edərək dili praktik cəhətdən bilənləri fəallaşdırmalı, digər şagirdlərdə öyrənməyə maraq oyatmalıdırlar.

— Uşaqlar, bu hecalardan bəzilərinin fərqli rəngdə olduğunu görürsünüz. Əvvəlki dərslərimizdə də belə hecalarla tanış olmuşdunuz. Kim deyər, bu hecalar dərslikdə niyə fərqli rənglə verilib?

Bunların həm də söz olduğu bildirilməlidir. Müəllim fikrin doğru olduğunu deyərək davam edir: — Yaxşı, gəlin görək bu sözlərin mənasını bilirikmi? Siz bunların bəzilərini oxuya bilmirsiniz, ancaq hecanın rənginə baxaraq onun söz olduğunu başa düşürsünüz. Odur ki, mən hecaları bir-bir deyəcəyəm, kim həmin sözün mənasını başa düşürsə, onu (təlim dilində) söyləyəcək.

«**Bu, un, tut**» sözləri üzərində keçən dərsdə iş aparıldığından uşaqların hamısı fəallıq göstərir, «**su, yu, yun, sus, quş, duz, buz**» sözlərinin mənası dili bilənlər tərəfindən deyilir, uşaqlar çətinlik çəkdikdə müəllim kömək edir.

***III addım:*** Müəllim uşaqları yazı bacarıqlarının formalaşması üzrə işə həvəsləndirir:

— Uşaqlar, siz içərisində [u] səsi olan bir sıra hecaları və bəzi sözləri oxuyursunuz, indi isə gəlin «Uu» hərfini yazmağı öyrənək. Nümunələrə baxaq və yazaq.

Müəllim şagirdlərin yazı bacarıqlarını izləyir, lazım gəldikdə metodik kömək göstərir. Şagirdlərin əllərinin yorulmaması üçün müəllim iş növünü dəyişir.

***IV addım:*** Cümlə qurmaq bacarıqları üzrə iş əsasında aparılır. Şagirdlər şəklə baxaraq cümlələr qurmalı, cümlələrdə içərisində [u] səsi olan sözlərdən istifadə etməlidirlər. Birinci şəkil üzrə cümlə qurarkən elə addan istifadə edilməlidir ki, ahəng qanunu gözlənilsin. Şagirdlər «nu» hecasını oxuya bilirlər, ona görə də «Tutu» adı və ya buna uyğun hər hansı ad seçilməlidir (**Qumru** adı da ola bilər). Yəni uşaqlar hər hansı qız adı dedikdə müəllim onlarla bu istiqamətdə praktik iş aparmalıdır ki, cümlə düzgün formalaşdırılsın. Bu zaman intonasiya üzrə iş diqqətdən kənarda qalmamalıdır. Müəllim xitabların işlənməsinə və əmr cümlələrinin intonasiyası ilə nəqli cümlələrin intonasiyasına şagirdlərin diqqətini cəlb etməli və göstərilən istiqamətlərdə intonasiya üzrə iş aparmalıdır. Cümlələr aşağıdakı şəkildə səslənməlidir: 1. Banu, Nanə, Tutunu (Qumrunu, Banunu və s.) tutun! 2. Nabat, almanı at! 3. Ata, atı tut! 4. Tutu tutu atır. 5. Nabat, topu at! 6. Nənə, ana, bu, undur?

Çalışmada buraxılan saitlər (şagirdlərin keçmədikləri) qırmızı, samitlər göy dairələrlə işarə olunmuşdur. Müəllim bu işarələrin nə məqsədlə işlənməsi ilə şagirdləri tanış etməli və gələcəkdə dərslikdə rastlaşacaqları halda bunun mənasını başa düşmələri istiqamətində də izahat işi aparmalıdır.

Cümlələr qurularkən müəllim «tut» sözünün omonimliyi üzərində praktik işi də unutmamalıdır, eyni zamanda, «tutmaq» feilinin çoxmənalılığı istiqamətində də cümlələr qurulmasını təşkil etməlidir.

***V addım:*** Cütlərlə iş əsasında qurulur. İş vərəqləri paylanır və tapşırığın şərti izah olunur. Hər bir cütə tapşırıqda verilmiş hecalar yazılmış kartoçkalar verilir. Cütlər bu hecaları kəsib iş vərəqlərində elə yapışdırmalıdırlar ki, sözlər alınsın. Müəllim tapşırığın şərtini izah edərkən özü əyani nümunə də göstərə bilər. Uşaqlara verilən kartoçkada sözlərin sərhədi ayrılmamalıdır ki, onlar kitabdakı ardıcıllığa baxaraq müvafiq hecanı tapıb kəssinlər (hecalar qarışıq verilməlidir). Tapşırıq başa çatdıqdan sonra iş vərəqləri təqdim edilir. Tapşırığın müzakirəsi aparılır. Alınmış sözlər səsləndirilir, yanlış cavablar təhlil edilir.

***VI addım:*** Lüğət üzrə iş oyun-yarış formasında («Tap görək») davam etdirilir. Qruplar müəyyənləşdirilir. Qruplara yeni adlar seçilir: **ulduz, toyuq, xoruz, quzu, durna, xurma**. Sözlər səsləndirilir və müvafiq şəkillər (qrupların rəmzləri) qruplara təqdim olunur. Hər qrup öz simvolunu alıb yerini tutur. Qrupların tərkibinin iki dərsdən bir dəyişilməsi, liderlərin dəyişilməsi, qrupların tərkibində oğlanlar və qızların, fəal və nisbətən passiv şagirdlərin olması diqqətdən kənar qalmamalıdır. Oyun şagirdlərə tanışdır. Ona görə də fəallıq göstərirlər. Əvvəlcə hecalar müəllimlə birgə oxunur. Sonra müəllim hecaları səsləndirir, hansı qrup tez simvolunu qaldırsa, söz həmin qrupa verilir. Qrupun nümayəndəsi içərisində həmin heca olan sözü (şəklə əsasən tapıb) deyir. Qrup üzvlərindən dili bilənlər həmin hecalar üzrə başqa sözlər də deyə bilərlər. (məsələn, **[quş]-bayquş, qaranquş, quşbaz, quşcuğaz**). Dərsdə vaxt çatarsa, həmin sözlərdə səsin yeri və sayı da söylənilə bilər. Cavablar lövhədəki müvafiq cədvəldə əks olunur və iş başa çatandan sonra

nəticələr elan olunur. Bu oyun-yarış şagirdlərin fəallaşmasına, axtarıcılıq qabiliyyətlərinin inkişafına stimul yaradır, nəticədə şagirdlərin lüğəti fəallaşır və zənginləşir.

***VII addım:*** Şagirdlərin yazı bacarıqlarının formalaşması üzrə iş əsasında aparılır. Şagirdlərin hərflərin birləşməsi və söz daxilində hərfin yazılması üzrə bacarıqlarının formalaşdırılması izlənilir, lazımi düzəlişlər edilir, metodik kömək göstərilir. Cümlə qurmaq bacarıqları üzrə iş ev tapşırığı kimi planlaşdırılır. Çünki dərsdə bu istiqamətdə kifayət qədər işlər aparılıb.

**Nəticə və ümumiləşdirmə:** Tədqiqat içərisində [u] səsi olan sözlərin müvafiq hərflə yazılması və həmin sözlərin oxunması ilə nəticələnir. Şagirdlər içərisində öyrəndikləri hərflər olan hecaları və sözləri düzgün oxuyur və yazır, sözləri düzgün tələffüz edir, şəkildə gördüklərini təsvir edirlər.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** «U» hərfinə aid cümlələr qurun. Evdə **«quzu»** şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 15-ci və 16-cı DƏRSLƏR. (§8)

### MÖVZU: [L] SƏSİ VƏ «L» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; [l] səsini və verilmiş hecaları, şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; müşahidə etdiyi və şəkildə gördüyü əşyaları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 4, 11) birinci şəxsin dili ilə təsvir edir; öyrəndiyi hərfləri, hecaları və sözləri düzgün oxuyur; «Ll» hərfini və verilmiş sözləri düzgün yazır, böyük və kiçik hərfləri fərqləndirir.

**İnteqrasiya: A-d. 1.1.3, X-d. 1.1.2, Riy. 1.1.1, T-i. 2.2.2.**

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu**: Beyin həmləsi, müzakirə, diskussiya, konseptual cədvəl, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakatlar, qayçı, kartoçka, cədvəllər və iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Ev tapşırığı yoxlanılır. Şagirdlərin çəkdikləri şəkillərin içərisindən fərqlənənlər hamının görməsi üçün lövhədən asılır. Şəkil üzrə hazırlanan cümlələr dinlənilir. Maqnitafonda R.Behbudovun ifasında «Lalələr» mahnısından bir bənd səsləndirilir. Musiqi dayandırıldıqdan sonra müəllim bir bənd layla oxuyur:

*Layla, beşiyim layla,*
*Evim, eşiyim layla.*
*Sən get şirin yuxuya,*

*Çəkim keşiyin, layla.*
*Balam layla, a layla!*
*Gülüm layla, a layla!*

Müəllim sinfə müraciət edir, səsləndirilən parçada hansı səsin daha çox eşidildiyini soruşur. [L] səsinin eşidildiyi bildirilir.

«Layla» sözündə [l] səsinin sözün hansı hissələrində işləndiyi ilə bağlı müsahibə davam etdirilir. [L] səsinin bu sözdə əvvəldə və ortada işlənildiyi söylənilir.

Müəllim «**palto** və **stol**» şəkillərini göstərərək onları təlim dilində adlandırmağı təklif edir. Şagirdlər təlim dilində müvafiq sözləri səsləndirirlər.

— Uşaqlar, deyə bilərikmi ki, hər iki dildə [l] səsi var? (Təsdiqlənir)

Müəllim Azərbaycan dilində [l] səsinin işarəsi olan hərfin çap və əlyazma nümunələri ilə şagirdləri tanış edir.

**Tədqiqat sualı:** [L] necə səsdir? Azərbaycan dilində [l] səsi sözün hansı hissəsində işlənə bilir? Azərbaycan və «—» (təlim) dillərində [l] səsini bildirən hərflər eyni cürmü yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim lövhədən asılmış plakatda «Ll» hərfini göstərərək soruşur:

— Uşaqlar, «—» (təlim) dilində [l] səsini bu işarə iləmi yazırsınız? (Xeyr/ bəli)

Sonra Azərbaycan və təlim dillərində **«palto»** «—» (təlim dilindəki söz) və **«stol»** «—» (təlim dilindəki söz) yazılmış plakat asılır. Bu plakatda **«l»** hərfi hər iki dildə digər hərflərdən fərqli rəngdə verilir. Müəllim plakatda eyni səsin müxtəlif işarələrini göstərir və lövhədə Azərbaycan və təlim dillərində bu işarələri qarşı-qarşıya yazır, sinfə müraciət edir:

— Uşaqlar, [l] səsinin Azərbaycan və «—» təlim dillərində ayrı-ayrı (eyni) hərflərlə yazıldığını söyləyə bilərikmi? (Xorla təsdiq/inkar olunur)

Müəllim təlim dilində **«palto və stol»** sözlərini oxumağı təklif edir. Uşaqlar bu sözləri oxuyurlar. Sonra müəllim Azərbaycan dilində həmin sözlər yazılmış hissəni göstərir və sözləri oxumuğı təklif edir. Təbiidir ki, şagirdlər fəallıq göstərmirlər. Cəhdlərin edildiyi müşahidə olunur. Bu zaman öyrənilməsi nəzərdə tutulmuş «**al, əl, lalə**» sözləri yazılmış plakat asılır. Burada da **«l»** hərfi fərqləndirilmiş rəngdə verilir. Sinfə müraciət olunur:

— Uşaqlar, bu sözləri necə, oxuya bilərikmi? (Sözlər müəllimlə birgə oxunur)

— Deyə bilərsinizmi, bu sözləri nə üçün oxuya bilirsiniz? (Hərflərin keçildiyi bildirilir). Sözlərin mənası izah olunur, cümlədə işlədilir.

***II addım:*** Müəllim dərslikdəki 3-cü çalışmaya şagirdlərin diqqətini cəlb edir. Hecaları onunla birgə oxumağı təklif edir. Bildirir ki, əvvəlki dərslərdə hecaların bəzilərini şagirdlər ona görə oxuya bilmirdilər ki, həmin hecalarda olan hərflərin hamısını bilmirdilər. Bu çalışmadakı hecalarda olan səslərin isə hamısı keçildiyindən uşaqlar onları özləri oxuya bilərlər. Çətinlik çəkdikdə müəllim kömək edəcəyini söyləyir və şagirdlərin xorla oxusunu təşkil edir. Oxu başa çatandan sonra müəllim deyir:

— Uşaqlar, artıq bilirsiniz ki, rəngli hecalar həm də sözdür. Siz bu sözlərin çoxunu artıq öyrənmisiniz. Kim bu sözləri sayar?

Uşaqlar müəllimin istiqaməti ilə bu sözləri səsləndirirlər: **Bal, əl, un, at, tut, nə**. Müəllim uşaqların keçmədikləri **«bal və bat»** sözlərinə diqqəti cəlb edir, bu sözlərdəki bütün hərfləri şagirdlər öyrəniblər, sözləri oxuya bilirlər, həmin sözlərin mənaları dəqiqləşdirilir, izah olunur. Müəllim əks əlaqə yaradaraq qeyd edir ki, **«palto və stol»** sözlərinin mənalarını bildikləri halda, həmin sözləri oxuya bilmədilər. Müəllim müsahibəni davam etdirir və şagirdləri gözlənilən nəticəyə gəlib çıxmağa yönəldir.

**Nəticə:** — Deməli, oxuya bilmək üçün hərfləri tanımaq;
— Yaza bilmək üçün onların yazılışını öyrənmək;
— Danışa bilmək üçün sözlərin mənasını bilmək lazımdır.

***III addım:*** Dərslikdəki 5-ci çalışma (şagirdlərin içərisində [l] səsi olan sözlər tapıb demələri) üzrə iş aparılır. Şagirdlər bildikləri sözləri söyləyirlər, bəzi sözlərin təkrarına yol verilir, bu, təbiidir. Müəllim deyir:

— Uşaqlar, gəlin dərslikdəki 2-ci çalışmadakı şəkillərə baxaq. Görək siz dediyiniz sözlərin şəkilləri burada varmı?

Çalışma üzrə iş oyun («Tap görək!») şəklində aparılır. Müəllim yarışın şərtini izah edir. Keçən dərsdə qruplara verilmiş adlar xatırladılır (**xoruz, toyuq, quzu, durna, ulduz**) və rəmz-şəkillər qruplara verilir. Müəllim şəklin nömrəsini deyir və qrupun adını çəkir. Qrup üzvləri həmin sözü söyləyirlər. Qrupun lideri sözdə [l] səsinin yerini və sayını müəllimin köməyi ilə (yardımçı suallar əsasında) söyləyir. Cavablar lövhədəki cədvəldə qeyd edilir. Oyun başa çatdıqda nəticələr ümumiləşdirilir, qalib qrup elan edilir. Müzakirə aparılır, deyilən sözlər təkrarlanır.

***IV addım:*** Şagirdlərdə oxu bacarıqlarının formalaşdırılması üzrə işə keçilir.

Sonra şagirdlərin diqqəti dərslikdəki 6-cı çalışmaya cəlb edilir. Diskussiya başlanır. Müəllim təlim dilində şagirdlərin təsəvvürlərinə istinad edərək şəxs adlarının böyük hərflə yazılması barədə müsahibə aparır. Şəkillərdəki çiçək və gül adlarını bildirən sözlərin qız adlarını bildirdikdə böyük, çiçəkləri adlandırdıqda kiçik hərflə yazılışı ilə əlaqədar problem yaradılır və şagirdlər diskussiyaya sövq edilir. Şagirdlər çiçəkləri adlandırmaqda və tələffüzdə çətinlik çəkdikdə müəllim kömək edir, yardımçı suallar verir. Çalışma üzrə iş yekunlaşdırılır, böyük və kiçik hərflərin vəzifələri təlim dili ilə müqayisəli şəkildə izah olunur. Şəkildəki hansı güllərin adında [l] səsi olduğu bir daha vurğulanır. **Bənövşə** sözünün təlim dilində tərcüməsi səsləndirilir. Bu sözdəki [l] səsinə istinad edərək onun təlim dilində sait, yoxsa samit səs olduğu barədə müsahibə aparılır.

Azərbaycan dilində də [l] səsinin samit səs olduğu söylənilir.

***V addım:*** Şagirdlərin cümlə qurmaq bacarıqları üzrə iş, dərslikdəki 4-cü çalışma əsasında həyata keçirilir. Dili bilənlər kiçik mətn (əlaqəli cümlələr) qururlar.

**Nəticə və ümumiləşdirmə:** [L] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənə bilir. [L] samit səsdir. Azərbaycan və təlim dillərindəki [l] səsi fərqli (eyni) hərflərlə **«Ll»** «...» (təlim dilindəki müvafiq hərf) yazılır.

Dərsin sonunda şagirdlər sözün müxtəlif yerlərində [l] səsinin işlənməsinə aid misallar deyir, içərisində [l] səsi olan hecalardan sözlər düzəldir, içərisində [l] səsi olan heca və sözlərdə bu səsin yerini və sayını müəyyənləşdirir, içərisində [l] səsi olan sözlər hesabına lüğətlərini genişləndirir, içərisində [l] səsi olan sözlərdən istifadə etməklə cümlələr (dili pratik cəhətdən bilənlər şəkil üzrə rabitəli kiçik mətnlər) qurur, keçilən hərflər üzrə ilkin oxu və yazı bacarıqları nümayiş etdirirlər.

**Ev tapşırığı: Lalə** şəkli çəkin. Öyrənilmiş sözlərə aid cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [L] SƏSİ VƏ «L» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 15-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Ev tapşırıqları yoxlanılır. Şagirdlərin çəkdikləri şəkillərin içərisindən fərqlənənlər lövhədən asılır. Çiçəklərlə bağlı müsahibə aparılır. (Hansı çiçəklərin adlarını bilirlər? Kim hansı çiçəyi çox sevir? Nə üçün qızlara çiçəklərin adları verilir? Tanışlarının, qohumlarının içərisində belə adı olanlar varmı?). Sonra evə verilmiş çalışma əsasında **«lalə, al, əl»** sözlərində [l] səsinin tələffüzü, heca və söz daxilində, cümlədə işlədilməsi ilə bağlı bacarıqlar inkişaf etdirilir, təkmilləşdirilir. Söylənilən cümlələrə istinadən müəllim şagirdlərə müraciət edir:

— Uşaqlar, söylədiyiniz cümləri yaza bilərsinizmi? Səbəbini deyin və fikirlərinizi əsaslandırın.

**Tədqiqat sualı:** [L] necə səsdir? İçərsində [l] səsi olan bütün sözləri oxuyub, yaza bilirsinizmi? Bəs cümlələri necə, sürətlə oxuya bilirsinizmi? Sözlər necə yaranır? Sözdə səsi dəyişməklə yeni sözlər yaratmaq olurmu?

**Tədqiqatın aparılması:** ***I addım:*** Şagirdlərin oxu bacarıqlarının səviyyəsi dərslikdəki 7-ci çalışma əsasında yoxlanılır.

***II addım:*** Yazı bacarıqlarının formalaşdırılması üzrə iş aparılır. Düzəlişlər edilir, lazımi metodik kömək göstərilir.

***III addım:*** İş cütlərlə aparılır. Şagirdlərə iş vərəqləri və kartoçkalar paylanır, çalışmanın şərti izah olunur. Cütlər kartoçkalarda qarışıq verilmiş hecalardan (bu hecaların içərisində lazım olmayanlar da var) lazım olanları kəsib iş vərəqlərində elə yapışdırmalıdırlar ki, sözlər alınsın. Tapşırıq icra olunur və iş vərəqləri təqdim olunur. Bacarıqların səviyyəsi müəyyənləşdirilir. Alınmalı olan sözlər — **Nabat, lalə, ana, əl, al, at, Banu, Tutu** səsləndirilir.

***IV addım:*** Şagirdlərin lüğətinin genişləndirilməsi və fəallaşdırılması üzrə iş əsasında davam etdirilir. İş oyun-yarış formasında təşkil edilir. Qrupların tərkibi və adları dəyişdirilir. Qruplar çiçək adları ilə adlandırılır: **«lalə, nərgiz, qərənfil, qızılgül, yasəmən, bənövşə».** Rəmz-şəkillər qrup liderlərinə təqdim edilir. Çalışmanın şərti uşaqlara əvvəlki dərslərdən tanışdır, bir daha xatırladılır. Hecalar əvvəlcə müəllimlə birgə deyilir. Bu hecalar içərisində hələ şagirdlərin keçmədikləri səslər var.Qruplara fikirləşmək və müzakirə üçün vaxt verilir.

Sonra hecalar aramla müəllim tərəfindən yenidən səsləndirilir, şagirdlər şəkillərə baxaraq içərisində həmin heca işlənən sözləri tapıb rəmzlərini qaldırırlar. Hansı qrupun nümayəndəsi daha tez rəmzi şəkli qaldırsa, müəllim qrupun adını səsləndirməklə sözü ona verir. Söz düzgün tapılsa, qrup xal qazanır və lövhədəki cədvəldə qeyd olunur (Qrup üzvlərindən dili bilənlər əlavə sözlər deyə bilərlər: **[tül]-tülkü, sütül; [lək]-ələk, çiyələk, göbələk, çəllək** və s. Bu, qrupa əlavə xal qazandırır). Qrupun digər üzvləri deyilən sözlərdə [l] səsinin sayını və yerini müəyyənləşdirir, cavab verirlər. Hansı etapda yanlış cavab verilsə, qrup xal itirir. Yarış başa çatdıqda hər qrupun xalları nəzərdən keçirilir, qalib qrup rəğbətləndirilir. Tapılmayan sözlər varsa, müəllim həmin sözü deyir.

***V addım:*** Şagirdlərin üzündən səliqəli və düzgün köçürmək bacarığı üzrə iş əsasında aparılır.

***VI addım:*** Şəkillər üzrə oxu və cümlə qurmaq bacarığı əsasında formalaşdırılır. Sözlərin tapılmasında və oxunmasında dairələrin (artıq bu rənglərin mənası ilə şagirdlər tanış ediliblər: qırmızı-sait, göy-samit səsi göstərir) mənası xatırladılır. Bu üsul perspektivliyi təmin edir və öyrənməyə motiv yaradır.

***VII addım:*** Keçilmiş səslər təkrar edilməklə sözün səs tərkibi üzərində iş aparılır. Məntiqi təfəkkürün formalaşmasına və eyni kökdən müxtəlif sözlər düzəldilməsinin sadə formada dərk edilməsinə kömək edir. **Əl, ələ, ələk** sözləri səsləndirilir. Sözdə səsin artırılması ilə yeni sözlərin yaranması üzrə tədris dili ilə müqayisəli iş aparılır.

Sözlər düzəldikcə təlim dilində mənası deyilir. Sonra həmin sözlər cümlə içərisində işlədilir. Müəllim tapmaca deyir: **Alçaq damdan qar yağar.** Cavabı tapan olmadıqda müəllim evdə fikirləşib tapmağı tövsiyə edir.

**Nəticə və ümumiləşdirmə:** [L] səsi sözün əvvəlində, ortasında və sonunda işlənir. İçərisində [l] səsi olan hecalardan sözlər, sözlərdən cümlələr düzəlir. Bir sözdən yeni sözlər yaratmaq mümkündür: **Əl-ələ-ələk.** Sürətlə oxumaq və yazmaq üçün hərfləri öyrənmək lazımdır.

**Ev tapşırığı: Fil** şəkli çəkin. İçərisində [l] səsi olan 5 qız, 5 oğlan adı tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 17-ci və 18-ci DƏRSLƏR. (§9)

### MÖVZU: [M] SƏSİ VƏ «M» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; [m] səsini və verilmiş hecaları, şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; müşahidə etdiyi və şəkildə gördüyü əşyaları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 4, 7) birinci şəxsin dili ilə təsvir edir; öyrəndiyi hərfləri, hecaları və sözləri düzgün oxuyur; «Mm» hərfini və verilmiş sözləri, verilmiş cümlə nümunələrini düzgün yazır.

**İnteqrasiya:** A-d. 3.2.1, X-d. 1.1.2, 2.1.1, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması**: Kollektivlə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu**: Beyin həmləsi, müzakirə, müsahibə, Venn diaqramı, oyun-yarış.

**Resurslar**: Dərslik, yapışqan, plakatlar, şəkillər, hərflər toplusu, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim «Azərbaycan» şeirindən bir bənd deyir və şagirdlərin 2-ci, 3-cü misralarda daha çox diqqətli olmalarını tövsiyə edir:

*El bilir ki, sən mənimsən,*
*Yurdum, yuvam məskənimsən.*
*Anam, doğma vətənimsən!*
*Ayrılarmı könül candan?*
*Azərbaycan, Azərbaycan!*

Şeir oxunduqdan sonra sinfə müraciət olunur:

— Uşaqlar, bu şeirdə hansı səs daha çox eşidilir? (Müəllim: —

***«Yurdum, yuvam məskənimsən.***
***Anam, doğma vətənimsən!»***

misralarını bir daha təkrar edir). Uşaqlar [m] səsinin daha çox eşidildiyini bildirirlər.

Müəllim lövhədən asılmış **alma, armud, yumurta, qələm, kələm** şəkillərini uşaqlara göstərir və onları təlim dilində adlandırmağı təklif edir.

Şəkillər ardıcıllıqla adlandırılır və müsahibə davam edir.

Müəllim: — Uşaqlar, bu sözlərdə [m] səsini eşitdinizmi? Cavablar eşidilir.

— Uşaqlar, gəlin indi bu şəkilləri Azərbaycan dilində adlandıraq. Siz bu sözləri Azərbaycan dilində hələlik oxuya bilmirsiniz, amma mənalarını bilirsiniz. Bilməyənlər varmı? Bilməyənlər varsa, indi bir daha eşidəcəklər. Azərbaycan dilində ardıcıllıqla «**alma, armud, yumurta, qələm, kələm**» sözləri deyilir.

— Uşaqlar, bu sözlərin hamısında [m] səsini eşidirsinizmi? (Sözlər müəllim tərəfindən bir-bir yenidən [m] səsi xüsusi vurğu altında deyilməklə tələffüz edilir).

Bütün sözlərdə [m] səsinin eşidildiyi təsdiq edilir. Müəllim «Mm» hərfi ilə şagirdləri tanış edir. Lövhədə kəsmə əlifba ilə «**mən**», «**alma**» sözləri yığılır. Hərfləri qoyduqca müəllim bu hərfləri uşaqların artıq tanıdıqlarını, indi isə «Mm» hərfini öyrəndiklərini söyləyir və hərfi yerinə qoyur. [M] səsinin bu sözlərin hansı hissəsində eşidildiyi soruşulur.Tədqiqat sualı formalaşdırılması üçün **pomidor** şəkli asılır, şəkli təlim dilində adlandırmaq təklif edilir.

Uşaqlar xorla təlim dilində «**pomidor**» sözünün qarşılığını deyirlər. Müəllim:

— Uşaqlar, deyə bilərikmi, həm təhsil aldığınız, həm də Azərbaycan dillərində [m] səsi var? (Bəli)

— Uşaqlar, əvvəl öyrəndiyiniz səslərin sözün, hecanın müxtəlif hissəsində işləndiyini öyrənmisiniz.

**Tədqiqat sualı:** Görək [m] necə səsdir? Azərbaycan dilində [m] səsi sözün hansı hissəsində işlənə bilir? Azərbaycan və təlim dillərində [m] səsi eyni hərfləmi işarə olunur?

**Tədqiqatın aparılması**: ***I addım:*** Müəllim dərslikdəki 2-ci çalışma əsasında işi qruplarla davam etdirir. Keçən dərsdə qruplara verilmiş adlar yada salınır: «**lalə, nərgiz, yasəmən, bənövşə, qızılgül, qərənfil**» sözləri təkrarlanaraq rəmz-şəkillər qruplara təqdim edilir. Şəkillərlə tanış olmaq üçün qruplara vaxt verilir. Sonra müəllim şəklin nömrəsini deyərək qrupun adını çəkir. Qrupun lideri şəkli Azərbaycan dilində adlandırır. Həmin səsin sözün hansı hissəsində (əvvəldə, ortada, sonda) olduğunu və sayını yalnız lider deyil, qrupun başqa üzvləri də deyə bilər. Şagirdlərin cavabları lövhədəki müvafiq cədvəldə qeydə alınır. İş başa çatdıqdan sonra nəticələr müzakirə olunur, şəkilləri adlandıran sözlər bir daha səsləndirilir. Dərslikdəki 5-ci çalışmanın tələbi əsasında yarış davam etdirilir. Hansı qrup içərisində [m] səsi işlənən daha çox söz deyə bilsə, həmin qrup qalib sayılır.

***II addım:*** Lövhədən Azərbaycan (Azərbaycan dilindəki variantda «o» hərfinin yerinə qırmızı dairə olmalıdır) və təlim dillərində «**albom**» — «—» sözləri yazılmış plakat asılır. Hər iki sözdə axırıncı hərf eyni rəngdə verilir. Müəllim sözləri hecalarla oxumağı təklif edir. Uşaqlar müəllimlə birgə oxuyurlar. Müəllim hər iki dildə axırıncı hansı səsin eşidildiyini soruşur. [M] səsi olduğu söylənilir. Müəllim göstəricinin ucunu hər iki sözdə axırıncı hərfin üzərinə qoyaraq müsahibəni davam etdirir:

— Uşaqlar, bu gün siz Azərbaycan dilində [m] səsinin işarəsi ilə – «Mm» hərfi ilə tanış oldunuz, artıq bilirsiniz ki, bu, «Mm» hərfidir. Müəllim sözün sonundakı hərfi (kiçik «m» işarəsini) göstərir.

— Deyə bilərsinizmi, təlim dilində bu hərf hansı səsin işarəsidir?

Uşaqlar xorla təlim dilindəki səsi deyirlər. Müəllim izahat işi aparır. Qeyd edir ki, oxuyarkən təlim dili ilə qarışıq salmamaq üçün bu işarəni yadda saxlamaq lazımdır. Sonra müəllim Azərbaycan və təlim dillərində «Mətanət» sözü yazılmış plakatı asır və I hərfə diqqət yetirmələrini tövsiyə edir. Uşaqlar hər iki dildə birinci səsi işarə edən hərfin (böyük «M» hərfinin) eyni cür, yaxud fərqli yazıldığını müşahidə edirlər. (Plakatda birinci hərflər eyni rəngdə verilir). Sonra müəllim həmin sözlərdə Azərbaycan dilindəki «t» hərfi ilə təlim dilindəki müvafiq hərfə diqqəti cəlb edir. Azərbaycan dili ilə təlim dilində kiçik hərflərin qarışıq salınması qarşıya çıxarsa, müvafiq iş aparılması zəruri hesab edilir. Şagirdlərdə [M] səsinin işarəsini — kiçik «m» hərfini tanıma və ayıra bilmə bacarıqlarını formalaşdırmaq üçün müəllim dərslikdəki 3-cü çalışmada verilmiş hecaları şagirdlərlə birlikdə oxuyaraq tələffüz edir. Şagirdlərə diqqətli olmağı, oxuyarkən «m» hərfinin hansı səsin işarəsi olduğunu unutmamağı tövsiyə edir. Bu tapşırıqdakı hecaların əksəriyyətini şagirdlər özləri müstəqil oxumalıdırlar, çünki həmin hərfləri artıq tanıyırlar, oxuya bilmədikləri hecaları müəllimdən sonra tələffüz edirlər.

***III addım:*** İş cütlərlə aparılır. Şagirdlərə iş vərəqləri paylanır. Çalışmanın şərti izah olunur. Cütlər hecaları oxumalı, sonra hərflər toplusundan hərfləri tapıb hecaları çalışmada göstərildiyi kimi yapışdırmalıdırlar. İş yekunlaşdıqda vərəqlər təqdim olunur və müzakirə aparılır, səhvə yol verilibsə, izahat verilir.

***IV addım.*** Şagirdlərin içərisində [m] səsi olan sözlərdən istifadə etməklə cümlə qurmaq bacarıqları dərslikdəki 7-ci çalışma əsasında formalaşdırılır. Şagirdlər şəkillərə baxaraq cümlələr qururlar. (Keçilməmiş hərflər (bunlar şəkilçilərdir) müvafiq dairələrlə əvəz olunub). Burada müəllim təlim dili ilə əlaqə yaradaraq şəkilçi anlayışı barədə praktik yolla təsəvvür yaratmalıdır. İntonasiya üzrə iş diqqətdən kənarda qalmamalı, müraciət intonasiyasının tələffüzdə fərqləndirilməsinə nail olunmalıdır.

Şagirdlərin cümlə (dili bilənlərin rabitəli cümlələr — kiçik mətnlər) qurmaq bacarıqları üzərində iş dərslikdəki 4-cü çalışma əsasında (şəkil üzrə) davam etdirilməli, daha sonra dərsdə öyrənilmiş sözlərin — «**alma, mən**» cümlələrdə işlədilməsi təmin edilməlidir.

***V addım.*** Şagirdlərin qruplaşdırma, ümumiləşdirmə bacarıqlarının formalaşdırılması məqsədilə dərslikdəki 6-cı çalışmadakı şəkillər nəzərdən keçirilir və onlar çalışmada tələb olunan sözü tapmağa sövq edilirlər.

**Nəticə və ümumiləşdirmə**: [M] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənə bilir. Azərbaycan dilində «Mm» hərfinin böyük və kiçik şəkillərinin yazılışı göstərilir və təlim dilindəki müvafiq hərflərin yazılışı ilə oxşarlıq və ya fərqin olub-olmadığına diqqət yetirilir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Dərslikdəki 6-cı çalışmadakı meyvə şəkillərini çəkin. İndiyə qədər öyrəndiyiniz səsləri və sözləri təkrar edin. Neçə səs və neçə söz öyrənmisiniz?

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [M] SƏSİ VƏ «M» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 17-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Motivasiya:** Ev tapşırığı yoxlanılır. Şəkillər içərisindən fərqlənənlər lövhədən asılır. Şəkillər üzrə keçilmiş səs və hərflərlə bağlı müsahibə aparılır.

— Uşaqlar, çəkdiyiniz şəkillərə baxın. İndiyə qədər keçdiyiniz səs və hərfləri yadınıza salın. Müəllim **alma** şəklini göstərərək soruşur:

— Uşaqlar, şəkildə nə görürsünüz? (Alma)

— Bu sözdə neçə səs var? (4 səs)

— Uşaqlar, gəlin bu səsləri işarələrlə cədvəldə göstərək (müəllim **alma** şəklinin altından müvafiq sxem —

| a | l | m | a |
|---|---|---|---|

olan plakatı asır. Bu qayda ilə **nar və armud** şəkilləri əsasında müvafiq sözlərin səs və hərf tərkibi üzrə iş aparılır. Müəllim hər iki sözə aid şəkil və sxem olan plakatları asır. Plakatlarda keçilməmiş hərflər (n a ○, a ○ m u ○) dairələrlə göstərilir. Sonra müəllim içərisində [ə], [t], [b] səsləri olan sözlər deməyi təklif edir və müsahibə yekunlaşır. Keçilmiş sözlər yazılmış plakat asılır və sözlər **(ata, ana, nənə, baba, nə, un, bu, at, lalə, al, əl, ət, tut, alma, mən)** xorla oxunur.

Müəllim şagirdlərin diqqətini **alma, nar** və **armud** sözləri yazılımış sxemə cəlb edir.

— Uşaqlar, **alma** sözündə bütün hərflər yazılmışdır? (Bəli)

— Biz bu sözü oxuya bilərik? (Bəli)

— İndi **nar** və **armud** sözlərinə baxın, burada bütün hərflər yazılmışdır? (Xeyr)

— Hərflərin yerinə dairələr niyə qoyulmuşdur? (Biz bu hərfləri keçməmişik)

— Həmin sözləri oxuya bilərik? (Xeyr)

**Tədqiqat sualı:** [M] necə səsdir? [M] səsi olan hecalardan sözlər düzəldə və sözlərdən cümlələr qura bilərikmi? Sözləri yazıb-oxumağı bacarmaq üçün nə lazımdır?

**Tədqiqatın aparılması:** ***I addım:***

— Uşaqlar, **alma** sözünü tələffüz edərkən onu neçə hissəyə ayırırıq; bu sözdə neçə heca var? (2 heca var: al-ma)

— Bəs «nar» sözünü deyərkən hissələrə bölürükmü? (Xeyr)

— Bu sözdə neçə heca var? (1 heca)

— Uşaqlar, hecalar nədən düzəlir? (Səslərdən)

— Bəs sözlər nədən düzəlir? (Hecalardan)

— Onda gəlin görək cümlələr nədən yaranır? (Cümlələr sözlərdən yaranır)

— **Alma, armud, nar** sözlərini işlətməklə cümlələr qura bilərsinizmi? Kim «alma» sözünü işlətməklə cümlə qurar? Müsahibə **nar və armud** sözləri ilə bağlı bu qayda ilə davam edir. Cümlələr deyilir: Alma meyvədir. Alma sarıdır. Alma şirindir. Armud şirindir. Mən alma yeyirəm. Nar qırmızıdır. Nar turşdur.

— Uşaqlar, dediyiniz cümlələri yaza bilərsinizmi? Fikirlərinizi əsaslandırın.

«Hərflərin hamısını yazmağı bilmirik» – cavabı səslənir.

— Bəs həmin cümlələri oxuya bilərsinizmi? (Xeyr, hərflərin hamısını öyrənməmişik)

— Uşaqlar, deməli, oxumağı, yazmağı bacarmaq üçün hərfləri öyrənmək lazımdır. Gəlin indi keçdiyimiz «Mm» hərfini oxumağı öyrənək. Uşaqlar [m] səsinin işarəsini təlim dilindəki hərflə qarışdırdıqda düzəliş aparılır. Oxu başa çatdıqdan sonra müəllim şagirdləri həmin

hecaları yaza bilmək üçün «Mm» hərfini yazmağı öyrənməyə həvəsləndirir. Hərfin yazılışı üzərində şagirdlərin işini təşkil edir.

***II addım:*** Şagirdlərin lüğətinin içərisində [m] səsi olan sözlər hesabına genişləndirilməsi və fəallaşdırılması üzrə iş əsasında davam etdirilir. İş oyun-yarış («Tap görək») formasında aparılır. Müəllim hecaları oxuyur. Şagirdlər təkrar edirlər. Həmin hecalarda [m] səsinin yeri üzrə iş aparılır, onun sait, yoxsa samit olması xatırlanır. Sonra müəllim şəkilləri incələmək üçün şagirdlərə vaxt verir və oyunun şərtini izah edir. Bu oyun şagirdlərə tanış olduğundan izahat yığcam aparılır və az vaxt alır. Ənənəyə uyğun olaraq qruplar yenidən (xatırladırıq ki, hər hərfin öyrədilməsi üzrə 2-ci saatda) formalaşdırılır. Qruplara yeni (**məktəb, məktub, maral, gəmi, kələm, şam**) adları verilir. (Artıq müəllimlərə aydındır ki, bu etap özü — adların seçilməsi, səslənməsi, səslərin tələffüzü sözlərin fəallaşdırılması üzrə bacarıqlara xidmət edir). Adların seçilməsi şagirdlərin fəallığı (müəllimin keçən dərsdə səslənən sözlərə istiqamətləndirməsi) ilə həyata keçirilir. Rəmzlər — şəkillər qruplara təqdim olunur. Qruplar hazır olduqlarını bildirirlər. Müəllim hecaları yenidən aramla deyir, içərisində həmin heca olan sözü şəkil əsasında tapıb rəmzi qaldıran qrupa söz verilir. Qrupun lideri sözü səsləndirir. Cavab doğrudursa, lövhədəki cədvəldə işarə olunur. Qrup üzvlərindən həmin heca işlənən başqa sözlər demək istəyən olduqda dinlənilir və bu, qrupa əlavə xal gətirir. Qrupdan neçə əlavə söz deyilsə, cədvəldə ştrixlərlə qeydə alınır (Məsələn: **[züm] — üzüm, dözüm, Zümrüd, [lam] — salam, lampa**).

Yarışın nəticələri elan olunur, deyilən sözlər təkrarlanır. Şagirdlərə hərf tərkibi məlum olan hecalarda [m] səsinin yeri təkrarlanır.

***III addım:*** Oxu bacarıqlarının inkişafı üzrə iş əsasında aparılır. Şagirdlər verilmiş sözləri hecalarla oxuyurlar.

***IV addım:*** Üzündən səliqəli və düzgün köçürmək, hərflərin söz tərkibində yazılması, bitişdirilmə qaydaları, böyük və kiçik hərflərin işarələrinin düzgün yazılması bacarıqları inkişaf etdirilir.

***V addım:*** Şagirdlərin cümlə qurmaq bacarıqlarının inkişafı şəkil üzrə davam etdirilir. (Dili bilənlər şəkil üzrə kiçik rabitəli mətn qura bilərlər: Bura mağazadır. Burada meyvə, tərəfəz satılır. Burada sarı, qırmızı almalar görünür. Burada çoxlu kök, pomidor da var. Anam meyvələrə baxır. O, iki kiloqram alma alır. Anam kələm də alır).

Dərsin sonunda tədqiqat sualı ətrafında ümumiləşdirmə aparılır.

**Nəticə və ümumiləşdirmə:** İçərisində [m] səsi olan hecalardan çoxlu sözlər düzəltdik (Sözlərin bəziləri xatırladılır — **yasəmən, badımcan, qarmon** və s.), içərisində [m] səsi olan sözlər işlətməklə cümlələr qurduq. [M] səsinin samit səs olduğunu, hecanın əvvəlində və sonunda gəldiyini öyrəndik.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı: Maral** şəkli çəkin. Öyrənin, bu adı qızlara vermək olarmı? İçərisində [m] səsi olan 10 ad (kişi və qadın: Mələk, Mehriban, Müşfiq, Mikayıl, Murad, Samirə, Məlahət, Mehman, Lamiyə, Yasəmən və s.) tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 19-cu və 20-ci DƏRSLƏR. (§10)

### MÖVZU: [R] SƏSİ VƏ «R» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; [r] səsini və verilmiş hecaları, şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; müşahidə etdiyi və şəkildə gördüyü əşyaları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 4, 7) birinci şəxsin dili ilə təsvir edir; öyrəndiyi hərfləri, sözləri və cümlələri düzgün oxuyur;

«Rr» hərfini və verilmiş sözləri düzgün yazır; verilmiş cümlə nümunələrini düzgün yazır, oxuduğu cümlələri təlim dilinə və əksinə tərcümə edir.

**İnteqrasiya:** A-d. 1.1.3, Riy. 1.1.1, T-i. 2.2.2

**Dərsin tipi:** İnduktiv.

**Dərsin forması:** Bütün siniflə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, iş vərəqləri, kəsmə əlifba, dəftər, plakat və cədvəllər.

**Dərsin gedişi**

**Motivasiya.** Ev tapşırığı yoxlanılır. Şəkillərin içərisindən fərqlənənlər hamının görməsi üçün lövhədən asılır. Müəllim içərisində [m] səsi işlənən adlar barədə tapşırığın icrasını yoxlayır. Şagirdlər nümunələr söyləyirlər (Mehriban, Məleykə, Məlahət, Səlminaz, Təhminə, Mehdi, Süleyman və s.). Müəllim lövhədən asılmış **«maral»** şəklini göstərərək deyir:

— Uşaqlar, öyrəndinizmi, Maral adını qızlara qoymaq olar, yoxsa yox? Uşaqlar fikirlərini söyləyirlər. Cavablar fərqli olur.

— Uşaqlar, bu şəkli təlim dilində necə adlandırırsınız? Təlim dilində müvafiq söz səsləndirilir

— Bu sözdə [r] səsi eşidirsinizmi? (Xeyr/Bəli)

— Gəlin onda bu şəkli Azərbaycan dilində bir daha adlandıraq. (Maral)

— Burada [r] səsi eşidilirmi? (Bəli)

— [R] səsi sözün hansı hissəsindədir? (Ortada)

— Bu sözdə neçə dənə [r] səsi eşidirsiniz? (Bir)

«Bir» sözü deyiləndə müəllim onun üzərindən keçmir, bu sözdə [r] səsinin sözün hansı hissəsində eşidildiyini soruşur. Cavab qəbul edilir. Müəllim bunu soruşa-soruşa qarşı-qarşıya iki variantda «Ma●al» və təlim dilində qarşılığı yazılmış plakatı asır. Plakatda [r] səsinin işarəsinin yerinə variantlardan birində göy rəngdə dairə qoyulub, digərində isə təlim dilində müvafiq hərf yazılıb. Dairə və hərf eyni rəngdə olmalıdır. Müəllim dairə qoyulmuş variantı göstərərək deyir:

— Uşaqlar, siz bu sözdəki hərflərin hamısını tanıyırsınız. Bəs bu dairənin yerinə hansı səsin işarəsini qoymalıyıq? ([R] səsinin)

Müəllim kəsmə əlifba ilə «Rr» hərfinin çap, lövhədə isə yazaraq əlyazma formasını göstərir. Sonra isə plakatda dairə ilə eyni rəngdə olan hərfə-işarəyə diqqəti cəlb edir, uşaqlar müəllimlə birlikdə sözü oxuyurlar.

Müəllim **qələm və jurnalı**, yaxud içərisində [r] səsi olan hər hansı əşyaları göstərərək təlim dilində adlandırır və uşaqların bu sözlərdə [r] səsini eşitdiklərinə istinad edərək:

— Uşaqlar, bu sözlərdə [r] səsi eşitdinizmi? (Təsdiq edilir)

— Deyə bilərikmi, təlim dilində də [r] səsi var? (Təsdiq olunur)

— Uşaqlar, siz artıq təlim dilində «Rr» hərfini yazıb, oxuya bilirsiniz. Azərbaycan və təlim dillərində [r] səsi eyni hərfləmi yazılıb?

**Tədqiqat sualı:** [R] səsi Azərbaycan dilində sözün hansı hissəsində işlənə bilir? Azərbaycan və təlim dillərində [r] səsi eyni hərfləmi işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:***

— Uşaqlar, mən sizə bir tapmaca deyəcəyəm. Siz bir dəfə bu tapmacanı artıq eşitmisiniz və cavabını bilirsiniz. Görək bu tapmaca yadınızdan çıxıb, ya yox? Tapmacanı indi bir qədər başqa şəkildə eşidəcəksiniz:

*Bazardan aldım bir dənə,*
*Evdə açdım — min dənə.*

— Tapmacanın cavabını bilən varmı? (Variantlar deyilir)

Düzgün cavab tapılmadıqda müəllim nar şəklini göstərir və şagirdlər sözü deyirlər.

Azərbaycan və təlim dillərində **«nar»** (qarşılığı), **«tar»** (qarşılığı) yazılmış plakat asılır. Plakatda [r] səsinin hər iki dildə işarəsi eyni rənglə fərqləndirilməlidir. Müəllim göstəricinin ucunu hər iki variantda eyni rəngdə olan işarənin üzərinə qoyaraq sinfə müraciət edir:

— Uşaqlar, siz hər iki dildə bu sözləri oxuya bilərsiniz. «N», «T», «A» hərflərini artıq tanıyırsınız. Bu gün isə «Rr» hərfini öyrəndiniz. Təlim dilində isə bütün hərfləri tanıyırsınız. [R] səsi hər iki dildə eyni işarə ilə yazılıb? (Xeyr/Bəli).

— Azərbaycan dilindəki bu işarə təlim dilində sizə tanışdır? Deyə bilərsinizmi, bu hərf təlim dilində hansısa səsin işarəsinə oxşayırmı? Cavablar dinlənilir və izahat verilir.

— Uşaqlar, görürsünüzmü bu hərfləri dolaşıq salmamaq üçün diqqətli olmaq, həmin hərfi çoxlu oxuyub yazmaq lazımdır. Gəlin içərisində [r] səsi olan hecaları birlikdə oxuyaq.

Müəllim şagirdlərin diqqətini dərslikdəki 4-cü çalışmaya cəlb edir. Hecalar birlikdə oxunur. Müəllim bəzi hallarda qəsdən ləngiyərək şagirdlərin hərfi tanıma bacarıqlarını müşahidə edir.

***II addım.*** Şagirdlərin sözdə [r] səsinin yerini müəyyənləşdirə bilmək bacarıqları üzrə oyun-yarış formasında aparılır. Qrupların keçən dərsdəki adları xatırladılır: **gəmi, məktəb, məktub, maral, şam, kələm**. Rəmzlər qruplara təqdim olunur. Müəllim şəkillərlə tanış olmaq üçün vaxt verir. Sonra şəklin nömrəsi deyilir, sözü bilən qrupun nümayəndəsi rəmzi şəkli qaldırır və cavab verir. Cavablar qrupun rəmzi yapışdırılmış cədvəldəki müvafiq xanada qeyd edilir. Lider və ya qrupun digər bir nümayəndəsi deyilən sözdə [r] səsinin sayını və yerini deyir. Çətinlik çəkdikdə müəllim istiqamət verir. Qalib qrup müəyyənləşdirilir. Oyun qurtardıqdan sonra sözlər xorla səsləndirilir.

Müzakirə sualları:

— **Radio** sözündə [r] səsi sözün hansı hissəsində işləndi? (Əvvəlində)

— **Ürək, qartal, armud** sözlərində sözün hansı hissəsində işləndi? (Ortada)

— Bəs **açar, tar, nar** sözlərində? (Sonda)

***III addım.*** Hecalardan sözlər düzəltmək üzrə iş cütlərlə aparılır. Müəllim bu məqsədlə hər hansı bir mətndən istifadə edir. İş vərəqləri və hecalar yazılmış kartoçkalar paylanır. Şagirdlərə çalışmanın şərti izah olunur. Uşaqlar hecaları kəsib iş vərəqlərində elə ardıcıllıqla yapışdırmalıdırlar ki, sözlər alınsın. Bunun üçün kitabdakı çalışmaya baxmaq lazım gəlir.

İş başa çatdıqdan sonra iş vərəqləri təqdim edilir. Nəticələr müzakirə olunur. Yanlışlıqlar düzəldilir. İçərisində [r] səsi olan hecalardan sözlər düzəldiyi müəyyənləşdirilir. Sözlər xorla oxunur: **Bura, Təranə, alma, Lalə** və s.

***IV addım:*** Şagirdlərin cümlə qurmaq bacarıqları dərslikdəki 8-ci çalışma əsasında inkişaf etdirilir. Şagirdlər şəkillərə baxaraq onları adlandırır və sözləri əlaqələndirərək cümlələr deyirlər. Cümlələrin (əmr və nəqli) düzgün intonasiya üzrə tələffüzünə diqqət yetirilir. Cümlələr: «1. **Təranə, narı tut!** 2. **Anar, tarı al!** 3. **Lalə narı tutur**. 4. **Anar tarı alır»** şəklində qurulmalıdır.

**Nəticə və ümumiləşdirmə:** Tədqiqat suallarında qoyulmuş məsələlər xatırladılır və cavablandırılır: Azərbaycan dilində [r] səsi sözün əvvəlində, ortasında və sonunda gələ bilir. [R] səsi Azərbaycan və tədris dillərində fərqli (eyni) işarə ilə yazılır.

Dərsin sonunda şagirdlər sözün müxtəlif hissəsində [r] səsinin işlənməsinə aid nümunələr deyir, içərisində [r] səsi olan sözlər hesabına lüğətlərini genişləndirir, içərisində [r] səsi olan hecalardan sözlər düzəldir və həmin sözlərdən istifadə etməklə cümlələr (dili bilənlər kiçik rabitəli mətnlər) qururlar.

**Yaradıcı tətbiqetmə, ev tapşırığı: Tar və ürək** şəkli çəkin. Həmin sözlərə aid cümlə qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [R] SƏSİ VƏ «R» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 19-cu dərsə baxın.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim lövhədəki şəkilləri nəzərdən keçirir və **«tar»** sözünə diqqəti cəlb edərək fonematik təhlil aparır.

— Uşaqlar, bu şəkli Azərbaycan dilində adlandırın. (Tar)
— Sözdə neçə səs eşidirsiniz? (Üç)
— Bu söz neçə hecadan ibarətdir? (Bir)
— Bu sözün sxemini qurmaq üçün neçə xana ayırmaq lazımdır? (Üç)

Müəllim lövhədə düzbucaqlı çəkərək onu üç hissəyə bölür.

— Uşaqlar, bu sözdə birinci hansı səs eşidilir? ([T] səsi)

Deməli, birinci xanaya hansı hərfi yazmalıyıq? Topludan həmin hərfin işarəsini tapıb göstərin. (Uşaqlar «T» hərfini göstərirlər və müəllim hərfi I xanaya yazır.

— Uşaqlar, ikinci xanaya hansı səsin işarəsi yazılmalıdır, həmin hərfi seçib göstərin. (Uşaqlar «A» hərfinin işarəsini göstərirlər)

— «Tar» sözü hansı səslə bitir? ([R] səsi ilə)
— Deyə bilərsinizmi, [r] səsi sait səsdir, yoxsa samit? (Samit səsdir)
— Uşaqlar, kim gəlib həmin hərfi boş xanaya yazar? (Şagirdlər fəallıq göstərirlər)

**Tədqiqat sualı:** — Uşaqlar, içərisində [R] səsi olan sözləri sürətlə oxumaq və dediklərimizi yaza bilmək üçün nə etməliyik? [R] səsi necə səsdir?

**Tədqiqatın aparılması:** ***I addım:*** Şagirdlərin ilkin yazı bacarıqlarının formalaşdırılması nümunə üzrə həyata keçirilir.

***II addım.*** Şagirdlərin içərisində [r] səsi olan hecalardan sözlər düzəltmək bacarıqlarının inkişafı və praktik yolla Azərbaycan dilində cəmlik anlayışı barədə təsəvvür yaratmaq məqsədilə başlanılır. Çalışma üzrə iş əvvəlcə şifahi formada aparılır. Uşaqlar şəkillərə baxır və nümunədə göstərildiyi kimi, şəkildə gördükləri əşyaları cəmdə adlandırırlar. Şifahi şəkildə tapşırığın icrası başa çatdıqdan sonra müəllim iş vərəqləri, şəkilləri əks etdirən sözlər və «-lar» şəkilçisi (lazımı miqdarda) yazılmış kartoçkaları paylayır. Müəllim tapşırığın şərtini izah edir:

— Şəkillərə baxın, sözləri və onun hissələrini nümunədə göstərildiyi kimi ardıcıllıqla yapışdırın.

Çalışmanın icrasına başlanılır. Uşaqlar sözləri və hecaları kəsib ayırırlar. Sonra nümunəyə baxaraq onu yapışdırırlar. İş başa çatdıqda iş vərəqləri təqdim edilir və nəticələr müzakirə olunur. İşin icrasında nöqsana yol verilmişsə, müzakirə edilir.

— Uşaqlar, birinci şəkildə neçə nar görürsünüz? (Bir nar)
— Bəs ikinci şəkildə? (Üç)
— Birinci şəkildə neçə at var? (Bir)
— Bəs ikinci şəkildə? (İki)

Müsahibə bu qayda ilə digər şəkillər üzrə də davam edir və müzakirə yekunlaşır:

— Uşaqlar, diqqət edin: Azərbaycan dilində əşyalar 1-dən çox olduqda sözlərə «-lar, -lər» hecası artırılır.

Oxuyaq: at-atlar, alma-almalar, tar-tarlar, nar-narlar.

***III addım:*** Şagirdlərin lüğətinin içərisində [r] səsi olan sözlər hesabına genişləndirilməsi və onlarda axtarıcılıq bacarığının formalaşdırılması istiqamətində iş aparılır. İş oyun-yarış formasında qruplarla icra olunur. Qruplar yenidən formalaşdırılır və yeni adlar seçilir. Adlar ötən dərsdə səsləndirilən sözlərdən **(qartal, qaranquş, ürək, arı, açar)** seçilir. Qrupların rəmzi — şəkillər təqdim olunur və qruplar yerlərini tuturlar. Oyunun şərtləri şagirdlərə əvvəlki dərslərdən tanışdır. Müəllim hecaları oxuyur, şagirdlər müəllimin ardınca təkrar edirlər. Hər bir hecada [r] səsinin yeri üzərində müəllim iş aparır. Sonra müəllim şəkillərlə tanış olmaq üçün qruplara vaxt verir və oyun başlanır. Müəllim hecaları aramla deyir, rəmzi-şəkli qaldıran qrup içərisində həmin heca olan sözü tapıb adlandırır, söz səhv deyildikdə qrup xal qazanmır və söz başqa qrupa verilir. Qrupun digər üzvləri həmin sözdə [r] səsinin sayını və yerini müəyyənləşdirməlidirlər. Əlavə misallar deyildikdə qrup əlavə xal qazanır. Cavablar lövhədə müvafiq cədvəldə əks olunur. Yarışın sonunda qalib qrup elan olunur və nəticələr müzakirə olunur. İçərisində müvafiq hecalar olan sözlər yenidən səsləndirilir.

***IV addım.*** Şagirdlərin ilkin oxu və tərcümə bacarıqlarının formalaşdırılması üzrə iş dərslikdəki 7-ci çalışma əsasında aparılır.

***V addım.*** Şagirdlərin cümlə qurmaq bacarıqları üzrə iş dərslikdəki 5-ci çalışma əsasında təşkil edilir. Dili praktik cəhətdən bilənlər kiçik həcmli rabitəli mətn qura bilərlər.

Müəllim şagirdlərdə sözün fonem tərkibinə həssas münasibət formalaşdırmaq məqsədi ilə şagirdləri şəkillər üzrə düşünməyə dəvət edir. Şagirdlər öz mülahizələrini bildirirlər. Müəllim şagirdlərin təsəvvürlərinə aydınlıq gətirir:

— Uşaqlar, şəkildə gördüyümüz əşyaların adlarını Azərbaycan dilində bilirsiniz. Həmin sözlərin bəzilərini oxuyub, yazmağı bacarırsınız, bəzilərinin isə müəyyən hərflərini hələlik keçməmisiniz.

Müəllim **«Anar»** sözü ilə **«nar»**, **«nar»** sözü ilə **«tar, şar»**, **«qələm»** sözü ilə **«kələm»** sözlərində səsin dəyişməsi ilə mənanın dəyişməsini şəkillər əsasında izah edir.

Sonra müəllim uşaqlara indi deyəcəyi tapmacanın cavabını tez tapmaq üçün diqqətli olmağı tövsiyə edir və bildirir ki, həmin sözdə də məhz [r] səsi işlənir.

*Bağda uçar səhər-səhər,*
*Verər bizə yazdan xəbər.* ***(Qaranquş)***

Uşaqlar fəallıq göstərirlər. Hərə öz variantını söyləyir. Cavab tapılmadıqda müəllim **qaranquş** şəklini göstərir. Şagirdlər sözü səsləndirirlər.

**Nəticə və ümumiləşdirmə:** Tədqiqat sualları yada salınır və dərs yekunlaşdırılır: [R] səsi samit səsdir. İçərisində [r] səsi olan sözləri sürətlə oxumaq və dediklərimizi yaza bilmək üçün «Rr» hərfinin yazılışını öyrənməliyik və oxuyarkən onu digər hərflərlə qarışdırmamalıyıq.

**Ev tapşırığı:** Evdə **qarpız** şəkli çəkin. Qarpızın əlamətlərini bildirən sözlər tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 21-ci və 22-ci DƏRSLƏR. (§11)

### MÖVZU: [İ] SƏSİ VƏ «İ» HƏRFİ, [I] SƏSİ VƏ «I» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.1.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; müşahidə etdiyi və şəkildə gördüyü əşyaları qruplaşdırır; şəkildə gördüklərini (çalışma 5) birinci şəxsin dili ilə təsvir edir; hərfləri, sözləri və cümlələri düzgün oxuyur; «Iı», «İi» hərflərini düzgün yazır; verilmiş cümlə nümunələrini düzgün yazır, verilmiş sözləri və söz birləşmələrini təlim dilinə tərcümə edir.

**İnteqrasiya:** A-d. 1.1.3, 3.2.1, X-d. 1.1.1, 1.1.2, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kiçik qruplarla, cütlərlə, kollektivlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu, yapışqan, kartoçka, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim löhvədən asılmış şəkilləri **(pişik, balıq, çətir, arı, bayraq, ələk, fil)** göstərərək həmin sözlərdən hansılarda [i], [ı] səslərinin eşidildiyini soruşur. Sonra həmin şəkilləri təlim dilində adlandırmağı təklif edir, bu sözlərdən hansılarda həmin səslərin olduğuna diqqəti yönəldir və müvafiq sözlər yazılmış plakatı asır.

— Uşaqlar, deyə bilərikmi, [i] və [ı] səsləri həm Azərbaycan, həm də təlim dilində var? (Təsdiq edilir)

Müəllim kəsmə əlifbada həmin səslərin çap işarələrini göstərir, lövhədə əlyazma nümunəsini yazır.

**Tədqiqat sualı:** [İ], [ı] necə səslərdir? Bu səslər sözün hansı hissələrində işlənə bilir? [İ], [ı] səsləri Azərbaycan və təlim dillərində eyni hərflə mi işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** Dərslikdəki 2-ci çalışma əsasında «Tap görək!» oyunu keçirilir. Oyunun qaydası əvvəlki dərslərdən şagirdlərə tanışdır. Qruplara əvvəlki dərsdə seçilmiş adlar saxlanılır. İş yekunlaşdıqda qalib qrup elan olunur və müzakirə başlanır.

***II addım:*** Şagirdlərin düzgün tələffüz bacarıqları üzrə iş dərslikdəki 4-cü çalışma əsasında təşkil edilir. Bu zaman həm də [i], [ı] səslərinin hecada yeri üzərində iş aparılır. Sonra həmin çalışma üzrə şagirdlərin diqqəti heca-sözlərə cəlb edilir və bu vasitə ilə həm də şagirdlərin lüğətinin genişləndirilməsinə imkan yaranır.

***III addım:*** Şagirdlərin oxu bacarıqları vasitəsilə formalaşdırılır.

***IV addım:*** Şagirdlərin diqqəti dərslikdəki 9-cu çalışmaya cəlb edilir, şəkillər əsasında söz birləşmələri düzəltmək bacarıqları üzrə iş aparılır.

**Nəticə və ümumiləşdirmə:** [İ] səsi sözün əvvəlində, ortasında, sonunda işlənə bilir. [I] səsi sözün ortasında və sonunda işlənir. Azərbaycan dilində «İi» və «Iı» hərfləri təlim dilindəki ilə fərqli (eyni) yazılır.

**Ev tapşırığı: Pişik** şəkli çəkin, içərisində [i] və [ı] səsləri olan 10 söz tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [İ] SƏSİ VƏ «İ» HƏRFİ, [I] SƏSİ VƏ «I» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Standart, təlim nəticələri, inteqrasiya, dərsin tipi, forması, üsulu, resurslarla bağlı 21-ci dərsə baxın.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** Qruplarla «Tap görək!» oyunu keçirilir. Hecalar tələffüz edilməklə həmin hecaların işləndiyi sözlər şəkil üzrə tapılır, həmin hecalarda və sözlərdə keçilən səslərin yeri üzərində əvvəlki dərsdə əldə edilmiş təsəvvürlər dərinləşdirilir.

***II addım:*** İş növü dəyişdirilir, şagirdlərin yazı bacarıqlarının formalaşdırılması həyata keçirilir.

***III addım:*** Cütlərlə iş paylanılmış kartoçkaların kəsilib yapışdırılması yolu ilə aparılır. Nəticələr müzakirə olunur.

***IV addım:*** Oxu bacarıqlarının təkmilləşdirilməsi dərslikdəki 7-ci və 8-ci çalışmalar əsasında davam etdirilir.

***V addım:*** Dərslikdəki 5-ci çalışma əsasında şagirdlərin yeni keçilən sözləri işlətməklə cümlə qurmaq bacarıqları inkişaf etdirilir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** «Xiyar» şəkli çəkin. Xiyarın əlamətlərini bildirən sözlər tapın, xiyar sözünə aid cümlələr qurun, onun faydası barədə öyrənin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 23-cü və 24-cü DƏRSLƏR. (§12)

## MÖVZU: [D] SƏSİ VƏ «D» HƏRFİ (1-ci və 2-ci SAAT)

**Standart:** 2.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir;

şəkildə gördüklərini (çalışma 5) birinci şəxsin dili ilə təsvir edir; «Dd» hərfini və verilmiş cümlə nümunələrini düzgün yazır; oxuduğu cümlələri təlim dilinə tərcümə edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur.

**İnteqrasiya:** A-d. 1.1.3, 3.2.1, X-d. 2.1.1, 2.2.4, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun, Venn diaqramı.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim lövhədən asılmış şəkilləri **(dəvə, divan, çamadan, dondurma, ördək, keçi, bıçaq)** Azərbaycan dilində adlandırmağı təklif edir, çətinlik olduqda kömək edir, sonra sinfə müraciət edir:

— Uşaqlar, bu sözlərin hamısında [d] səsi eşitdinizmi? (Xeyr)

— Hansı sözlərdə [d] səsi eşitdiniz, onları bir daha deyin.

Sözlər seçilib təkrar edilir.

Sonra müəllim həmin sözləri təlim dilində adlandırmağı təklif edir. Sözlər təlim dilində səslənir. Müəllim:

— Uşaqlar, bəs təlim dilində bu sözlərin hamısında [d] səsi eşitdinizmi? (Cavablar.)

— Hansı sözlərdə [d] səsi işlənmişdir?

İçərisində [d] səsi işlənən sözlər təkrar edilir.

— Uşaqlar, deyə bilərikmi ki, həm Azərbaycan, həm də təlim dillərində [d] səsi var. (Xorla təsdiq olunur)

Müəllim kəsmə əlifbada «Dd» hərfinin böyük və kiçik işarələrinin çap formasını göstərir, lövhədə əlyazma nümunəsini yazır və sinfə müraciət edir:

— Uşaqlar, həm Azərbaycan, həm də təlim dilində [d] səsini sözün müxtəlif hissələrində eşitdiniz. Əvvəl keçdiyimiz səslərin sözün müxtəlif hissələrində işlənməsini öyrənmisiniz. Yəqin maraqlanırsınız, bəs [d] səsi necə səsdir?

**Tədqiqat sualı:** Azərbaycan dilində [d] səsi sözün hansı hissələrində işlənə bilir? Azərbaycan və təlim dillərində [d] səsi eyni işarə ilə yazılır? [D] necə səsdir?

**Tədqiqatın aparılması:** ***I addım:*** Dərslikdəki 2-ci çalışma əsasında «Tap görək!» oyunu keçirilir. Qrupların formalaşdırılması mexanizmi əvvəlki dərslərdən məlumdur. Qrupun lideri təklif olunan şəkli adlandırır, digər üzvü həmin sözdə səsin yerini və sayını müəyyənləşdirir. Hansı qrupun lideri sözü tapmadıqda həmin şəkli adlandırmaq digər qrupun liderinə təklif edilir. Oyun yekunlaşdıqda lövhədəki cədvəlin köməyi ilə qalib qrup müəyyənləşir.

Sonra dərslikdəki 3-cü çalışma əsasında «Kim daha çox...» yarışı keçirilir.

Dərsin 2-ci saatında İş dəftərindəki 6-cı və 2-ci çalışma əsasında şagirdlərin [d] səsi ilə bağlı təsəvvürlərinin genişləndirilməsi və axtarıcılığa qoşulmaları məqsədilə «Tap görək!» oyunu və «Kim daha çox...» yarışı qruplarla aparılır.

***II addım:*** [D] səsinin hecada yeri və tələffüzü üzrə dərslikdəki 4-cü çalışma əsasında iş aparılır, müvafiq bacarıqlar formalaşdırılır. Bu tapşırıq şagirdlərin lüğətinin genişləndirilməsinə və axtarıcılığa imkan yaradır.

***III addım:*** Şagirdlərin oxu bacarıqlarının formalaşdırılması üzrə işə keçilir. Bu məqsədlə dərslikdəki 6-cı çalışmadan istifadə olunur. Bu zaman həm də şagirdlərin ilkin tərcümə bacarıqlarının formalaşdırılmasına da diqqət yetirilir.

Dərsin 2-ci saatında şagirdlərin oxu bacarıqlarının təkmilləşdirilməsi və inkişafı həyata keçirilir.

***IV addım:*** Şagirdlərin içərisində [d] səsi olan sözlərdən istifadə etməklə cümlələr (dili praktik cəhətdən bilənlər kiçik rabitəli mətn) qurmaq bacarıqlarının inkişafı dərslikdəki 5-ci çalışmanın köməyi ilə reallaşdırılır.

Dərsin 2-ci saatında da bu iş davam etdirilir.

***V addım:*** Müsahibə yolu ilə Azərbaycan dilindəki [d] səsinin samit səs olması barədə təsəvvür təlim dili ilə əlaqədə genişləndirilir.

**Nəticə və ümumiləşdirmə:** [D] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və təlim dillərində «Dd» hərfinin böyük və kiçik şəkillərinin yazılışı göstərilir və təlim dilindəki müvafiq hərflərin yazılışı ilə oxşarlıq və ya fərqin olub-olmadığına diqqət yetirilir. [D] samit səsdir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Armud şəkli çəkin. Armud sözünə aid əlamət bildirən sözlər tapın(şirin armud və s.). Dərsin 2-ci saatında evə söz birləşmələri tərtib etmək tapşırılır.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 25-ci DƏRS. (§13)

### MÖVZU: [K], [K’] SƏSİ VƏ «K» HƏRFİ

**Standart:** 1.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.2.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; hərfləri, sözləri və cümlələri düzgün oxuyur; verilmiş cümlə nümunələrini düzgün yazır; şəkildə gördüklərini (çalışma 5) birinci şəxsin dili ilə təsvir edir; söz birləşmələrini və oxuduğu cümlələri təlim dilinə tərcümə edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur.

**İnteqrasiya:** A-d. 1.1.3, 3.1, 3.2.1, 3.2.2, X-d. 1.1.1, 2.1.1, 2.2.4, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Bütün siniflə, kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, diskussiya, müzakirə, oyun.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu və oyuncaqlar.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim lövhədən içərisində [k], [k’] səsləri işlənən və işlənməyən əşyaların şəkillərini (**kəpənək, traktor, qaşıq, yarpaq, iynə** və s.) asır.

Şagirdlər şəkilləri adlandırırlar, çətinlik olduqda müəllim kömək edir. Müəllim həmin sözlərdə [k], [k’] səslərinin işlənməsinə diqqəti cəlb edir:

— Uşaqlar, bu sözlərin hamısında [k], [k’] səsləri eşidilirmi? (Hər səs üzərində ayrıca iş aparmaq tövsiyə olunur). Uşaqlar yalnız **traktor** və **kəpənək** sözlərində bu səsləri eşitdiklərini bildirirlər. Müəllim həmin şəkilləri təlim dilində adlandırmağı təklif edir. Uşaqlar sözləri səsləndirirlər.

Müəllim sinfə müraciət edir:

— Uşaqlar, bəs həmin sözlərdə necə, [k], [k’] səsləri eşidilirmi?

Sözlərdən bəzilərində [k’] səsi eşidildiyi müsahibə yolu ilə müəyyənləşdirilir.

Müəllim [k], [k’] səslərini bildirən hərfi kəsmə əlifbada və ya dərslikdən göstərir, əlyazması nümunəsini lövhədə yazır.

— Uşaqlar, təlim dilində bu hərf sizə tanışdırmı? (Cavablar dinlənilir)

**Tədqiqat sualı:** [K], [k'] səsləri Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Azərbaycan və təlim dillərində bu səslər eyni hərflə mi işarə olunur? [K], [k'] necə səslərdir?

**Tədqiqatın aparılması:** ***I addım:*** [K], [k'] səslərinin sözdə yeri və tələffüzü üzərində işə «Sehirli torba» oyunu ilə başlanır. Sinif kiçik qruplara bölünür.Oyunun qaydası şagirdlərə məlumdur. Torbaya dərslikdəki 2-ci çalışmada şəkli verilmiş əşyaların mulyajı və ya oyuncaqlar qoyulur.Oyunun nəticəsi lövhədəki cədvəldə öz əksini tapır.Qalib qrup müəyyənləşir və rəğbətləndirilir(ətraflı bax: §1-10). Sonra müəllim şagirdlərin diqqətini dərslikdəki 2-ci çalışmaya cəlb edir, şəkillər bir daha xorla adlandırılır.

Bu iş «Tap görək ..» oyunu vasitəsilə (səsin heca daxilindəki yeri və hecalardan sözlər düzəltmək) də aparıla bilər.

***II addım:*** [K], [k'] səslərinin heca daxilində tələffüzü üzrə iş dərslikdəki 4-cü çalışma üzrə aparılır.Dili praktik cəhətdən bilənlər çalışmadakı heca-sözləri tapır, mənalarını təlim dilində deyirlər.

***III addım:*** [K], [k'] səslərinin hərflə ifadəsi — «Kk» hərfinin yazılışı üzərində iş aparılır.

***IV addım:*** Şagirdlərdə keçilən hərflə bağlı ilkin oxu bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsi, eyni zamanda, tərcümə bacarıqlarının formalaşdırılması üzrə işlər dərslikdəki 6,7-ci çalışmalar vasitəsilə həyata keçirilir.

***V addım:*** Şagirdlərdə cəmlik anlayışı barədə təsəvvür yaradılır. Şagirdlər iki sayından istifadə etməklə müəllimin köməyi ilə söz birləşmələri düzəldirlər və dərslikdəki 8-ci çalışma vasitəsilə bu təsəvvür (–lar, –lər şəkilçisindən istifadə) dərinləşdirilir.

Şagirdlərin cümlə qurmaq bacarıqları üzrə iş dərslikdəki 7-ci (ahəng qanunu gözlənilməklə xəbərlik şəkilçilərinin artırılması) və 5-ci çalışmalar vasitəsilə davam etdirilir.

**Nəticə və ümumiləşdirmə:** [K], [k'] səsləri Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və təlim dillərində bu səslər eyni (fərqli) hərflə «Kk» — «...« yazılır.

**Ev tapşırığı:** İçərisində [k], [k'] səsləri işlənən 10 söz tapın, **kəpənək** şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 26-cı DƏRS. (§14)

### MÖVZU: [O] SƏSİ VƏ «O» HƏRFİ

**Standart:** 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.2.

**Təlim nəticələri:** Şagird şəkildə gördüklərini (çalışma 5) birinci şəxsin dili ilə təsvir edir; hərfləri, sözləri və cümlələri düzgün oxuyur; verilmiş cümlə nümunələrini düzgün yazır; oxuduğu cümlələri təlim dilinə tərcümə edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur.

**İnteqrasiya:** A-d. 1.1.3, 3.2.1, H-b. 3.2.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən **palto, avtobus, stol, limon** şəkilləri asılır və müəllim həmin şəkilləri adlandırmağı təklif edir. Sözlər səsləndirilir.

— Uşaqlar, bu sözlərin hamısında [o] səsini eşitdinizmi? (Bəli)

— Həmin əşyaları təlim dilində adlandırın. (Sözlər səsləndirilir)

— Uşaqlar, bu sözlərdə də [o] səsi işlənirmi? (Bəli/Xeyr)

Müəllim [o] səsini ifadə edən hərfin çap şəklini kəsmə əlifbada göstərir, hüsnxət nümunəsini lövhədə yazır.

— Uşaqlar, deyə bilərikmi ki, həm təlim, həm də Azərbaycan dilində [o] səsi var? (Təsdiq edilir)

— Uşaqlar, deyə bilərsinizmi, təlim dilində [o] necə səsdir, sait, yoxsa samit? (Sait səsdir)

— [O] səsi təlim dilində sözün hansı hissəsində işlənir? (Şagirdlər sözün əvvəlində, ortasında, sonunda işlənməsinə aid misallarla fikirlərini əsaslandırırlar)

**Tədqiqat sualı:** [O] səsi Azərbaycan dilində daha çox sözün hansı hissəsində işlənir? Azərbaycan və təlim dillərində [o] səsi eyni hərfləmi yazılır? [O] necə səsdir?

**Tədqiqatın aparılması:** ***I addım:*** [O] səsinin tələffüzü və sözdə yeri üzərində iş dərslikdəki 2-ci çalışma əsasında təşkil edilir. Şagirdlər şəkilləri adlandırır və müəllimin köməyi ilə [o] səsinin sözün hansı hissəsində işləndiyini müəyyənləşdirirlər. Dili praktik cəhətdən bilənlər həmin çalışmadakı heca - sözləri tapır və mənasını izah edirlər. Bu yolla, eyni zamanda, şagirdlərin lüğəti genişlənir. Bu zaman [o] səsinin heca düzəltdiyi və ona görə də sait səs olduğuna da diqqət cəlb edilir.

***II addım:*** Şagirdlərin [o] səsi ilə bağlı oxu bacarıqlarının formalaşdırılmasına keçilir. Bu məqsədlə dərslikdəki müxtəlif aspektli 6, 7, 9-cu çalışmaların mətnlərindən istifadə olunmalıdır. Bu çalışmaların icrası zamanı, eyni zamanda, şagirdlərin rabitəli nitqlərinin inkişafı istiqaməti də unudulmamalıdır.

***III addım:*** Şagirdlərin «Oo» hərfinin yazılışı üzrə bacarıqları təkmilləşdirilir. Çünki uşaqlar artıq bu hərfin elementlərini yaza bilirlər, ona görə də onun yazılışının mənimsənilməsi çətinlik törətmir.

***IV addım:*** Şagirdlərin axtarıcılığa qoşulmasını təmin etmək və [o] səsinin işləndiyi hecalardan sözlər düzəldə bilmək bacarıqlarını inkişaf etdirmək üçün şəkillər əsasında «Tap görək!» oyunu təşkil edilir. Oyunun şərtləri əvvəlki dərslərdən şagirdlərə məlumdur. Oyun başa çatdıqda qalib qrup müəyyənləşir və elan olunur.

***V addım:*** Müəllim şagirdlərin lüğətinin genişləndirilməsi və dəqiqləşdirilməsi üzrə işi sözlər üzərində qurur və dərslikdəki 5-ci, 2-ci çalışmalar hesabına zənginləşdirilməsi yollarını göstərir.

***VI addım:*** Şagirdlərin cümlə qurmaq və danışmaq bacarıqlarının inkişafı dərslikdəki 5-ci çalışma vasitəsilə həyata keçirilir.

**Nəticə və ümumiləşdirmə:** [O] səsi Azərbaycan dilində daha çox sözün əvvəlində və ortasında işlənir, ancaq sözün sonunda da işlənə bilir. [O] səsi sait səsdir. Azərbaycan və təlim dillərində bu səs eyni (fərqli) hərflə — «Oo» — « ...» (təlim dilindəki müvafiq hərfi işarə) yazılır.

**Ev tapşırığı: Toyuq** şəkli çəkin. İçərisində [o] səsi işlənən sözlər işlətməklə kiçik dialoq qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 27-ci və 28-ci DƏRSLƏR. (§15)

### MÖVZU: [G] SƏSİ VƏ «G» HƏRFİ (1-ci SAAT)

**Standart:** 2.1.1.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; kiçikhəcmli sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; hərfləri, sözləri və

cümlələri düzgün oxuyur; «Gg» hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır; şəkildə gördüklərini (çalışma 5) birinci şəxsin dili ilə təsvir edir; oxuduğu cümlələri təlim dilinə tərcümə edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, 3.2.1, 3.2.2, Riy. 1.1.1, T-i. 2.2.2
**Dərsin tipi**: İnduktiv.
**Dərsin forması:** Kollektivlə, qruplarla iş.
**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun-yarış.
**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu.
**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən **gilas, pələng, qoyun, tülkü, göz** şəkilləri asılır. Müəllim şəkilləri göstərərək onları adlandırmağı təklif edir. Şagirdlər fəallıq göstərirlər. Müəllim həmin sözlərdən hansında [g] səsi eşidildiyinə diqqəti cəlb etmək üçün sözləri bir daha təkrar edir və sinfə müraciət edir:

— Uşaqlar, bu sözlərin hansında [g] səsi eşidirsiniz? (**Göz, gilas, pələng** sözləri səsləndirilir)

— Uşaqlar, hər üç sözdə [g] səsi sözün əvvəlində gəlir? (Xeyr)

Müəllim həmin sözləri təlim dilində adlandırmağı təklif edir. Sözlər deyilir. Müəllim sinfə müraciət edir:

— Uşaqlar, təlim dilində bu səsi eşitmisiniz? (Uşaqlar bir qədər düşünürlər)

Müəllim kəsmə əlifbada «Gg» hərfinin çap formasını və əlyazma nümunəsini lövhədə yazaraq göstərir.

— Uşaqlar, təlim dilində bu hərf sizə tanışdırmı?

**Tədqiqat sualı:** [G] səsi Azərbaycan dilində sözün hansı hissəsində gəlir? Təlim dilində bu səs və onu ifadə edən hərf varmı? [G] necə səsdir?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim [g] səsinin tələffüzü üzərində işi əvvəlcə dərslikdəki 3-cü çalışma əsasında aparır. Azərbaycan dilində bu səs spesifik olduğu üçün onun tələffüzü üzrə müvafiq bacarıqların formalaşdırılması daha çox diqqət tələb edir. Müəllim əvvəlcə hecaları özü aydın tələffüz edir, sonra şagirdlər müəllimlə birgə həmin hecaları təkrar edirlər. Səsin hecada yeri üzərində fonematik təhlil aparılır. Sonra dərslikdəki 2-ci çalışmanın icrasına başlanılır. Bu iş əvvəlki dərslərdə olduğu kimi, oyun («Tap görək!») formasında aparılır. Bu oyun müəllimlərə və şagirdlərə tanışdır. Lövhədəki cədvəldə oyunun nəticəsi əksini tapır, qalib elan olunur və müzakirə başlanır.

***II addım:*** [G] səsi ilə bağlı oxu bacarığının formalaşdırılması işinə keçilir. Bu məqsədlə dərslikdəki 6,7,8-ci çalışmalardan, xüsusilə 6-cı çalışmadan istifadə olunur.

***III addım:*** Şagirdlərin lüğətinin genişləndirilməsi və dəqiqləşdirilməsinə keçilir. Dərsliyin əvvəlində verilmiş sözlərə diqqət cəlb edilir.

***IV addım:*** Lüğət üzərində iş cümlə qurmaq və danışmaq üzrə işlərlə əlaqələndirilir. Dərslikdəki 5-ci çalışmadakı şəkil üzrə cümlələr qurulur. Dili bilənlərlə kiçik mətn tərtibi üzrə iş aparmaq da olar.

**Nəticə və ümumiləşdirmə:** [G] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənə bilir. [G] səsi və onu ifadə edən hərf təlim dilində yoxdur. [G] səsi «Gg» hərfi ilə işarə olunur. Şagirdlər “Gg” hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır, sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qururlar.

**Ev tapşırığı: Göbələk** şəkli çəkin. İçərisində [g] səsi olan sözlər tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

### MÖVZU: [G] SƏSİ VƏ «G» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 27-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [G] səsi ilə bağlı şagirdlərin düzgün tələffüz bacarıqlarının təkmilləşdirilməsi və inkişafı üzrə işlər davam etdirilir. «Kim daha çox…» yarışı keçirilir. Oyun- yarış 3-4 nəfərlik qruplarla aparılır. Oyunun qaydası şagirdlərə məlumdur. Müəllimlər əvvəlki dərslərə baxa bilərlər. Bu oyun həm də şagirdlərin lüğətinin genişlənməsinə imkan yaradır. Oxunan heca üzrə hansı qrup daha çox söz tapsa, həmin qrup qalib elan olunur. Nəticələr lövhədəki cədvəldə əks olunur.

***II addım:*** Şagirdlərin «Gg» hərfi ilə bağlı yazı bacarıqlarının formalaşdırılması işi aparılır. Lazım gələrsə, müəllim metodik kömək göstərir.

***III addım:*** Şagirdlərin oxu bacarıqları inkişaf etdirilir, təkmilləşdirilir. Bu məqsədlə dərslikdəki 7, 8-ci çalışmalardan istifadə olunmalıdır. Oxu prosesində həmçinin tərcümə bacarıqlarının formalaşdırılmasına da diqqət yetirilir.

***IV addım:*** Şagirdlərin danışma və cümlə qurma bacarıqlarının inkişafı izlənilir. Bunun üçün oxu materialları kimi istifadə olunan 7-ci (dərslik) çalışmalarda şəxsə görə uzlaşmaya diqqət artırılır, dərslikdəki 8-ci çalışmadan intonasiya üzrə təsəvvürün formalaşdırılması məqsədilə istifadə olunur.

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər “Gg” hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır, oxuduqları cümlələri təlim dilinə və əksinə tərcümə edir, sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qururlar.

**Ev tapşırığı:** Yeni öyrəndiyiniz sözlərə aid cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 29-cu və 30-cu DƏRSLƏR. (§16)

### MÖVZU: [Y] SƏSİ VƏ «Y» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.1.2.; 2.2.1; 3.1.1.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; kiçikhəcmli sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; hərfləri, sözləri və cümlələri düzgün oxuyur; «Yy» hərfini və sözləri, həmçinin verilmiş söz birləşməsi və cümlə nümunələrini düzgün yazır; oxuduğu cümlələri təlim dilinə tərcümə edir.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, 3.2.1, H-b. 3.2.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu.

**Dərsin gedişi**

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim şagirdlərin diqqətini lövhədən asılmış plakata cəlb edir, yazılmış şeir parçasını oxumalarını tövsiyə edir. Plakatda «Yy» hərfi fərqli rəngdə verilmişdir. Uşaqlar şeir parçasını oxumaqda çətinlik çəkirlər, çünki elə birinci sözdə keçmədikləri hərflərlə qarşılaşırlar. Bu zaman müəllim fərqli rənglə verilmiş hərfləri göstərərək sinfə müraciət edir:

— Uşaqlar, təlim dilində siz bu hərfi tanıyırsınız? Cavablar səslənir

Müəllim:

— Mən indi bu şeir parçasını oxuyacağam, diqqətli olun, hansı səsi daha çox eşitsəniz, bu hərf həmin səsin işarəsidir.

***Göydəki göy buludlar***
***Yorğanıdır çobanın.***

***Yastı-yastı təpələr***
***Yastığıdır çobanın.***

***Yumru-yumru qayalar***
***Yumruğudur çobanın...***

— İndi deyə bilərsinizmi, hansı səsi daha çox eşitdiniz? ([Y] səsini)

— I misrada [y] səsi sözün hansı hissəsində işlənib? (Ortada və sonda)

— Bəs sonrakı misralar hansı səslə başlanır? ([Y] səsi ilə )

Müəllim [y] səsinin çap şəklini göstərir və əlyazma nümunəsini lövhədə yazır. Təlim dili ilə əlaqə yaradılır.

**Tədqiqat sualı:** [Y] səsi necə səsdir? Sözün hansı hissələrində işlənə bilir? Azərbaycan və təlim dillərində [y] səsi eyni hərfləmi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Dərslikdəki 4-cü çalışma üzrə [y] səsinin tələffüzü formalaşdırılır. Çalışmadakı hecalarda bütün səslər keçildiyindən şagirdlər müəllimlə birgə hecaları oxuyaraq tələffüz edirlər. Lazım gəldikdə müəllim şagirdlərin müstəqil oxusunu izləyir. ***II addım:*** Şagirdlərin lüğətinin içərisində [y] səsi olan sözlər hesabına genişləndirilməsi və dəqiqləşdirilməsi üzrə işə keçilir. Bu məqsədlə paraqrafın əvvəlində verilmiş sözlərlə şagirdlər tanış edilir, sonra dərslikdəki 2-ci çalışma əsasında lüğət üzrə iş davam etdirilir.

***III addım:*** Şagirdlərin oxu bacarıqlarının formalaşdırılması üzrə iş dərslikdəki 6-cı çalışma əsasında aparılır. Mətnin oxusu zamanı interferensiyanın qarşısını almaq üçün diqqətli olmaq, [y] səsinin işarəsi olan hərfi təlim dilindəki «oxşar» hərflə qarışıq salmamaq tövsiyə olunur və izlənilir.

***IV addım:*** Şagirdlərin cümlə qurmaq və danışmaq bacarıqlarının formalaşdırılması üçün dərslikdəki 7-ci, 5-ci çalışmalardan istifadə edilməlidir.

Dərslikdəki nitq etiketi və ondan istifadə məqamları barədə də təsəvvür yaradılmalıdır.

**Nəticə və ümumiləşdirmə:** [Y] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. [Y] səsi Azərbaycan və təlim dillərində fərqli (eyni) hərflərlə yazılır.

**Yaradıcı tətbiqetmə, ev tapşırığı:** Köynək şəkli çəkin. [Y] səsi ilə başlanan 10 söz tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Y] SƏSİ VƏ «Y» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 29-cu dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** Şagirdlərin [y] səsinin işləndiyi hecalardan sözlər düzəldə bilmək bacarığı dərslikdəki 8-ci çalışma vasitəsilə inkişaf etdirilir. Bu çalışma vasitəsilə şagirdlər axtarıcılığa həvəsləndirilir. Şagirdlər içərisində verilmiş hecalar olan daha çox söz tapmağa cəhd edirlər. Bu iş, eyni zamanda, şagirdlərin lüğətinin genişləndirilməsinə də imkan yaradır.

***II addım:*** «Yy» hərfinin yazılışı üzrə iş aparılır.

***III addım:*** Cümlə qurmaq və danışmaq bacarıqlarının inkişafı istiqamətində əvvəlki dərsdə başlanmış iş dərslikdəki 10-cu çalışma vasitəsilə davam etdirilir. Bu zaman içərisində [y] səsi işlənən sözlərdən istifadə edilməsinə diqqət yetirilir.

***IV addım:*** Oxu bacarıqlarının təkmilləşdirilməsi işi cümlə qurmaqla əlaqələndirilir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Hər hansı bir parça üzərinə düymə tikin. Yeni öyrəndiyiniz sözlərə aid cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 31-ci və 32-ci DƏRSLƏR. (§17)

### MÖVZU: [Z] SƏSİ VƏ «Z» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.2.3.; 3.1.1.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; kiçikhəcmli sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; hərfləri, sözləri və cümlələri düzgün oxuyur; «Zz» hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır; oxuduğu cümlələri təlim dilinə tərcümə edir.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, X-d. 1.1.1, 2.2.4, Riy. 1.1.1, T-i. 2.2.2

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, cütlərlə, kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən asılmış plakatda bir neçə tapmaca yazılıb. Tapmacalarda [z] hərfi fərqli rəngdə şriftlə verilir:

*Uzun-uzun uzanar,*
*Özünə köynək qazanar.* ***(Oxlov)***

*Odda yanmaz, suda batmaz,*
*Yayda ölər, qışda gələr.* ***(Buz)***

Müəllim I tapmacanı səsləndirir:

— Uşaqlar, kim deyər bu tapmacada [u] səsindən başqa, daha hansı səs daha çox eşidilir? Siz bu tapmacanın cavabını bilirsiniz, bu tapmacanı [u] səsi keçilərkən söyləmişdik.

Uşaqlar [z] səsinin çox eşidildiyini söyləyirlər. Müəllim II tapmacanı səsləndirir, bu tapmacanın cavabında [z] səsi işləndiyini bildirir. Uşaqlar fikirləşirlər.

Müəllim lövhədən asılmış **göz, güzgü, ulduz** şəkillərini göstərərək Azərbaycan, sonra isə təlim dilində adlandırmağı təklif edir, təlim dili ilə əlaqə yaradır. Təlim dilində də [z] səsinin olduğu əyani şəkildə təsdiq olunur.

**Tədqiqat sualı:** [Z] səsi Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Azərbaycan və təlim dillərində [z] səsi eyni hərflə mi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim əvvəlcə mövzunun əvvəlində verilmiş yeni sözləri səsləndirir, uşaqların səsin tələffüzündə çətinlik çəkməyəcəklərini nəzərə alaraq dərslikdəki 3-cü çalışmanın icrasına keçir. Şagirdlər hecaları oxuyaraq [z] səsinin hecada yerini izləyirlər. [Z] səsinin hecanın əvvəlində, sonunda işləndiyinə diqqət yetirilir. Müəllim təlim dilində [z] səsinin sait, yoxsa samit səs olması ilə bağlı müsahibə aparır və Azərbaycan dilində də bu səsin samit səs olduğu anlaşılır.

***II addım:*** Şagirdlərin lüğətinin yeni sözlər hesabına genişləndirilməsi məqsədilə dərslikdəki 2-ci çalışma üzrə işə keçilir. Müəllim şəkilləri adlandırmağı təklif edir. Sonra həmin çalışmanın II hissəsi üzrə iş cütlərlə davam etdirilir. İş vərəqləri paylanır. Şagirdlər şəkilləri ardıcıllıqla nömrələyir və iş vərəqlərində həmin nömrəni müvafiq xanada yazırlar. Bu iş forması da əvvəlki dərslərdən şagirdlərə məlumdur. Nəticələr müzakirə olunur, yanlışlıqlar düzəldilir.

***III addım:*** Oxu bacarıqlarının formalaşdırılması dərslikdəki 6-cı çalışma əsasında həyata keçirilir. Müəllim sinfin səviyyəsi imkan verdikdə bu məqsədlə dialoqun oxusu üzrə də (dərslikdəki 9-cu çalışma) iş apara bilər.

***IV addım:*** Şagirdlərin cümlə qurmaq və danışmaq bacarıqları üzrə işin dərslikdəki 7-ci və 5-ci çalışmalar əsasında təşkil edilməsi tövsiyə olunur. Bu zaman şəxsə görə uzlaşmaya (çalışma 7) xüsusi diqqət yetirilməlidir.

**Nəticə və ümumiləşdirmə:** [Z] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və təlim dillərində olan [z] səsi fərqli (eyni) hərflərlə yazılır.

**Ev tapşırığı:** Üzüm şəkli çəkin. Dərslikdəki 9-cu çalışmaya uyğun dialoq qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Z] SƏSİ VƏ «Z» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 31-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [Z] səsinin heca və söz daxilində tələffüzü, hecalardan sözlər düzəltmək bacarıqları üzrə işlər təşkil edilir. Bu iş şagirdlərin lüğətinin genişləndirilməsi və dəqiqləşdirilməsi ilə əlaqələndirilir. Dərslikdəki 8-ci çalışmadan da bu məqsədlə istifadə etmək olar.

***II addım:*** «Zz» hərfinin yazılışı üzrə bacarıqların formalaşdırılması işi həyata keçirilir.

***III addım:*** Şagirdlərin lüğəti üzərində iş cümlə qurmaq bacarıqları ilə əlaqəli aparılır. Bu məqsədlə əvvəlcə yeni sözlərin oxusu təşkil olunur, dərslikdəki 3-cü çalışmadakı heca-sözlərə baxmaq tövsiyə olunur, şəkillər adlandırılır.

***IV addım:*** Bu dərsdə şagirdlərin cümlə qurmaq bacarıqları yazı bacarıqları ilə əlaqəli inkişaf etdirilir. Tərcümə bacarıqlarının formalaşdırılması və anlama üzrə iş aparılır.

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər "Zz" hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır, içərisində "Zz" hərfi olan sözləri və cümlələri düzgün oxuyur, oxuduqları mətnin məzmununa aid suallar tərtib edirlər.

**Ev tapşırığı:** Cümlələr qurun. **Göz** şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 33-cü və 34-cü DƏRSLƏR. (§18)

### MÖVZU: [X] SƏSİ VƏ «X» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 2.2.1.; 3.1.1.; 3.1.3.; 4.1.2.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; hecaları və şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; hərfləri, sözləri və cümlələri düzgün oxuyur; verilmiş cümlə nümunələrini düzgün yazır; oxuduğu cümlələri təlim dilinə tərcümə edir.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, X-d. 1.1.1, 2.2.4, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, cütlərlə, qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, diskussiya, müzakirə.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədən **xiyar, xəritə** və **xurma** şəkilləri asılır və onların üstündən həmin əşyaları adlandıran sözlər **("○iyar-xiyar", «○urma-xurma", «○əritə-xəritə")** yazılmış plakatlar asılır. Plakatlarda «X» hərfi və dairə göy rəngdə verilir.

Müəllim plakatlarda yazılmış sözləri oxumağı təklif edir, yardımçı sual verir:

— Uşaqlar, göy dairələr sait, yoxsa samit səsləri göstərir? (Samit səsləri)

— Uşaqlar, siz bu şəkilləri gördükdə həmin sözləri asanlıqla oxuya biləcəksiniz. Çünki qalan bütün hərfləri tanıyırsınız. Müəllim şəkillərin üstünü açır və şəkilləri adlandırmağı təklif edir. Şəkillər adlandırılır.

— Uşaqlar, bu sözlər hansı səslə başlayır? ([X] səsi ilə)

— Uşaqlar, təlim dilində də bu səs varmı? (Bəli)

Müəllim yenidən plakatı göstərir. Şagirdlər sözləri oxumağa səy göstərirlər. Müəllim «Xx» hərfinin lövhədə çap formasını göstərir, əlyazma nümunəsini yazır.

— Uşaqlar, təlim dilindən bu hərf sizə tanışdırmı?

**Tədqiqat sualı:** [X] səsi Azərbaycan dilində sözün hansı hissəsində işlənə bilir? Azərbaycan və təlim dillərində [x] səsi eyni hərflə mi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Təlim dilində [x] səsi olsa da, bu səsin düzgün tələffüzünün formalaşdırılması ciddi çətinlik törədir. Bunu nəzərə alaraq müəllim [x] səsinin tələffüzü üzərində işə xüsusi diqqət yetirməlidir.

Dərslikdəki 3-cü çalışmadakı hecaların tələffüzü müəllimlə birgə aparılır. Lazım gəldikdə düzəlişlər edilir. Sonra müəllim dərslikdəki 7-ci çalışmanın şərtini səsləndirir və şagirdlər axtarışa qoşulurlar, müxtəlif adlar səsləndirilir.

***II addım:*** Lügət üzrə işə keçilir. Müəllim paraqrafın əvvəlində verilmiş sözləri səsləndirir və uşaqları onunla birgə oxumağa dəvət edir. Bu iş dərslikdəki 2-ci çalışma üzərində davam etdirilir. Çalışmanın 2-ci hissəsi sözdə səsin yeri və sayının müəyyənləşdirilməsinə həsr olunur. Bu iş cütlərlə aparılır. İş vərəqlərində müvafiq qeydiyyat aparılır. Təqdimatın nəticələri müzakirə edilir. Bu çalışmadakı şəkillər əsasında həm də qruplaşdırmaqla sadalama üzrə işin aparılması tövsiyə olunur.

***III addım:*** Oxu bacarığının formalaşdırılması dərslikdəki 6-cı çalışma üzrə təşkil edilir. Bu zaman tərcümə bacarıqlarının formalaşdırılması istiqaməti qabarıqlaşdırılır. Oxu bacarığının formalaşdırılması uşaqları dərslikdəki atalar sözü və etiketlərlə tanış etməyə imkan verir.

***IV addım.*** Söz birləşmələri və cümlə qurmaq, danışmaq bacarıqlarının formalaşdırılması məqsədilə oxu təşkil olunur. Şəxsə görə uzlaşmaya diqqət cəlb edilir və bu iş dərslikdəki

iş dərslikdəki 5-ci çalışma ilə davam etdirilir. Şagirdlər içərisində [x] səsi olan sözlərdən istifadə edərək şəkil üzrə cümlələr qururlar. Dili bilənlər kiçik rabitəli mətn tərtib edə bilərlər.

**Nəticə və ümumiləşdirmə:** [X] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və təlim dillərində [x] səsi eyni (fərqli) hərflə yazılır. [X] samit səsdir.

**Ev tapşırığı:** İçərisində [x] səsi olan yer adları tapın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [X] SƏSİ VƏ «X» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 33-cü dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** Tələffüz üzərində iş davam etdirilir.

***II addım:*** «Xx» hərfinin yazılışı ilə bağlı müvafiq bacarıqların formalaşdırılması izlənilir. Hərfin yazılışı uşaqlara bəlli olduğundan çətinlik yaranmır.

***III addım.*** Bu dərsdə daha çox tələffüz və cümlə qurmaq bacarıqlarının inkişafı, təkmilləşdirilməsi diqqət mərkəzində saxlanmalıdır. Dərslikdə bu bacarıqların formalaşdırılmasına imkan verən çalışmalar kifayət qədərdir. Müəllim iş növlərini bir-biri ilə əlaqələndirərək qarşıya qoyduğu məqsədin reallaşmasına çalışmalıdır. Dərslikdəki 8-ci çalışmadan bu məqsədlə istifadə olunmalıdır. Dərsliyin müxtəlif çalışmalarında dilin qrammatik quruluşunun praktik yolla mənimsədilməsini təmin etmək üçün hazır nitq modelləri verilir. Cümlə qurmaq bacarıqlarının inkişafı üzrə işlərdə bu imkandan da istifadə unudulmamalıdır. Xüsusilə 10-cu çalışma üzərində iş şagirdlərin dilin qrammatik quruluşunu mənimsəməyə başladıqlarını nümayiş etdirməyə imkan verir. Şəxsə görə uzlaşmaya düzgün əməl etmək danışma və ünsiyyətə girməni asanlaşdırır. Bu çalışma üzərində iş, eyni zamanda, qruplaşdırma, ümumiləşdirmə kimi təfəkkür əməliyyatlarına stimul yaradır. Müəllim bu çalışmadan həm də uşaqlarda estetik zövqün formalaşdırılması, təbiətə həssas münasibət aşılanması üçün istifadə etməlidir.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Ev quşlarına aid cümlələr qurun. **Xoruz** şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 35-ci və 36-cı DƏRSLƏR. (§19)

## MÖVZU: [Q] SƏSİ VƏ «Q» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.1.2.; 2.2.1.; 3.1.1.; 4.1.1.; 4.1.2.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri (çalışma 2, 5, 8) qruplaşdırır; hərfləri, sözləri və cümlələri düzgün oxuyur; «Qq» hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 5).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, 3.2.1, X-d. 2.2.4, T-i. 2.2.2, H-b. 1.4.2

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim lövhədən asılmış şəkilləri – **qaranquş, qərənfil, qrafin** adlandırmağı təklif edir. Şəkillər adlandırılır.

— Uşaqlar, **qaranquş** sözü hansı səslə başlayır? ([Q] səsi ilə)

— Deyə bilərsinizmi, qaranquşun qanadları hansı rəngdədir? (Qara)

— Bəs **qara** və **qanad** sözlərində [q] səsi sözün hansı hissəsində işlənir? (Əvvəlində)

Sonra **qərənfil** və **qrafin** sözlərini təlim dilində adlandırmaq təklif olunur.

— Uşaqlar, deyə bilərikmi ki, həm Azərbaycan, həm də təlim dilində [q] səsi var? (Bəli)

— Uşaqlar, təlim dilində içərisində [q] səsi olan sözlər deyin. (Müxtəlif misallar deyilir)

Müəllim kəsmə əlifbada «Qq» hərfinin çap şəklini və lövhədə yazaraq əlyazma nümunəsini göstərir.

— Uşaqlar, təlim dilində [q] səsi bu cürmü yazılır? (Xeyr/Bəli)

**Tədqiqat sualı:** [Q] necə səsdir? Bu səs Azərbaycan dilində sözün hansı hissələrində gələ bilir? Azərbaycan və təlim dillərində [q] səsi eyni hərflə mi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim içərisində [q] səsi olan sözlərlə tanış olmaları üçün şagirdlərin diqqətini mövzunun əvvəlindəki sözlərə yönəldir. Uşaqlar müəllimlə birgə həmin sözləri oxuyurlar. Səsin ayrılıqda tələffüzü xüsusi çətinlik törətmədiyindən müəllim heca daxilində [q] səsinin tələffüzü üzərində işə keçir. Dərslikdəki 3-cü çalışmadan hecalar müəllimlə birgə tələffüz edilir, lazım gəldikdə düzəliş edilir.

***II addım:*** Müəllim bu tapşırığın II hissəsi üzərində işi şagirdlərin lüğətinin genişləndirilməsi istiqamətinə yönəldir. Heca - sözləri seçib ayırmağı, mənalarını təlim dilində deməyi təklif edir. Şagirdlər fəallıq göstərirlər, çətinlik çəkildikdə müəllim köməklik göstərir. Bu iş dərslikdəki 2-ci çalışma vasitəsilə davam etdirilir. Çalışma üzərində iş qruplarla aparılır. Qruplara şəkillərlə tanış olmaq üçün vaxt verilir. Bu şəkilləri uşaqlar əvvəlki dərslərdə də gördüklərindən çox vaxt tələb olunmur. Hansı qrup tez bütün şəkilləri adlandırmağa hazır olduqda rəmzini qaldırır. Səhv olduqda növbəti qrupa söz verilir. Digər qruplar isə təklif olunan sözə aid söz birləşmələri deyir, yaxud sözdəki səsin sayı və yeri barədə suallara cavab verirlər. Nəticələr lövhədəki cədvəldə qeyd olunur. Bu çalışma əsasında həm də qruplaşdırmaqla sadalama üzrə iş aparıla bilər.

***III addım:*** Oxu üzrə iş dərslikdəki 6-cı çalışma əsasında təşkil olunur. Şagirdlərin oxu bacarığının formalaşdırılması işi dilin qrammatik normalarının praktik yolla mənimsənilməsinə də şərait yaradır. Odur ki, dərslikdəki 8-ci çalışma mətnindən də bu məqsədlə istifadə oluna bilər.

***IV addım:*** Danışma bacarığının inkişafı lüğət və tələffüz üzrə işlərlə əlaqələndirilir. Dərslikdəki 10-cu çalışma üzrə başlanan iş 5-ci çalışmadakı şəkil üzrə davam etdirilir.

**Nəticə və ümumiləşdirmə:** Azərbaycan və təlim dillərində olan [q] səsi müxtəlif (eyni) hərflərlə yazılır. [Q] samit səsdir. Şagirdlər içərisində “Qq” hərfi olan hecaları, (eyni) sözləri və cümlələri düzgün oxuyur, sadə cümlələri düzgün intonasiya ilə tələffüz edirlər.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** [Q] ilə başlayan və içərisində [q] səsi olan 10 söz tapın. Onlardan söz birləşmələri düzəldin. **Qayıq** şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Q] SƏSİ VƏ «Q» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı vəsaitlə 35-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** Şagirdlərin [q] səsinin düzgün tələffüzü ilə bağlı bacarıqlarının təkmilləşdirilməsi üzərində iş davam etdirilir. Hecaların oxusu təşkil olunur. Şagirdlərin [q] səsinin heca daxilində tələffüzü onların lüğətinin yeni sözlərlə zənginləşdirilməsi işi ilə üzvi şəkildə əlaqələndirilir. Şagirdlər verilmiş hecalar əsasında şəkilləri adlandırmaqla yanaşı, içərisində həmin hecalar olan başqa sözlər söyləməyə həvəsləndirilməlidirlər. Bu barədə əvvəlki dərslərdə müəllimlərə lazımi tövsiyələr verilmişdir.

***II addım:*** Səsin tələffüzü üzərində iş onun yazıdakı ifadəsi ilə əvəz olunur. Şagirdlərin yazı bacarıqlarının səviyyəsi dərslikdəki 7-ci çalışma vasitəsilə izlənilir. Bu məqsədlə imla mətnindən istifadə olunur. Əlbəttə, unutmaq olmaz ki, yazı üzrə iş digər işlərlə növbələşdirilərək aparılmalıdır.

***III addım:*** Cümlə qurmaq və danışmaq üzrə bacarıqlar müxtəlif tipli çalışmalar vasitəsilə inkişaf etdirilir. Verilmiş sözlərdən istifadə etməklə cümlələr qurulur, cümlələrin genişləndirilməsi, şəxsə və kəmiyyətə görə uzlaşma üzrə müşahidələr təşkil edilir (dərslikdə çalışma 8, 9). Şəkillərdən istifadə edərək kiçik rabitəli mətnlər qurmağa səy göstərilir.

***IV addım:*** Şagirdlərin ümumiləşdirmə qabiliyyətinin inkişafına imkan verir.

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər “Qq” hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır, içərisində “Zz” hərfi olan sözləri və cümlələri düzgün oxuyur, oxuduqları mətnin məzmununa aid suallar tərtib edir, verilmiş şəkil əsasında bir neçə cümlədən ibarət kiçik mətn yazırlar.

**Ev tapşırığı:** Rəng adları bildirən sözlər öyrənin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 37-ci və 38-ci DƏRSLƏR. (§20)

## MÖVZU: [F] SƏSİ VƏ «F» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.1.2.; 2.2.1.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri (çalışma 2, 4) qruplaşdırır; mətni oxuyur və məzmununu izah edir; «Ff» hərfini və sözləri düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 5).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 3.2.1, T-i. 2.2.2, F-t. 1.3.1.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu, kartoçkalar, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim **şkaf, şərf, fotoaparat** şəkillərini göstərərək Azərbaycan dilində adlandırmağı təklif edir. Sinfə müraciət edir:

— Uşaqlar, **şkaf** və **şərf** sözləri hansı səslə bitir? ([F] səsi ilə)
— Bəs bu səsi **fotoaparat** sözündə də eşitdinizmi? (Bəli, bu sözdə əvvəldədir)
— Uşaqlar, həmin əşyaları təlim dilində də adlandırın. (Sözlər səsləndirilir)
— Uşaqlar, həmin sözlərdə də [f] səsi işlənirmi? (Bəli/Xeyr)
— Deyə bilərikmi, bu səs təlim dilində də var? (Bəli/Xeyr)

**Şkaf, şərf, fotoaparat** sözləri yazılmış plakat asılır.

Müəlim «Ff» hərfinin çap və əlyazma nümunələrini göstərir. Hərfin şəklinin müxtəlifliyi uşaqların marağına səbəb olur.

**Tədqiqat sualı:** [F] necə səsdir, Azərbaycan dilində sözün hansı hissələrində işlənə bilir? [F] səsi Azərbaycan və təlim dillərində eyni hərfləmi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Qruplar formalaşdırılır. Təklif edilir ki, qruplar yalnız oğlanlardan və yalnız qızlardan formalaşdırılsın. Oğlanlardan ibarət qrupların hər birinə içərisində [f] səsi olan 3 qız adı, qızlardan ibarət qruplara 3 oğlan adı demək tapşırığı verilir. Adlar təkrar olunduqda qrup xal itirir. Oyunun nəticələri yekunlaşır. Sonra qruplarla iş dərslikdəki 2-ci çalışma üzrə davam etdirilir. Qrup liderlərindən birinin işarə etdiyi şəkli seçilən qrupun lideri adlandırır və səsin sözdə yerini, sayını göstərir. Oyun yekunlaşır, nəticələr elan olunur, müzakirə başlanır. [F] səsinin sözdə yeri üzrə iş heca daxilində mövqeyi ilə əlaqələndirilir. Dərslikdəki 3-cü çalışma icra olunur.

***II addım:*** Şagirdlərin oxu bacarıqları dərslikdəki 6-cı çalışma üzrə inkişaf etdirilir. Oxu zamanı [f] səsinin heca daxilində düzgün tələffüzü izlənilir, lazım gəldikdə metodik kömək göstərilir.

***III addım:*** «Ff» hərfi ilə bağlı yazı bacarığının formalaşdırılması nümunə üzrə həyata keçirilir.

***IV addım:*** Şagirdlərin oxu bacarıqları tərcümə ilə əlaqələndirilir. Dərslikdəki 8-ci çalışma mətni təlim dilinə tərcümə olunur.

***V addım:*** Dərslikdəki 7-ci çalışma cümlə qurmaq və danışmaq bacarığının formalaşdırılmasına imkan verir. Danışma bacarığı üzrə işin növbəti dərsdə davam etdirilməsi nəzərdə tutulur.

**Nəticə və ümumiləşdirmə:** [F] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda gəlir. Azərbaycan və təlim dillərində olan [f] səsi fərqli (eyni) hərflərlə (hər iki dildəki hərflər qarşı-qarşıya olmaqla) yazılır. Şagirdlər oxuduqları sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir, mətni oxuyur və məzmununu izah edir, mətnin məzmununa aid suallar tərtib edirlər.

**Ev tapşırığı:** Kiçik bir dialoq qurun. İçərisində [f] səsi işlənən adlardan istifadə edin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [F] SƏSİ VƏ «F» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı vəsaitdə 37-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım.*** [F] səsinin tələffüzü ilə bağlı bacarıqların təkmilləşdirilməsi üzrə iş davam etdirilir. Müəllim bu bacarıqların mənimsənilməsini yarış formasında təşkil edə bilər.

***II addım.*** Bu istiqamətdə başqa bir iş cütlərlə aparılır. Çalışma mətnində olan hecalar kartoçkalar şəklində uşaqlara paylanır. Onlar hecaları iş vərəqlərində elə yapışdırırlar ki, sözlər alınır. Bu iş də uşaqlara əvvəlki dərslərdən tanışdır. Iş vərəqləri təqdim olunur, müzakirə başlanır.

***III addım.*** Yazı bacarıqları inkişaf etdirilir.

***IV addım.*** Cümlə qurmaq və danışmaq üzrə işlər dərslikdəki 4-cü çalışma vasitəsilə təşkil edilir. Xəbərlik şəkilçilərinin artırılması ilə cümlələrin tamamlanması, 4-cü çalışmada isə şəkildən istifadə edərək cümlələr, kiçik rabitəli mətn qurmaq üzrə iş aparılır.

***V addım.*** Şagirdlərin oxu bacarıqlarının təkmilləşdirilməsi işi dərslikdəki dialoqun oxusu ilə davam etdirilir.

**Nəticə:** Şagirdlər “Ff” hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazır, verilmiş şəkil əsasında bir neçə cümlədən ibarət kiçik mətn yazırlar.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Oğlanlar quş qəfəsi düzəldir, qızlar isə qrafin şəkli çəkirlər, həmin sözlərə aid cümlələr qurulur.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 39-cu DƏRS. (§21)

### MÖVZU: [S] SƏSİ VƏ «S» HƏRFİ

**Standart:** 1.1.2.; 1.1.3.; 3.1.2.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; mətni oxuyur və məzmununu izah edir; «Ss» hərfini və sözləri düzgün yazır; verilmiş söz birləşməsi və cümlə nümunələrini düzgün yazır.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, 3.2.1, X-d. 1.1.1, 2.2.4, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Bütün siniflə, qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim sinfə müraciət edir:
— Uşaqlar, kim deyər, Novruz bayramının rəmzi nədir? (Səməni)
— Bəs milli musiqi alətlərimiz hansılardır? (Saz, tar)
— Əllərimizi nə ilə yuyuruq? (Su və sabunla)
— Uşaqlar, **səməni, saz, su, sabun** sözləri hansı səslə başlanır? ([S] səsi ilə)
— Təlim dilində içərisində [s] səsi olan sözlər deyə bilərsinizmi? Sözlər səsləndirilir
— Deyə bilərikmi, həm Azərbaycan, həm də təlim dillərində [s] səsi var? (Bəli/Xeyir)
Müəllim «Ss» hərfinin çap və əlyazma nümunəsini göstərir.

**Tədqiqat sualı:** [S] necə səsdir, Azərbaycan dilində sözün hansı hissəsində işlənə bilir? Azərbaycan və təlim dillərində olan [s] səsi eyni hərfləmi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım.*** Müəllim əvvəlcə mövzunun əvvəlində verilmiş sözləri səsləndirir, şagirdlər kitaba baxırlar. Sonra dərslikdəki 2-ci çalışma üzrə işə keçilir. Şagirdlər bu əşyalarla əvvəlki dərslərdə qarşılaşdıqlarından onları adlandırmaqda çətinlik çəkmirlər. Burada əsas diqqət çalışmanın ikinci hissəsinə yönəldilir. Orada da hecaların bəziləri söz olduğundan lüğətin genişləndirilməsinə imkan yaranır. Bu çalışmalardakı şəkillər əsasında həm də seçib ayırma və qruplaşdırmaqla sadalama üzrə işlər aparıla bilər.

Hecaların oxusu şagirdlərin oxu bacarıqlarının formalaşmasına keçməyə şərait yaradır.

***II addım.*** Oxu üzrə iş dərslikdəki 6-cı çalışma əsasında aparılır.

***III addım.*** Yazı bacarığının formalaşdırılması məqsədilə keçilir. Müəllim şagirdlərin yazı bacarığının səviyyəsini dərslikdəki imla yazı vasitəsilə də izləyə bilər.

***IV addım.*** Söz birləşmələri və cümlə qurmaq, danışma bacarığı dərslikdəki 5-ci, 7-ci, 10-cu çalışmalar vasitəsilə formalaşdırıla bilər. Müəllim sinfin səviyyəsini nəzərə alaraq bu çalışmalardan məqsədyönlü şəkildə istifadə etməlidir.

**Nəticə və ümumiləşdirmə:** [S] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında, sonunda işlənir. Azərbaycan və təlim dillərində olan [s] səsi fərqli (eyni) hərflərlə yazılır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** **Sərçə** və **ananas** şəkli çəkin. Həmin sözləri birləşmə və cümlə içərisində işlədin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 40-cı və 41-ci DƏRSLƏR. (§22)

### MÖVZU: [Ş] SƏSİ VƏ «Ş» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir; sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; «Şş» hərfini və sözləri düzgün yazır; verilmiş cümlə nümunələrini düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 5).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, 3.2.1, 3.2.2, Riy. 1.1.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Bütün siniflə, qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim sinfə müraciət edir:

— Uşaqlar, Novruz bayramında ən çox hansı şirniyyatlar bişirilir? (**Şəkərbura, şəkərçörək, paxlava, qoğal**)

— **Şəkərbura, şəkərçörək** sözləri hansı səslə başlanır? ([Ş] səsi ilə)

— Uşaqlar, milli musiqi alətimiz sazı çalan şəxslər necə adlanır? (Aşıq)
Çətinlik çəkildikdə müəllim sozü özü deyir.
Müəllim tapmaca səsləndirir: «Bizim evdə bir kişi var, xor-xor yatışı var». Uşaqlar bu tapmacanın cavabını tapmaqda çətinlik çəkməməlidirlər. Müəllim əvvəlcədən deyir ki, bu cavabda da [ş] səsi var.
Cavab səslənir: pişik.
— **Aşıq** və **pişik** sözlərində [ş] səsi sözün hansı hissəsindədir? (Ortada)
Bu sözlər tədris dilində səsləndirilir.
— Deyə bilərikmi, tədris dilində də [ş] səsi var. (Təsdiq/İnkar edilir)
Müəllim «Şş» hərfinin çap və əlyazma nümunələrini göstərir.

**Tədqiqat sualı:** [Ş] necə səsdir, Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Azərbaycan və tədris dillərində [ş] səsi eyni hərflәmi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım.*** Müəllim şagirdlərin diqqətini mövzunun əvvəlində verilmiş sözlərə cəlb edir, şagirdlərin tanış olmaları üçün onları hecalarla oxuyur. Sonra [ş] səsinin heca daxilində tələffüzü üzərində işə keçilir. Dərslikdəki 3-cü çalışma icra olunur. Müzakirə başlanır: hecalarda [ş] səsinin əvvəldə və sonda işləndiyi müəyyənləşdirilir. Bu iş lüğət üzrə işlə əlaqə yaratmağa imkan verir. Dili bilənlərə təklif edilir ki, hecaların içərisindən bildikləri sözləri seçib söyləsinlər.

***II addım.*** Səsin heca daxilində yerinin müəyyənləşdirilməsi onun sözdə yerinin müəyyənləşdirilməsi ilə əvəz olunur. Dərslikdəki 2-ci çalışmadakı şəkillər adlandırılır. Hər partada oturan şagirdlərdən biri şəkilləri adlandırır, digər şagird həmin sözdə səsin sayını və yerini müəyyənləşdirməyə çalışır. Bu, səsin düzgün tələffüzünün formalaşdırılması ilə yanaşı, lüğət üzrə işə də şərait yaratmış olur.

***III addım.*** Oxu bacarıqlarının formalaşdırılması dərslikdəki 6-cı çalışma vasitəsilə həyata keçirilir. Dərslikdəki 9-cu çalışma da oxu bacarıqlarının inkişafına imkan verir.

***IV addım.*** Söz birləşmələri, cümlələr qurmaq, danışmaq istiqamətində işlər üçün dərslikdəki 5-ci, 8-ci çalışmalardan istifadə edilməsi tövsiyə olunur.

**Nəticə və ümumiləşdirmə:** [Ş] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və tədris dillərində olan [ş] səsi fərqli hərflərlə yazılır.

**Ev tapşırığı:** Kiçik dialoq qurun. İçərisində [ş] səsi olan adlardan istifadə edin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Ş] SƏSİ VƏ «Ş» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə əlaqədar 40-cı dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım.*** [Ş] səsinin heca daxilində tələffüzünün təkmilləşdirilməsi üzrə iş davam etdirilir. Bu həm səsin heca daxilində tələffüzü, həm də şagirdlərin lüğətinin genişlənməsi və dəqiqləşdirilməsinə imkan verir. Bu tapşırıq da qruplarla aparıldıqda maraq doğurur, öyrənməyə motivasiya yaradır.

***II addım.*** Yazı bacarığının formalaşdırılması işinə başlanır, digər iş növləri ilə məqsədəuyğun şəkildə növbələşdirilərək davam etdirilir.

***III addım.*** Oxu bacarıqlarının təkmilləşdirilməsi işi intonasiya və fasilə üzrə işlə müvazi şəkildə aparılmalıdır. Nəqli, nida və əmr intonasiyası, sual və nəqli intonasiya üzrə praktik işlər aparmaqla müvafiq bacarıqların formalaşdırılmasına imkan verir.

***IV addım.*** Söz birləşməsi və cümlə qurmaq bacarıqaları dərslikdəki 9-cu çalışma vasitəsilə inkişaf etdirilir.

**Ev tapşırığı:** Müəllimin təqdim etdiyi sözləri işlətməklə cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 42-ci və 43-cü DƏRSLƏR. (§23)

### MÖVZU: [Ü] SƏSİ VƏ «Ü» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.2.1.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; «Üü» hərfini və sözləri düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 7).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, X-d. 1.1.1, 2.2.4, H-b. 1.4.2, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, diskussiya.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Lövhədə asılmış plakatda bir tapmaca yazılmışdır. Plakatda «ü» hərfinin yerinə qırmızı dairə qoyulmuşdur:

*Əzilməz, üzülməz,*
*Süfrəyə düzülməz.* **(Daş)**

Müəllim plakatı göstərərək sinfə müraciət edir:

— Uşaqlar, bu, bir tapmacadır. Siz bu tapmacadakı bir hərfdən başqa, bütün hərfləri tanıyırsınız. Əgər o hərfi tapsanız, deməli, bu tapmacanı oxuya bilərsiniz. Kim deyər, buraxılmış hərfin yerinə niyə qırmızı dairələr qoyulub? (Sait səsin işarəsi olmalıdır)

Sonra müəllim tapmacanı səsləndirir. Cavabını söyləyir.

— Uşaqlar, bu tapmacada buraxılan işarə, sizcə, hansı səsin işarəsidir?( [Ü] səsinin)

— Deməli, [ü] səsinin işarəsini yerinə qoysaq, siz bu tapmacanı özünüz oxuya biləcəksiniz. Müəllim kəsmə əlifbada «Üü» hərfinin çap şəkli və lövhədə yazaraq əlyazma nümunəsi ilə şagirdləri tanış edir. Sonra tapmacanın tam variantı olan plakat nümayiş etdirilir, şagirdlər oxumağa cəhd göstərirlər.

— Uşaqlar, tədris diılində içərisində [ü] səsi olan sözlər deyə bilərsinizmi? (Uşaqlar çətinlik qarşısında qalırlar)

**Tədqiqat sualı:** [Ü] səsi Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Tədris dilində bu səs və onu işarə edən hərf varmı?

**Tədqiqatın aparılması:** ***I addım:*** [Ü] səsi Azərbaycan dili üçün spesifik səslərdən olduğundan onun tələffüzü üzrə bacarıqların formalaşdırılması xüsusi diqqət tələb edir. Müəllim bu çətinliyi nəzərə alaraq əvvəlcə uşaqların tələffüzü üzərində müşahidə aparmaq məqsədi ilə dərslikdə 2-ci çalışmada verilmiş şəkilləri adlandırmağı təklif edir. Bu şəkillərlə uşaqlar əvvəlki dərslərdə də qarşılaşdıqlarından onları adlandıra bilirlər. Çətinlik olduqda dili bilənlərin imkanlarından istifadə müsbət nəticə verir. Müəllim [ü] səsinin tez-tez səslənməsi üçün tapşırığın 2-ci hissəsi üzərində iş aparır. [Ü] səsinin sözdə yeri ilə əlaqədar fikirlər ümumiləşdirilir.

***II addım.*** [Ü] səsinin düzgün tələffüzü ilə əlaqədar çətinliyi nəzərə alaraq müəllim dərslikdəki 3-cü çalışmanın icrası zamanı şagirdlərə metodik kömək göstərməlidir. Səsin düzgün məxrəcdə tələffüzünə səylər artırılmalıdır. Yaxşı olar ki, uşaqların özləri də içərisində [ü] səsi olan, yaxud [ü] səsi ilə başlayan sözlər tapıb desinlər.

***III addım.*** Dərslikdəki 6-cı çalışma «Üü» hərfi ilə bağlı ilkin oxu bacarıqlarının formalaşdırılmasına, bununla bərabər, yeni öyrənilmiş səsin düzgün tələffüzünə imkan verir.

***IV addım.*** Şagirdlərin cəmlik anlayışı ilə bağlı praktik biliklərinin dərinləşdirilməsi işi dərslikdəki 8-ci çalışma əsasında təşkil edilməlidir. Bu çalışma, eyni zamanda, [ü] səsinin təkrarlanmasına və lüğətin fəallaşmasına da kömək edir.

***V addım.*** İçərisində [ü] səsi olan sözlərdən istifadə etməklə danışmaq bacarığının formalaşdırılması məqsədi ilə dərslikdəki 7-ci çalışmadan istifadə olunması tövsiyə olunur.

**Nəticə və ümumiləşdirmə:** [Ü] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda gəlir. [Ü] səsi «Üü» hərfi ilə işarə olunur. [Ü] sait səsdir.

**Ev tapşırığı:** İçərisində [ü] səsi işlənən 10 söz tapın, onlardan bir neçəsini cümlədə işlədin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Ü] SƏSİ VƏ «Ü» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 42-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım.*** [Ü] səsinin düzgün tələffüzünün formalaşdırılması işi davam etdirilir. Bu prosesi qruplarla aparmaq müsbət nəticə verir, şagirdləri axtarıcılığa həvəsləndirir, əməkdaşlığa alışdırır.

***II addım.*** Yazı bacarığının formalaşdırılması əsasında həyata keçirilir. Bu hərfin işarəsi rus dilindəki oxşar işarə ilə müqayisə edilərək mənimsədilir.

***III addım.*** Bu dərsdə daha çox diqqət tələffüz və oxu bacarıqlarının inkişafına yönəldilir. Bu istiqamətlər cümlə qurmaq üzrə işlərlə əlaqəli həyata keçirilir. Bu məqsədin reallaşması üçün dərslikdə rəngarəng çalışmalar verilmişdir. Şagirdlər artıq [s] səsini keçdikləri üçün bütün şəxslər üzrə şəxs şəkilçiləri ilə praktik şəkildə tanış olmaq imkanı əldə edirlər. Dərslikdəki 5 və 9-cu çalışmalarda cümlə qurmaqla bağlı müxtəlif istiqamətlərin (söz sırası, xəbərlik və şəxs şəkilçilərini artırmaqla cümlələri tamamlamaq, sözləri işlətməklə cümlələr qurmaq) tətbiqinə şərait yaradır. Müəllim sinfin səviyyəsindən asılı olaraq müvafiq iş növünü seçə bilər.

***IV addım.*** Şagirdlərdə qruplaşdırma, seçib ayırma kimi təfəkkür əməliyyatlarına və məntiqi təfəkkürün formalaşdırılmasına stimul yaradır.

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər mətni oxuyur və məzmununu izah edir, mətnin məzmununa aid bir neçə sual tərtib edir, sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur, "Üü" hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazırlar.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı: Ütü** şəkli çəkin. Ütü ilə davranmağı öyrənin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 44-cü və 45-ci DƏRSLƏR. (§24)

### MÖVZU: [C] SƏSİ VƏ «C» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.2.1.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; «Cc» hərfini və sözləri düzgün yazır; verilmiş söz birləşməsi və cümlə nümunələrini düzgün yazır.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.4.1, X-d. 1.1.1, 2.2.4, H-b. 1.4.2, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, qruplarla, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun-yarış.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Maqnitafonda «Cücələrim» mahnısı səsləndirilir. Müəllim sinfə müraciət edir:

— Mahnıda hansı söz təkrar olunur? (Cücələrim)

— Bu söz hansı səslə başlayır? ([C] səsi ilə)

— Uşaqlar, Azərbaycan sözündə bu səsi eşidirsinizmi? (Bəli)

— Bu səs sözün hansı hissəsində eşidilir? (Ortada)

— Tədris dilində bu səs varmı, içərisində [c] səsi olan nümunələr söyləyə bilərsinizmi? (Sakitlik yaranır)

Azərbaycan sözünü yaza bilirsinizmi, axı [c] səsindən başqa bu sözdəki bütün səslərin işarələrini bilirsiniz?

Müəllim [c] səsinin işarəsinin çap və əlyazma nümunələrini təqdim edir.

— Uşaqlar, siz bu hərfi tanıyırsınız? Deyin görək, təlim dilində bu hansı səsin işarəsidir?

**Tədqiqat sualı:** [C] necə səsdir? Azərbaycan dilində sözün hansı hissəsində işlənə bilir? Tədris dilində bu səs və onu işarə edən hərf varmı?

**Tədqiqatın aparılması:** ***I addım:*** [C] səsi Azərbaycan dili üçün spesifik səs olduğundan onun düzgün tələffüzünün mənimsədilməsi müəyyən çətinlik törədir. Tədris dilində bu səs olmadığından [c] səsinin düzgün məxrəcdə tələffüzünün formalaşdırılması xüsusi diqqət və gərgin

iş tələb edir. Müəllimlər bunu nəzərə alaraq tələffüz üzrə işlərə daha çox yer ayırmalıdırlar. Bəzi dillərdə [dj] kimi qovuşuq səslənən [c] səsinin ayrılıqda aydın artikulyasiyasına səy göstərilməlidir. [Dj] tələffüzünün həmişə [c] səsinin aydın məxrəcdə tələffüzünə maneə yaradacağını nəzərdən qaçırmamalı, [dj] tələffüzü ilə müqayisəyə geniş yer ayrılmamalıdır. İşə paraqrafın əvvəlində verilmiş sözlərlə tanışlıq ilə başlanır. Dərslikdəki 3-cü çalışmadakı hecaların tələffüzü diqqətlə izlənilir. Müəllim çalışmanın II hissəsi üzrə işə maraq oyadır. Dili bilənlər fəallıq göstərirlər. Bu imkandan istifadə edərək müəllim 2-ci çalışma üzrə işə keçə bilər. Əşyaları adlandırmaqla [c] səsinin sözün müxtəlif mövqelərində tələffüzü üzrə praktik iş cütlərlə də aparıla bilər. Cütlərdən biri əşyaları adlandırır, digəri həmin səsin sayını və yerini müəyyənləşdirir. Sonda müzakirə aparılır.

Şagirdlərin [c] səsinin tələffüzü ilə bağlı bacarıqlarını inkişaf etdirmək məqsədi ilə qruplara [c] səsi ilə başlayan və ya içərisində [c] səsi olan adlar verilir, onlar belə adlar tapıb söyləməyə sövq edilir.

***II addım:*** Oxu üzrə iş dərslikdəki 5-ci çalışma əsasında aparılır. Mətnin tərcüməsi zamanı [c] səsinin düzgün tələffüzü üzrə iş aparılır, müvafiq tövsiyələr verilir.

***III addım:*** İçərisində [c] səsi olan sözləri işlətməklə söz birləşmələri və cümlə qurmaqla bağlı işlər dərslikdəki 6-cı çalışma üzrə aparılmalıdır.

**Nəticə və ümumiləşdirmə:** [C] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. [C] səsi samit səsdir. [C] səsi «Cc» hərfi ilə işarə olunur.

**Ev tapşırığı:** «Cücələrim» mahnısını oxumağı oyrənin. Cücə şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [C] SƏSİ VƏ «C» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 44-cü dərsə baxmaq məsləhət bilinir.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [C] səsinin tələffüzü üzərində iş davam etdirilir. Bu iş oyun-yarış formasında təşkil edilə bilər.

***II addım:*** [C] səsinin tələffüzü üzərində iş «Cc» hərfinin yazılışı ilə davam etdirilir. Yazı bacarığı nümunələr üzrə formalaşdırılır.

***III addım:*** Oxu və tərcümə bacarıqlarının inkişafı dərslikdəki 7-ci çalışma üzərində aparılmalıdır. Dialoqun oxusu zamanı Aytac, Cəfər və içərisində [c] səsi olan digər sözlərdə [c] səsinin düzgün məxrəcdə tələffüzünə diqqət yetirilməlidir.

***IV addım:*** Lüğətin dəqiqləşdirilməsi cümlə qurmaq bacarığı üzrə işlərlə müvazi davam etdirilir. Bu məqsədlə dərslikdəki 9-cu çalışmanın icrası nəzərdə tutulur.

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər mətni oxuyur və məzmununu izah edir, mətnin məzmununa aid bir neçə sual tərtib edir, sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur, "Cc" hərfini və sözləri, həmçinin verilmiş cümlə nümunələrini düzgün yazırlar.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** İçərisində [C] səsi olan adlardan istifadə etməklə tanışlıq mövzusunda kiçik dialoq qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 46-cı və 47-ci DƏRSLƏR. (§25)

## MÖVZU: [Ç] SƏSİ VƏ «Ç» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.3.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur; şəkildə gördüklərini (çalışma 6) birinci şəxsin dili ilə təsvir edir; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə təlim dilinə və əksinə tərcümə edir; «Çç» hərfini və sözləri düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 6).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, X-d. 2.1.1, F- t. 1.3.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** — Uşaqlar, hər gün məktəbə gələrkən kitab-dəftərlərinizi nəyə yığırsınız? (Çantaya)

— Yağışlı havada şəhərdə gəzərkən nədən istifadə edirik?(Çətirdən)

Uşaqlar, bu sözlərdə ilk eşitdiyiniz səs hansıdır? ([Ç] səsi eşidilir)

Həmin əşyaları təlim dilində adlandırın. Müvafiq sözlər səsləndirilir

— Bu sözlərdə [ç] səsi işlənirmi? (Xeyr/Bəli)

— [Ç] səsi tədris dilində varmı? (Bəli. Misallar söylənilir)

Müəllim bir neçə çiçək (**lalə, bənövşə, nərgiz, zanbaq**) şəkli göstərib onları bir sözlə adlandırmağı təklif edir. «Çiçək» sözü səsləndirilir. Müəllim bu sözdə [ç] səsinin yeri üzərində müsahibəni davam etdirir. Sonra [Çç] hərfinin çap və əlyazma nümunələri ilə şagirdləri tanış edir.

— Uşaqlar, tədris dilindəki [ç] səsi bu hərfləmi işarə olunur? (Şagirdlərdə çaşqınlıq yaranır)

**Tədqiqat sualı:** [Ç] necə səsdir, Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Azərbaycan və tədris dillərində olan [ç] səsi eyni hərfləmi işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim mövzunun əvvəlindəki sözlərlə şagirdləri tanış edir. Bu sözlərdəki [ç] səsinə diqqəti cəlb edir. [Ç] səsi tədris dilində olduğundan onun tələffüzü ciddi çətinlik törətmir. Odur ki, müəllim səsin heca daxilindəki tələffüzünə daha çox yer ayırır. Çünki bu səs spesifik səslərlə yanaşı gəldikdə onun tələffüzündə gərginlik yaranır. Dərslikdəki 3-cü çalışmadakı hecaların oxunaraq tələffüzü üzərində iş gedir. Səsin hecada yeri müəyyənləşdirilir. Uşaqların diqqəti fərqli rəngdə verilmiş hecalara yönəldilir.

***II addım:*** Səsin sözdə yeri üzərində müşahidə aparmaq və lüğətin genişləndirilməsi üçün dərslikdəki 2-ci çalışmaya müraciət olunur. Şagirdlərə həmin sözləri adlandırmaq üçün qısa vaxt verilir, çünki onlar bu şəkillərlə əvvəlki dərslərdə də qarşılaşmışlar. Çalışma üzərində iş 3 böyük qrupla aparılır. Hər qrup bir cərgədə əyləşdirilir. Hər qrupdan bir nəfər ardıcıllıqla əşyaları adlandırır, digər qrupun üzvü sözdə [ç] səsinin sayını, digəri onun yerini müəyyənləşdirir. Növbəti sözdə rollar dəyişir. İş bu qayda ilə davam etdirilir. Nəticələr lövhədəki cədvəldə əks olunur.

***III addım:*** Oxu bacarığının formalaşdırılması işi dərslikdəki 7-ci çalışma vasitəsilə aparılır.

***IV addım:*** Cümlə qurmaq və danışmaq bacarığı üzrə işlər dərslikdəki 6, 9, 10-cu çalışmalar əsasında təşkil edilə bilər. Suallara cavab verməklə cümlələr qurmaq və şəkildə gördükləri-

nin təsviri bu bacarığın formalaşmasına şərait yaradır. Sonra şagirdlər atalar sözü və etiketlərlə tanış edilir, onlardan istifadə tövsiyə olunur.

**Nəticə və ümumiləşdirmə:** [Ç] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında, sonunda işlənir. Azərbaycan və tədris dillərində olan [ç] səsi fərqli hərflərlə yazılır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Suallar verməklə dostlarınızın, tanışlarınızın ata, ana, nənə, baba, bacı və qardaşlarının adlarını öyrənin. **Çəkmə** şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Ç] SƏSİ VƏ «Ç» HƏRFİ (2-ci SAAT)

**Qeyd.** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı 46-cı dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [Ç] səsinin tələffüzü üzərində iş əsasında davam etdirilir.

***II addım:*** "Çç» hərfinin yazılışı üzərində iş «Cc» hərfi ilə əlaqələndirilərək nümunələr əsasında təşkil edilir.

***III addım:*** Lüğətin dəqiqləşdirilməsi və fəallaşdırılması həyata keçirilir. Bu iş danışmaq məzmun xətti üzrə işlərlə əlaqələndirilir. Cümlə qurmaq bacarıqlarının inkişafına keçilir.

***IV addım:*** Verilmiş sözlərdən istifadə etməklə cümlə qurmaq, xəbərlik və şəxs şəkilçilərini artırmaqla cümlələri tamamlamaq, yeni mənimsənilmiş sözlərin söz brləşmələri və cümlə içərisində islədilməsinə imkan verməklə müvafiq bacarığı inkişaf etdirir.

***V addım:*** Şagirdlərin yazı texnikasına, yazı bacarıqlarına yiyələnmə səviyyəsi imla vasitəsi ilə müəyyənləşdirilir. Bu iş, eyni zamanda, şagirdlərin Azərbaycanda olan şəhər, rayon, çay, dağ, bulaq adları ilə tanışlığına istiqamətlənir.

**Nəticə və ümumiləşdirmə:** Şagirdlər mətni oxuyur və məzmununu izah edir, mətnin məzmununa aid bir neçə sual tərtib edir, 6-cı çalışmadakı şəkildə gördüklərini təsvir edir və həmin şəkil əsasında bir neçə cümlədən ibarət kiçik mətn yazırlar.

**Ev tapşırığı:** 7-ci çalışmadakı adları qruplaşdırın, valideynlərinizin köməyindən istifadə edin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 48-ci və 49-cu DƏRSLƏR. (§26)

## MÖVZU: [E] SƏSİ VƏ «E» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 2.1.1.; 2.1.2.; 2.2.1.; 2.2.2.; 3.1.2.; 3.1.3.; 4.1.2.
**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; şəkildə gördüyü əşyaların (çalışma 2) adlarını düzgün tələffüz edir; kiçikhəcmli sadə cümləlləri

düzgün intonasiya ilə tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; şəkildə gördüklərini (çalışma 8) birinci şəxsin dili ilə təsvir edir; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; verilmiş söz birləşməsi və cümlə nümunələrini düzgün yazır.

**İnteqrasiya:** A-d. 1.1.3,1.2.4 ,1.4.1, X-d. 2.1.1, 2.2.4, H-b. 2.1.1.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, diskussiya.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim **alma, armud, nar, heyva** şəkillərini göstərərək onları bir sözlə adlandırmağı təklif edir. **«Meyvə»** sözü deyilir. Sonra **inək, keçi, qoyun** şəkilləri göstərilir və bunları bir sözlə adlandırmaq təklif edilir. Cavab alındıqda növbəti sual verilir:

— Bunlar necə heyvanlardır? (Ev heyvanları)

**Meyvə, heyvan, ev** sözlərindəki [e] səsi ilə tədris dilində səsləndirilən telefon, televizor, velosiped və ya içərisində [e] səsi olan digər sözlərdə eşidilən [e] səsi arasında əlaqə yaradılır. Müəllim [Ee] hərfinin çap və əlyazma işarəsini göstərir.

**Tədqiqat sualı:** [E] necə səsdir, Azərbaycan dilində sözün daha çox hansı hissəsində işlənir? Azərbaycan və tədris dillərində olan [e] səsi eyni hərflə mi işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim mövzunun əvvəlindəki sözləri [e] səsini xüsusi vurğulayaraq təqdim edir. Sonra dərslikdəki 2-ci çalışmadakı şəkilləri adlandırmaq üzrə iş cütlərlə aparılır. İş başa çatdıqda müzakirə başlanır. [E] səsinin sözdə yeri barədə ümumiləşdirmə aparılır.

***II addım:*** [E] səsinin hecada tələffüzü üzrə iş təşkil edilir. Bu səsin düzgün məxrəcdə tələffüzünə xüsusi diqqət yetirilir, onun yanlış tələffüzünün qarşısı alınır, lazımi düzəlişlər edilir. Bu iş şagirdlərin lüğətinin genişləndirilməsi üzrə işlərlə əlaqələndirilir. Hecalardan söz olanlar seçilib mənası izah olunur.

***III addım:*** Şagirdlərin oxu bacarıqlarının formalaşdırılması üzrə iş aparılır. Mətndəki Elşən, Elxan və Yeganə sözlərinin tələffüzünə diqqət yetirmək tövsiyə olunur.

***IV addım:*** İçərisində [e] səsi işlənən sözlərdən istifadə etməklə cümlələr qurmaq və danışmaq üzrə işlər dərslikdəki 7 və 8-ci çalışmalar vasitəsilə təşkil edilir, növbəti dərsdə davam etdirilir.

**Nəticə və ümumiləşdirmə:** [E] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və tədris dillərində olan [e] səsi eyni (fərqli) işarə ilə yazılır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Telefonla danışmağa aid kiçik dialoq qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [E] SƏSİ VƏ «E» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Məqsəd, standart, təlim nəticələri, inteqrasiya, dərin tipi, forması, üsulu, resurslarla bağlı 48-ci dərsə baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [E] səsinin aydın məxrəcdə düzgün tələffüzü üzrə bacarıqların təkmilləşdirilməsinə başlanır. Verilmiş hecalardan sözlər düzəltmək bacarığının formalaşmasına imkan verməklə yanaşı, həm də şagird axtarıcılığına stimul yaradır. Dərslikdəki şəkillər üzrə iş başa çatdıqda, qruplar üzrə tapşırıq davam etdirilir. Qruplara içərisində həmin hecalar olan əlavə sözlər tapmaq üçün vaxt verilir. Fəallıq və işgüzar səs-küy yaranır. Hər qrup öz variantını təqdim edir. Nəticələr müzakirə olunur.

***II addım:*** Yazı bacarıqları üzrə iş ciddi çətinlik törətmir, çünki bu hərfin kalliqrafiyası uşaqlara məlumdur. Nümunələr müvafiq bacarığın formalaşdırılmasına kömək edir.

***III addım:*** Oxu üzrə iş davam etdirilir, dərslikdəki mətnin yenidən oxusu ilə təkmilləşdirmə aparılır.

***IV addım:*** Bu dərsdə cümlə qurmaq və danışmaq üzrə işlərə daha çox yer ayrılır. Dərslikdəki 9-cu, 10-cu çalışmaların icrası nəzərdə tutulan bacarıqların inkişafına imkan verir.

Dərslikdə verilmiş nitq etiketindən istifadə üzrə də iş aparılması unudulmamalıdır.

**Ev tapşırığı:** Suallara cavab hazırlayın: Yolu keçərkən nələrə diqqət yetirmək lazımdır? Yolu nə vaxt keçmək olar?

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 50-ci və 51-ci DƏRSLƏR. (§27)

### MÖVZU: [V] SƏSİ VƏ «V» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.3.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; şəkildə gördüklərini (çalışma 8) birinci şəxsin dili ilə təsvir edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; «Vv» hərfini və sözləri düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 5).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, 3.2.1, Riy. 1.1.1, T-i.2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Rollu oyun, beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Ev şəkli göstərilir. Fonematik təhlil aparılır. Sonra müəllim keçən dərsdəki meyvə **(alma, nar, üzüm, heyva, gavalı)** şəkillərini göstərir və adlandırmağı təklif edir. Şəkillər adlandırılır. Müəllim həmin sözlər yazılmış plakatı asır. Plakatda **heyva** və **gavalı** sözlərində «v» hərfinin yerinə göy dairə qoyulub. Müəllim bu sözlərdən hansının oxunmasında uşaqların çətinlik çəkdiklərini soruşur və səbəbini izah etmələrini təklif edir. Uşaqlar dairələrin keçmədikləri hərfin yerinə qoyulduğunu bildirirlər.

Tədris dili ilə əlaqə yaradılır. İçərisində [v] səsi olan sözlər deyilir.

Müəllim [v] səsinin işarəsini çap və əlyazma formasında göstərir.

**Tədqiqat sualı:** [V] necə səsdir? Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Azərbaycan və tədris dillərində olan [v] səsi eyni hərfləmi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** [V] səsinin sözdə yeri üzərində başlanan iş davam etdirilir və təsəvvür dərinləşdirilir. Müəllim paraqrafın əvvəlində verilmiş sözlərlə şagirdləri tanış edir. Sonra dərslikdəki 2-ci çalışma üzrə işə başlanır. Məqsəd şagirdlərin lüğətində olan sözlərin fəallaşdırılması və [v] səsinin sözün müxtəlif yerlərində işlədilməsi ilə praktik tanışlıqdır. Şagirdlər həmin sözlərdə [v] səsinin yerini və sayını müəyyənləşdirirlər. İş yekunlaşdırılır, ümumiləşdirmə aparılır.

***II addım:*** [V] səsinin heca daxilində tələffüzü və yeri üzərində təsəvvür yaradılması işi dərslikdəki 3-cü çalışma əsasında reallaşdırılır. Bu iş də lüğət üzərində işlə əlaqələndirilir. Heca-sözlər maraq doğurur.

***III addım:*** Səsin tələffüzü və şəklinin tanınması üzrə kifayət qədər iş aparıldığından oxu bacarıqlarının formalaşdırılmasına keçilir. Dərslikdəki 6-cı çalışmadakı mətnin oxusu təşkil edilir. Oxu zamanı [v] səsinin tələffüzü izlənilir. Mətnin oxusu dostluq və vətənpərvərlik tərbiyəsinin formalaşmasına istiqamətləndirilməlidir.

***IV addım:*** Cümlə qurmaq və danışmaq istiqamətində işlər üçün dərslikdə çoxlu sayda çalışma verilir. Dərslikdəki 5-ci, 9-cu çalışmalardan müəllim məqsədəuyğun hesab etdiyi üzərində iş apara bilər.

***V addım:*** Atalar sözləri və nitq etiketi ilə tanışlıqdan sonra şeirin oxusu təşkil edilir.

**Nəticə və ümumiləşdirmə:** [V] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və tədris dillərində olan [v] səsi fərqli hərflərlə yazılır.

**Ev tapşırığı:** «Layla» şeirini əzbər öyrənin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [V] SƏSİ VƏ «V» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı mövzunun 1-ci saatına baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [V] səsinin düzgün tələffüzünün təkmilləşdirilməsi üzərində iş davam etdirilir. Təkmilləşdirilmə qruplarla yarış formasında təşkil edilir. Bu iş, eyni zamanda, şagirdlərin axtarıcılıq qabiliyyətlərinin inkişafına və lüğətin genişləndirilməsinə, dəqiqləşdirilməsinə imkan yaradır.

***II addım:*** Yazı bacarıqlarının formalaşdırılmasında 1-ci və 2-ci çalışmadakı nümunələrdən istifadə olunur. Bu hərfin kalliqrafiyası şagirdlərə məlum olmadığından yazı bacarıqlarının formalaşdırılmasına daha çox diqqət yetirilməlidir.

***III addım:*** Söz birləşmələri və cümlələr tərtib etməklə danışmaq üzrə işlər dərsdə aparıcı istiqamət kimi nəzərdə tutulmalıdır.

***IV addım:*** Oxu bacarıqlarının təkmilləşdirilməsi üzrə işi danışmaq istiqaməti ilə əlaqəli həyata keçirmək daha məqsədəuyğun olar. Dərslikdəki 10-cu çalışma üzərində iş buna imkan verir. Dərslikdəki dialoqun rollar üzrə oxusu konkret nitq situasiyasında ünsiyyətə girmə və danışma bacarığının inkişafına kömək edir.

**Ev tapşırığı:** «Uşaq və dovşan» şeirini əzbərləyin, dovşan şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 52-ci və 53-cü DƏRSLƏR. (§28)

## MÖVZU: [Ö] SƏSİ VƏ «Ö» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir; şəkildə gördüklərini (çalışma 7) birinci şəxsin dili ilə təsvir edir; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə təlim dilinə və əksinə tərcümə edir; «Öö» hərfini və sözləri düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 8).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, 3.2.1, X-d. 1.1.2, 2.2.4, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Bütün siniflə, böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, oyun.

**Resurslar:** Dərslik, şəkillər, plakatlar, cədvəl, kəsmə əlifba.

**Dərsin gedişi**

**Motivasiya:** Ev tapşırığı yoxlanılır. Şagirdlərin çəkdikləri **bənövşə** şəkillərindən fərqlənənlər lövhədən asılır.

— Uşaqlar, kim deyər, evdə hansı çiçəyin şəklini çəkmisiniz? (Bənövşə)

— Uşaqlar, keçən dərsimizdə «bənövşə» sözündəki hansı səsin işarəsini yazmağı və oxumağı öyrəndiniz? ([V] səsinin)

— Həmin hərfi göstərə bilərsiniz? (Uşaqlar əllərindəki kataloqda «v» hərfini göstərirlər)

Müəllim lövhədən «bənövşə-bən●vşə» yazılmış plakat asır. Sinfə müraciət edir:

— Uşaqlar, siz bu sözdəki hərflərin çoxunu keçmisiniz. Bəlkə, bu sözü oxuya bilərsiniz?

Uşaqlar sözün I hecasını oxuduqdan sonra çətinliklə qarşılaşırlar. Müəllim problem situasiyadan istifadə edərək diqqəti [ö] səsinin üzərinə cəlb edir.

— Uşaqlar, siz bu sözün mənasını bilirsiniz. Gəlin bu sözü bir daha tələffüz edək. (Söz tələffüz edilir)

— Uşaqlar, kim deyər, biz bu sözü neçə hissəyə ayıraraq tələffüz edirik? (3 hissəyə)

— Doğrudur, deməli, bu sözdə neçə heca var? (3 heca)

— Uşaqlar, bu sözdə [ö] səsini eşidirsiniz? (Bəli)

— Siz [ö] səsini sözün hansı hissəsində eşidirsiniz? (Ortada)

— Uşaqlar, siz bu sözdə I və III hecanı oxuya bilirsiniz. II hecanı isə oxumaqda çətinlik çəkdiniz. Müəllim plakatda qırmızı dairənin üzərinə göstəricinin ucunu qoyaraq soruşur:

— Uşaqlar, bu dairə nəyi göstərir? Necə bilirsiniz, buradakı hərf sait, yoxsa samit səsin işarəsi olmalıdır? (Sait səsin. Qırmızı dairə saitin yerinə qoyulur)

Doğrudur. Müəllim «Öö» hərfinin işarəsi ilə şagirdləri tanış edir, lövhədə yazır.

— Uşaqlar, siz bu hərfi, demək olar ki, yaza bilirsiniz. Görürsünüz ki, bu hərf «Oo» hərfindən ancaq üstündəki nöqtələrlə fərqlənir. Mən indi sizə bir tapmaca deyəcəyəm. Bu tapmacada siz [ö] səsini 3 sözdə eşidəcəksiniz. Tapmacanın cavabı olan sözü isə bilirsiniz. Əvvəlki dərslərimizdə onun şəklini də görmüsünüz.

Görək cavabı kim tapa biləcək? Cavabda [ö] səsi yoxdur.

**Tapmaca:** Bir **özüdür**, dörd **gözü**.

— Uşaqlar, bu tapmacada hansı səs çox eşidilir? ([Ö] səsi)

— [Ö] səsini sözün hansı hissəsində eşidirsiniz? (Əvvəldə və ortada)

— Uşaqlar, tədris dilindəki sözlərdə bu səsi eşitmisiniz?

**Tədqiqat sualı:** [Ö] necə səsdir? Azərbaycan dilində [ö] səsi sözün hansı hissəsində işlənir? Tədris dilində bu səs və onu işarə edən hərf varmı?

**Tədqiqatın aparılması:** ***I addım:*** Uşaqlar, tapmacanın cavabını bilən varmı? Paltarlarınıza diqqətlə baxsanız, cavabı (düymə) asanlıqla taparsınız.

Müəllim tapmacanı təkrar edir. Məqsəd [ö] səsinin tələffüzünə diqqəti yönəltməkdir. Tapmacanın cavabı tapılmadıqda «düymə» şəkli göstərilir. Şagirdlər sözü səsləndirirlər. Müəllim başqa bir tapmaca deyir.

— Uşaqlar, mən indi daha bir tapmaca deyəcəyəm, siz hamınız bu tapmacanın cavabını asanlıqla tapacaqsınız. Bu tapmacada [ö] səsi bir sözdə işlənir. Diqqətli olun. [Ö] səsi işlənən sözü və cavabı tapın.

**Tapmaca:** *Bizdə bir kişi var, Dörd dənə qıçı var.* ***(Stol)***

Uşaqlar «dörd» sözündə [ö] səsi eşidildiyini deyirlər. Tapmacanın cavabını tapmaq işgüzar səs-küy yaradır. Cavab tapılır.

Müəllim içərisində [ö] səsi olan sözlər hesabına şagirdlərin lüğətini genişləndirmək və [ö] səsinin tələffüzünə şərait yaratmaq üçün diqqəti dərslikdəki 2-ci çalışmaya yönəldir. Keçən dərsdə qruplara verilmiş adlar xatırlanır, rəmz-şəkillər qruplara təqdim olunur. İş forması şagirdlərə aydındır. Müəllim şəkilləri nömrələmək və məsləhətləşmək üçün qruplara vaxt verir. Sonra şəkillərin nömrəsini deyərək qruplardan birinin adını çəkir (3-cü şəkil, «Dovşan» qrupu, buyurun, cavabınızı səsləndirin). Cavablar düzgün olmadıqda qrup xal qazanmır. Xallar lövhədə qruplara aid cədvəldə qeyd olunur. İş başa çatdıqdan sonra nəticələr elan olunur və sözlər bir daha xorla səsləndirilir. Bu çalışma üzrə müəllim 2-ci işə keçir. Qruplar müəllimin işarə etdiyi şəkildəki sözü səsləndirərək həmin sözdə [ö] səsinin yerini və sayını deməlidirlər. Tapşırıq icra olunur. Burada məqsəd bir daha [ö] səsinin daha tez-tez tələffüzünə imkan yaratmaqdır. Cavablar ümumiləşdirilir. [Ö] səsi daha çox sözün əvvəlində və ortasında işlənir.

***II addım.*** [Ö] səsinin tələffüzü üzərində isi müəllim oxu bacarıqlarının formalaşdırılması ilə əlaqələndirir. Bu məqsədlə diqqəti dərslikdəki 4-cü çalışmaya yönəldir. Hecalar əvvəl müəllimlə bir dəfə oxunduqdan sonra şagirdlərin müstəqil oxumaları üçün müəllim vaxt verir. [Ö] səsinin tələffüzündə diqqətli olmaq tövsiyə olunur. Şagirdlər hecaları səsli oxuyurlar, müəllim oxu prosesini izləyir. [Ö] səsinin düzgün tələffüzünün formalaşması ilə bağlı korreksiya işi aparır. Sonra iş [ö] səsinin hecada yeri üzrə davam etdirilir. İşin sonunda ümumiləşdirilmiş fikir səsləndirilir: [Ö] səsi hecanın əvvəlində, ortasında, sonunda gələ bilir.

***III addım.*** Şagirdlərin diqqəti çalışmadakı fərqli rəngdə verilmiş hecalara cəlb edilir. Artıq şagirdlər onların həm də söz olduğunu bilirlər. Bu çalışma dili bilənlərin fəallaşdırılması üçün nəzərdə tutulur. Şagirdlər sözləri seçib deyir, mənalarını tədris dilində səsləndirirlər. Müəllim bu imkandan istifadə edərək [ö] səsinin tədris dilində işlənməsi üzərində şagirdlərin müşahidəsini təşkil edir:

— Uşaqlar, diqqətli olun, bu sözlərdə [ö] səsi eşidilirmi?

Sözlər səsləndikdən sonra müəllimin sualına cavab alınır: Tədris dilində [ö] səsi işlənmir. Şagirdlərin buna əminliyi dərslikdəki 5-ci çalışma üzərində işdə daha da artır.

***IV addım.*** Uşaqlar mətni müəllimlə birgə oxuyurlar. [Ö] səsinin tələffüzü diqqət mərkəzində saxlanılmaqla oxu bacarıqlarının formalaşdırılması üzrə iş gedir. Mətnin tərcüməsi zamanı şagirdlərin diqqəti tədris dilində [ö] səsinin eşidilib-eşidilmədiyinə də yönəldilir. Mətnin oxusu və tərcüməsi başa çatdıqdan sonra tədris dilində bu səsin işlənməsi ilə bağlı təsəvvür dəqiqləşdirilir: Tədris dilində [ö] səsi və onun işarəsi yoxdur.

[Ö] səsinin düzgün tələffüzü ilə bağlı bacarıqların formalaşdırılması mətn üzrə suallara cavab prosesində də izlənilir. Verilən cavablarda içərisində [ö] səsi işlənən sözlərdən istifadə olunur. Eyni zamanda, şagirdlərin danışma və cümlə qurmaq bacarıqları inkişaf etdirilir.

Uşaqlar atalar sözləri və nitq etiketləri ilə tanış edilirlər.

***V addım.*** Şagirdlərin cümlə qurmaq bacarıqları üzrə iş dərslikdəki 9-cü çalışma əsasında davam etdirilir.

**Nəticə və ümumiləşdirmə:** [Ö] sait səsdir. Hecanın əvvəlində, ortasında və sonunda işlənir. Tədris dilində bu səs yoxdur. [Ö] səsi «Öö» hərfi ilə işarə olunur. Şagirdlər verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir, mətni oxuyur və məzmununu izah edirlər.

**Ev tapşırığı: «Göz»** şəkli çəkin. 8-ci çalışmadakı şəkil üzrə cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Ö] SƏSİ VƏ «Ö» HƏRFİ (2-ci SAAT)

**Qeyd:** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı mövzunun 1-ci saatına baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [Ö] səsinin tələffüzü üzərində iş davam etdirilir. Tədris dilində bu səs olmadığından onun aydın məxrəcdə düzgün tələffüzünün formalaşdırılması çətinlik törədir. Çətinliyi nəzərə alaraq müəllim tələffüz üzərində işə xüsusi diqqət yetirməlidir. Təkhecalı sözlərin oxunaraq tələffüzü bu səsin aydın eşidilməsinə şərait yaradır. Tələffüz üzərində iş davam etdirilir. Bu vasitə ilə həm səsin hecada mövqeyi üzərində müşahidə aparılır, həm də həmin hecalar vasitəsilə yeni sözlərin lüğət tərkibinə daxil olması təmin olunur.

***II addım:*** «Öö» hərfinin yazılışı üzrə bacarıqlar nümunə əsasında formalaşdırılır.

***III addım:*** Cümlələr qurmaqla nitq bacarıqlarına yiyələnmək və tərcümə bacarıqlarının formalaşdırılması istiqaməti davam etdirilir. Dərslikdəki 7, 8, 9-cu çalışmalardan hər biri bu istiqamətin reallaşdırılmasına kifayət qədər material verir. Müəllimdən, sadəcə, bu imkanların reallaşdırılması üzrə işi təşkil etmək tələb olunur. Buraxılmış sözləri, xəbərlik və şəxs şəkilçilərini artırmaqla, sual sözlərini verilmiş uyğun sözlərlə əvəz etməklə, içərisində [ö] səsi işlənən sözlərdən istifadə etməklə verilmiş şəkil üzrə cümlələr qurmaq və danışmaq şagirdlərin bu istiqamətdə bacarıqlarının reallaşdırılmasını təmin edir.

***IV addım:*** Şagirdlərin oxu bacarıqlarının təkmilləşdirilməsi işinə də dərsdə yer ayrılmalıdır. Bu məqsədlə həm dərslikdəki mətnin, həm də verilmiş bayatının oxusu üzrə iş aparılması tövsiyə olunur. Atalar sözləri və nitq etiketi ilə şagirdlər tanış edilir.

**Ev tapşırığı:** Dərslikdə verilmiş bayatını əzbərləyin. Keçilmiş səsləri və hərfləri təkrar edin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 54-cü və 55-ci DƏRSLƏR. (§29)

## MÖVZU: [Ğ] SƏSİ VƏ «Ğ» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir; şəkildə gördüklərini (çalışma 7) birinci şəxsin dili ilə təsvir edir; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; «Ğğ» hərfini və sözləri düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 7).

**İnteqrasiya:** A-d. 1.2.4, 1.4.1, 3.2.1, 3.2.2, Riy. 1.1.1, Mus. 3.3.2, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə,böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Rollu oyun, beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim bir tapmaca deyir və həmin tapmaca yazılmış plakatı (plakatda «ğ» hərfinin yerinə göy dairə qoyulub) asır.

Alaca-bulaca, Uçdu, qondu ağaca. **(Sağsağan)**

— Uşaqlar, bu tapmacadakı bütün səsləri və onların işarələri olan hərfləri keçmisiniz? Tapmacanın cavabını tapmaq üçün vaxtınız olacaq. İndi isə tapmacanı oxumağa çalışın.

Müəllim oxu prosesini izləyir. Uşaqlar axırıncı sözü oxumaqda çətinlik çəkirlər. Müəllim müdaxilə edir:

— Uşaqlar, tapmacanın cavabında oxuya bilmədiyiniz hərf hansı səsin işarəsi olmalıdır? Ağac sözündə 2-ci səsə diqqət yetirin. Sözdə 2-ci hansı səs eşidilir? Əvvəlcədən deyim ki, tapmacanın cavabında 2 dənə [ğ] səsi işlənir. Şagirdlər tapmacanı tapmağa cəhd göstərirlər. Müəllim lövhədən asılmış **sığırçın, qarğa, sağsağan, ağacdələn** şəkillərini göstərir.

— Uşaqlar, bunlar nə şəkilləridir? (Quş)

— Bu quşları tanıyırsınızmı? Hansı quşların adını bilirsiniz, deyin. (Uşaqlar bir neçə quş adı deyirlər)

Müəllim lövhədəki quş adlarında [ğ] səsinin olduğunu söyləyir və şəkilləri adlandırır. Bu sözlərdə [ğ] səsinin harada eşidilməsi ilə bağlı müsahibə aparır. Müsahibəni tədris dilində həmin səsin işlədilməsi ilə bağlı davam etdirir. Tədris dilində [ğ] səsinin işlədilmədiyi bildirilir.

Müəllim «Ğğ» hərfinin çap və əlyazma nümunələrini nümayiş etdirir.

**Tədqiqat sualı:** [Ğ] necə səsdir? Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Tədris dilində [ğ] səsi və onun işarəsi varmı?

**Tədqiqatın aparılması:** ***I addım:*** Mövzunun əvvəlindəki sözlər şagirdlərin tanış olması üçün oxunur, [ğ] səsinin tələffüzünə diqqət yetirilməsi tövsiyə olunur. [Ğ] səsi Azərbaycan dili üçün spesifik səs olduğundan onun tələffüzü çətinliklə formalaşır. Müəllim bu problemi nəzərə alaraq tələffüz üzrə işə daha çox diqqət yetirməlidir. [Ğ] səsinin heca tərkibində tələffüzü üzrə işə keçilir. Dərslikdəki 3-cü çalışma üzrə iş [ğ] səsinin hecanın əvvəlində və sonunda işlədilməsi ilə bağlı təsəvvür formalaşdırır və səsin müxtəlif mövqelərdə tələffüzünə şərait yaradır. Tələffüz bacarıqlarının formalaşdırılması tapşırığın 2-ci hissəsi əsasında lüğət üzrə işlə əlaqələndirilir.

***II addım:*** Lüğət üzrə işə keçilir. Bu məqsədlə dərslikdəki 2-ci çalışmanın icrasına başlanır. Müəllim şəkilləri adlandırmaq üçün bir qədər vaxt verir. Bu şəkilləri adlandıran sözlərin hamısı şagirdlər üçün tanış olmaya bilər. Yardımçı sualla şagirdlərə müraciət olunur:

— Uşaqlar, şəkilləri adlandırarkən diqqətli olun. Bütün sözlərdə [ğ] səsi işlənirmi?

Vaxt bitdikdə qruplarla işə keçilir. Qruplardan birinin lideri şəkli adlandırır, digər lider sözdə səsin sayını, başqa lider onun yerini müəyyənləşdirir. Nəticələr lövhədəki sxemdə əks olunur. Müzakirə başlanır.

***III addım:*** Səsin tələffüzü üzərində aparılan iş oxu bacarığının formalaşdırılmasına imkan verir. Dərslikdəki 5-ci çalışmadakı mətnin oxusu təşkil olunur.

***IV addım:*** Cümlə qurmaq bacarığı üzrə işə oxu vasitəsilə keçilir. Dərslikdəki 10-cu çalışmanın oxusu zamanı şagirdlər cümlə modelləri ilə praktik şəkildə tanış olur və sözlərin şəxslərə görə dəyişməsi üzərində müşahidə aparmaq imkanı əldə edirlər. Daha sonra 9-cu çalışmadakı suallar əsasında rollu oyun təşkil edilir. Vaxt imkan verdikdə şagirdlər dərslikdəki etiketlə tanış edilirlər. «Kukla» şeirinin mahnı şəklində oxusu ilə dərs yekunlaşır.

**Nəticə və ümumiləşdirmə:** [Ğ] səsi Azərbaycan dilində sözün əvvəlində işlənmir, ancaq sözün ortasında və sonunda işlənir. Tədris dilində bu səs və onu işarə edən hərf yoxdur. [Ğ] səsi «Ğğ» hərfi ilə işarə olunur.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** «Kukla» mahnısını öyrənin. Dağ şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [Ğ] SƏSİ VƏ «Ğ» HƏRFİ (2-ci SAAT)

**Qeyd:** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı mövzunun 1-ci saatına baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [Ğ] səsinin düzgün tələffüzü üzrə bacarıqların təkmilləşdirilməsi işi hecalarda səsin müxtəlif mövqelərdə oxusu əsasında aparılır. Bu iş hecalardan sözlərin düzəldilməsi ilə əlaqələndirilir. Müvafiq şəkillərə baxmaqla şagirdlər həm lüğətlərini genişləndirir, həm də hecaların işləndiyi sözləri tapıb deyirlər. Sonra dərslikdəki 4-cü çalışma əsasında problem situasiya yaradılır. Şagirdlər [ğ] səsi ilə başlayan sözlər tapmağa cəhd göstərirlər. Müzakirə nəticəsində Azərbaycan dilində belə sözlərin olmadığı müəyyənləşir.

***II addım:*** «Ğğ» hərfinin yazılışı nümunələr əsasında təşkil edilir.

***III addım:*** Oxu bacarıqlarının təkmilləşdirilməsi davam etdirilir. Bu gələcək zaman şəkilçiləri ilə praktik tanışlığa imkan yaradır. Həm şeirdə, həm də çalışma mətnində içərisində [ğ] səsi olan sözlər işlənmişdir. Bu, tələffüz üzrə bacarıqları da izləməyə imkan verir. Hər hansı bir lətifə verilir və bu şagirdlərin marağına səbəb olduğu üçün həvəslə oxunur.

***IV addım:*** Cümlə və kiçik həcmli mətn tərtibi üzərində iş tərcümə bacarığının formalaşdırılması ilə əlaqələndirilir. Dərslikdəki 6 və 7-ci çalışmalar bu istiqamətdə işlər aparmağa kifayət qədər material verir.

Dərsin sonunda dərslikdəki tapmaca oxunur, cavab tapılır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** «Yaz günləri» şeirini əzbərləyin. Dərslikdəki etiketlərdən istifadə etməklə cümlələr qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 56-cı və 57-ci DƏRSLƏR. (§30)

### MÖVZU: [H] SƏSİ VƏ «H» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 2.1.1.; 2.2.1.; 2.2.2.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; şəkildə gördüklərini (çalışma 5) birinci şəxsin dili ilə təsvir edir; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə təlim dilinə və əksinə tərcümə edir; «Hh» hərfini və sözləri düzgün yazır; verilmiş söz birləşməsi və cümlə nümunələrini düzgün yazır.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, 3.2.1, X-d. 2.2.4, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Rollu oyun, beyin həmləsi, müzakirə.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim meyvə (**nar, armud, üzüm, heyva, alma**), ev quşları (**toyuq, ördək, hinduşka, qaz**) və vəhşi heyvanların (**canavar, tülkü, maral, zürafə**) şəkillərini qarışıq asır və onları qruplaşdırmağı təklif edir. Sözlər səsləndirilir, sözlərin hansında [h] səsinin eşidilməsi ilə bağlı müsahibə aparılır və həmin şəkilləri ayırmaq tapşırılır. Heyvan şəkilləri içərisində [h] səsi işlənən söz olmadığından müəllim müsahibəni bu şəkillərin nə üçün bir qrupda toplandığı üzərində davam etdirir. Onların hamısının heyvan olduğu bildirilir. Müəllim onların necə heyvan (ev, yoxsa vəhşi) olduğunu soruşur. Vəhşi sözünü uşaqların bilmək ehtimalı az olduğundan müəllim sualı iki variantda qoyur.

**Heyva, hinduşka, heyvan, vəhşi** sözlərində [h] səsinin yerinə diqqət yönəldilir. Problemli situasiya yaranır. Müəllim müdaxilə edir. [H] səsinin işarəsi çap və əlyazma formasında nümayiş etdirilir.

**Tədqiqat sualı:** [H] necə səsdir? Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Tədris dilində bu səs və hərf varmı?

**Tədqiqatın aparılması:** ***I addım:*** Mövzunun əvvəlindəki sözlərlə şagirdlər tanış edilir, [h] səsinin tələffüzünə diqqət yönəldilir. Sonra «Sehirli torba» oyunu keçirilir. Torbaya **heyva, nar, hörümçək, hörük, şahmat, heykəl, pişik, maral, daraq, bıçaq** oyuncaq, fiqur və mulyajları qoyulur. Oyunun qaydası şagirdlərə məlumdur. Əşyalar çıxarılır, adları səsləndirilir. İçərisində [h] səsi olan əşyaların fiqurları bir tərəfə, digər əşyaların fiqurları başqa tərəfə qoyulur. Sonra qrupların digər üzvləri içərisində [h] səsi olan əşyaları götürüb sözləri tələffüz edir və [h] səsinin sayını və yerini müəyyənləşdirirlər. Oyun yekunlaşır və qalib qrup elan olunur.

Sonra dərslikdəki 2-ci çalışmadakı şəkillər bir daha adlandırılır, məqsəd sözlərin fəallaşdırılması və səsin tələffüzünün formalaşdırılmasıdır.

***II addım:*** [H] səsinin heca daxilində tələffüzü dərslikdəki 3-cü çalışma vasitəsilə icra edilir.

***III addım:*** Dərslikdəki «And yerimiz» mətninin oxusu təşkil edilir. Oxu prosesində oxu bacarıqlarının formalaşdırılması ilə yanaşı, [h] səsinin düzgün məxrəcdə tələffüzü də izlənir. Mətnin oxusu, eyni zamanda, şagirdlərin vətənpərvərlik hislərinin formalaşmasına yönəldilir.

***IV addım:*** Dərslikdəki 5, 6, 7, 11-ci çalışmalar üzrə iş şagirdlərin cümlə qurmaq və danışmaq bacarıqlarının inkişafına şərait yaradır, eyni zamanda, lüğətin fəallaşdırılmasına və düzgün tələffüz bacarıqlarının formalaşmasına da kömək edir.

**Nəticə və ümumiləşdirmə:** [H] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. [H] səsi «Hh» hərfi ilə işarə olunur. [H] səsi və hərfinin təlim dilində olub-olmamasına münasibət bildirilir.

**Ev tapşırığı:** «Durnalar» şeirini oxuyun və əzbərləyin. Valideynləriniz və ya müəllimlərinizlə şəhidlərin məzarını ziyarət edin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [H] SƏSİ VƏ «H» HƏRFİ (2-ci SAAT)

**Qeyd:** Dərsin təşkili üzrə ümumi məsələlərlə bağlı mövzunun 1-ci saatına baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** [H] səsinin düzgün tələffüzü üzrə bacarıqların təkmilləşdirilməsi işinə başlanır. [H] səsi müxtəlif mövqedə işlənən hecalar oxunur, səsin düzgün məxrəcdə, aydın tələffüzü izlənilir.

***II addım:*** «Hh» hərfinin yazılışı üzərində iş nümunələr vasitəsilə aparılır. İş növləri əvəz edilməklə dərslikdəki 8-ci çalışmanın yerinə yetirilməsi şagirdlərin yazı bacarıqlarının səviyyəsini aşkara çıxarmağa imkan yaradır.

***III addım:*** Cümlə və söz birləşmələri tərtib etmək, danışmaq bacarıqları dərslikdəki 10-cu çalışma üzərində işlə davam etdirilməlidir.

***IV addım:*** Şagirdlərin oxu texnikasının təkmilləşdirilməsi işi cümlə və söz birləşmələri ilə əlaqədar nitq modellərinin dərslikdəki mətnin oxusu ilə davam etdirilir. Oxu üzrə işlər nitq fəaliyyətinin digər növləri ilə əlaqəli aparılır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Şəhidlərə həsr olunmuş şeirlər tapıb oxuyun. **Hinduşka** şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 58-ci və 59-cu DƏRSLƏR. (§31)

## MÖVZU: [P] SƏSİ VƏ «P» HƏRFİ (1-ci SAAT)

**Standart:** 1.1.2.; 2.1.1.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir; şəkildə gördüklərini (çalışma 5) birinci şəxsin dili ilə təsvir edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə təlim dilinə və əksinə tərcümə edir; «Pp» hərfini və sözləri düzgün yazır; verilmiş söz birləşməsi və cümlə nümunələrini düzgün yazır.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, 3.2.1, Riy. 1.1.1, H-b. 3.3.2, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Rollu oyun, beyin həmləsi, müzakirə, Venn diaqramı.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim motivasiyaya müsahibə ilə başlayır:

— Uşaqlar, bir otağa (sinif, mənzil) girmək üçün əvvəlcə nə edirik? (Qapını açırıq)

— Bəs otağın havasını dəyişmək üçün nə edirik? (Pəncərəni açırıq)

— **Qapı və pəncərə** sözlərində indiyə qədər keçmədiyiniz hansı səsi eşidirsiniz? ([P] səsini) [P] səsi bu sözlərdə hansı hissədə eşidilir? (Əvvəldə və ortada).

Müəllim Novruz bayramının adətləri ilə əlaqədar müsahibə yolu ilə də motivasiya qura bilər. (**Papaq atmaq, paxlava, şəkərbura bişirmək, qapı pusmaq** və s. adətləri xatırlatmaqla içərisində [p] səsi olan sözlər üzərində fonematik təhlil apara bilər)

Sonra müəllim sinfə müraciət edir:

— Uşaqlar, [ş] səsini keçəndə bir tapmaca demişdik, indi mən o tapmacanı bir daha söyləyəcəyəm. Siz o tapmacanın cavabını bilirsiniz, cavabda [p] səsi işlənir. Bəlkə, kimsə həmin tapmacanı demək istəyir? Uşaqlar xatırlamadıqda tapmaca deyilir:

***Bizim evdə bir kişi var, Xor-xor yatışı var.*** **(Pişik)**

Tapmacanın cavabı söylənir. Müəllim yeni bir tapmaca deyir:

***İynəsi çox, Tikanı yox,***
***Əti dərman, Özü heyvan.*** **(Kirpi)**

Bu tapmacanın cavabında [p] səsi ortada gəlir. Uşaqlar tapmacanın cavabını axtarırlar. Müəllim sinfə müraciət edir:

— Uşaqlar, içərisində [p] səsi olan hansı tərəvəzləri tanıyırsınız? (**Pomidor, turp, qarpız**)

— Tədris dilində bu səsin işlənməsinə aid nümunələr deyə bilərsinizmi?

— Deyə bilərikmi, tədris dilində də [p] səsi var?

Şagirdlər [p] səsinin çap və əlyazma işarələri ilə tanış edilir.

**Tədqiqat sualı:** [P] necə səsdir? Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Azərbaycan və tədris dillərində olan [p] səsi eyni hərfləmi yazılır?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim mövzunun əvvəlində verilmiş sözləri heca ilə oxuyaraq təqdim edir. [P] səsi tədris dilində olduğundan onun tələffüzünün mənimsədilməsi ciddi çətinlik törətmir. Dərslikdəki 2-ci çalışmada verilmiş şəkillərin adlandırılması [p] səsinin müxtəlif mövqelərdə tələffüzü üçün şərait yaratmış olur. Əşyalar şagirdlərə tanış olduğundan onların adlandırılması çox vaxt almır. Çalışmanın II hissəsi üzərində iş səsin sayı və yerinin müəyyənləşdirilməsi barədə təsəvvürlərin genişlənməsinə kömək edir. Müəllim bu tapşırıq üzərində işi də oyun formasında, yaxud cütlərlə təşkil edə bilər.

***II addım:*** Sözlərdə səsin yeri üzərində iş hecada [p] səsinin yeri və tələffüzü üzrə işə keçməyə imkan verir. Dərslikdəki 3-cü çalışmanın icrası [p] səsinin spesifik səslərlə yanaşı tələffüzündə qarşıya çıxan çətinlikləri aşkara çıxarmağa imkan verir.

***III addım:*** Dərslikdəki «Əziz bayramımız» mətninin oxusu təşkil edilir. Mətndə içərisində [p] səsi olan sözlərin, adların işlədilməsi həmin səslə bağlı ilkin oxu bacarıqlarının formalaşmasını təmin edir. Mətn milli-mənəvi dəyərlərimizin qorunub saxlanılması, adət-ənənələrimizin yaşadılması istiqamətində təsəvvürləri genişləndirir. Mətnin həcminin böyüklüyü narahatlıq yaratmamalıdır. Əksinə şüurlu oxu texnikasına yiyələnməkdə yığcam mətn o qədər də faydalı olmur.

***IV addım:*** Cümlə və söz birləşmələri tərtib etmək və danışmaq bacarıqlarının formalaşdırılması istiqamətində işlər aparmaq üçün dərslikdə rəngarəng iş növləri- çalışmalar nəzərdə tutulmuşdur. Dərslikdəki 7, 8, 9, 13 çalışmalar sinfin səviyyəsinə uyğun iş qurmağı və şagirdlərin bu məzmun xətti üzrə təlim nəticələri əldə etmələrini təmin edir.

***V addım:*** Dərslikdəki «Gəl bahar» və «Səməni» şeirlərinin oxusu üzrə iş aparmaq tövsiyə olunur.

**Nəticə və ümumiləşdirmə:** [P] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və tədris dillərində olan [p] səsi fərqli hərflərlə yazılır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** **Səməni** şəkli çəkin, «Səməni» şeirini əzbərləyin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: [P] SƏSİ VƏ «P» HƏRFİ (2-ci SAAT)

**Qeyd**. Məqsəd, standart, təlim nəticələri, inteqrasiya, dərsin tipi, üsulu, forması, resurslarla bağlı mövzunun 1-ci saatına baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** İş oyun-yarış formasında təşkil olunur. Bu iş həm də şagirdlərdə maraq oyadır, onları axtarışa sövq edir. Qruplardan birinə təklif edilən hecaya uyğun sözü lider şəkil əsasında deyir, digər üzvlər əlavə misallar tapırlar. Nəticələr oyun yekunlaşdıqdan sonra müzakirə olunur.

***II addım:*** «Pp» hərfinin yazılışı təşkil edilir. Bu hərfin kalliqrafiyası tədris dilindən şagirdlərə məlum olduğundan onun yazılışı çətinlik törətmir, odur ki, əsas diqqət hərfin mənimsədilməsi üzrə işlərə yönəldilməlidir.

***III addım:*** Oxu texnikasının inkişafı dərslikdəki dialoq hər hansı bir şeir və lətifənin oxusu ilə davam etdirilir. Digər çalışma mətnləri üzərində işlər zamanı da bu istiqamətə diqqət yetirilməlidir.

***IV addım:*** Şagirdlərdə oxu və cümlə qurmaq üzrə işlər ilkin tərcümə bacarıqlarının formalaşmasına da imkan yaradır. Dərslikdəki 11-ci çalışma bu məqsəd üçün nəzərdə tutulmuşdur.

***V addım:*** Cümlə qurmaq, danışmaq bacarıqlarının, ünsiyyətə girmək qabiliyyətinin inkişafı dərslikdəki 13-cü çalışmanın icrası, dialoqun məzmunu üzərində iş vasitəsilə davam etdirilir.

***VI addım:*** İmla yazı vasitəsilə yazı bacarıqlarının səviyyəsi müəyyənləşdirilir. Şagirdlər nitq etiketi və atalar sözləri ilə tanış edilirlər.

**Ev tapşırığı:** «Yaz gəlir» mövzusunda kiçik mətn qurun.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 60-cı DƏRS. (§32)

## MÖVZU: [J] SƏSİ VƏ «J» HƏRFİ

**Standart:** 1.1.2.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; mətni oxuyur və məzmununu izah edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; şəkildə gördüklərini (çalışma 4) birinci şəxsin dili ilə təsvir edir; «Jj» hərfini və sözləri düzgün yazır; kiçikhəcmli mətn yazır (çalışma 4).

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, 3.2.1, 3.2.2, X-d. 2.2.4, H-b. 1.4.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Rollu oyun, müzakirə, beyin həmləsi, Venn diaqramı.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim şagirdlərə tədris dilində içərisində [j] səsi işlənən sözlər deməyi təklif edir. Nümunələr səsləndirilir. Müəllim lövhədən asılmış plakatı (plakatda ●urnal, ●aket, ●alə sözləri yazılıb) göstərir və sinfə müraciət edir:

— Uşaqlar, sizcə, bu sözləri oxumaq üçün hansı səsin işarəsi çatışmır? Axı siz bir səsdən başqa artıq bütün səslərin işarələrini keçmisiniz.

Uşaqlardan [j] səsinin işarəsinin çatışmadığını söyləyənlər var.

— Uşaqlar, deyə bilərikmi, həm tədris, həm də Azərbaycan dilində [j] səsi var? (Təsdiqlənir) Müəllim «Jj» hərfini çap və əlyazma formasında göstərir.

**Tədqiqat sualı:** [J] səsi Azərbaycan dilində sözün hansı hissəsində işlənir? Azərbaycan və tədris dillərində bu səs eyni hərflərmi işarə olunur?

**Tədqiqatın aparılması:** ***I addım:*** Mövzunun əvvəlində verilmiş sözlərlə şagirdlər tanış edilir. [J] səsinin tələffüzü üzərində iş aparılır. Dərslikdəki 2-ci və 3-cü çalışmalar icra olunur.

***II addım:*** Dərslikdəki mətnin oxusu təşkil olunur. Mətndə içərisində [j] səsi olan adların işlənməsi həmin səslə bağlı ilkin oxu bacarıqlarının formalaşdırılmasına imkan verir. Mətn üzrə işdə yalnız «Jj» hərfinin oxusu izlənməməlidir. Artıq bütün hərflər keçildiyindən şagirdlərin oxu texnikasının səviyyəsinə diqqət yetirilməlidir. Oxu üçün dərslikdəki dialoq və şeirlərdən də istifadə oluna bilər.

***III addım:*** Cümlə qurmaq və danışmaq bacarıqlarının inkişafı dərslikdəki mətn üzrə suallara cavab (çalışma 6) və şəkil əsasında cümlələrin tamamlanması (çalışma 11) şəklində aparılır, sonra 4-cü çalışmadakı şəkil üzrə davam etdirilir.

***IV addım:*** Lüğətin genişləndirilməsi üzrə iş yeni keçilmiş sözlərin cümlə içərisində işlədilməsi və mənasının mənimsədilməsi yolu ilə həyata keçirilir.

***V addım:*** Yazı bacarığının formalaşdırılması nümunələr əsasında təşkil olunur.

**Nəticə və ümumiləşdirmə:** [J] səsi Azərbaycan dilində sözün əvvəlində, ortasında və sonunda işlənir. Azərbaycan və tədris dillərində olan [j] səsi fərqli (eyni) hərflərlə yazılır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** Dərslikdə 10-cu çalışmadakı dialoq əsasında özünüz kiçik bir dialoq qurun. İçərisində [j] səsi olan adlar tapın. «Açıl bənövşə» şeirini əzbərləyin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## 61-ci və 62-ci DƏRSLƏR. (§33)

### MÖVZU: MƏNİM VƏTƏNİM (1-ci SAAT)

**Standart:** 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 2.2.2.; 2.2.3.; 3.1.2.; 3.1.3.

**Təlim nəticələri:** Şagird dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir; kiçikhəcmli sadə cümlələri düzgün intonasiya ilə tələffüz edir; şəkildə gördüklərini (iş dəftəri-çal.12) birinci şəxsin dili ilə təsvir edir; sadə cümlələrdən istifadə etməklə kiçikhəcmli dialoq qurur; mətni oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, 3.2.1, X-d. 2.1.1, 2.2.4, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə,böyük və kiçik qruplarla iş.

**Dərsin üsulu:** Beyin həmləsi, müzakirə, rollu oyun.

**Resurslar:** Dərslik, plakat, şəkillər, hərflər toplusu, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim Azərbaycanla bağlı müxtəlif şəkilləri (Qız qalası, Göygöl, Şirvanşahlar sarayı, Qobustan qayalarındakı rəsmlər, Xudafərin körpüsü, Nizaminin məqbərəsi, Damcılı bulağı) nümayiş etdirir:

— Uşaqlar, şəkillərdə gördükləriniz barədə məlumatınız varmı? (Müəllim bu şəkillərin hər birini ayrıca göstərməklə də müsahibəni qura bilər).

— Nizami haqqında nə bilirsiniz? Nizaminin məqbərəsi harada yerləşir?

— Şirvanşahlar sarayını görmüsünüzmü?

— Bakı şəhəri harada yerləşir?

Müəllim müsahibəni bu istiqamətdə davam etdirir. Şagirdlər suallara çətinliklə də olsa, cavab verməyə cəhd göstərirlər.

**Tədqiqat sualı:** Vətənimiz Azərbaycan necə ölkədir? Azərbaycan haqqında nə bilirəm?

**Tədqiqatın aparılması:** ***I addım:*** Mövzunun əvvəlində verilmiş yeni sözlərlə şagirdlər tanış edilir. Şagirdlərin tələffüz və oxu bacarıqlarının inkişafı istiqamətində işlər aparılır. Dərslikdəki «Mənim Vətənim» mətninin oxusu təşkil edilir. Mətnin oxusu yeni sözlərin mənimsədilməsinə, oxu texnikasının təkmilləşdirilməsinə yönəldilir. Şagirdlərin Azərbaycan haqqında təsəvvürlərinin genişləndirilməsinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə mətnin oxusu ilə başlanan iş çalışma mətnləri vasitəsilə daha da genişləndirilir.

***II addım:*** Cümlə qurmaq və danışmaq bacarıqları dərslikdəki müxtəlif istiqamətli çalışmalar vasitəsilə genişləndirilir. 1-ci çalışmadakı suallar cümlə qurmaqla yanaşı, məzmunun qavranılması, Azərbaycan haqqında təsəvvürlərin formalaşma səviyyəsini müəyyənləşdirmək məqsədi daşıyır. Dərslikdəki 2-ci, 4-cü, 5-ci çalışmalar söz birləşmələri və cümlə qurmaq bacarıqlarını inkişaf etdirir, danışma məzmun xəttinin reallaşması üçün hazır nitq modelləri ilə şagirdləri təmin edir. Azərbaycan dilində mənsubluq anlayışı, şəxsə və kəmiyyətə görə dəyişmə ilə praktik tanışlığa şərait yaradır, 5-ci çalışma Heydər Əliyev və Azərbaycan, idmanın inkişafında İlham Əliyevin rolu ilə bağlı cümlələr qurmağa stimul verir.

***III addım:*** Şagirdlərin anlama bacarıqlarının səviyyəsi tərcümə üzrə işlərlə izlənilir. Dərslikdəki mətnin, cümlə və söz birləşmələri qurmaq üçün nəzərdə tutulmuş didaktik materialların tərcüməsi bu məqsədə xidmət edir. Şagirdlərin Vətən sevgisinin dərinləşməsinə «Vətənin keşiyində» şeirinin oxusu və dərslikdəki atalar sözləri ilə tanışlıq da müsbət təsir göstərir.

**Nəticə və ümumiləşdirmə:** Azərbaycan bizim ümumi Vətənimizdir. Burada müxtəlif xalqların nümayəndələri yaşayır. Vətənimiz azaddır. Azərbaycan qədim və zəngin bir ölkədir. Azərbaycan vətəndaşı olmaqla fəxr edirik.

**Ev tapşırığı:** «Vətənin keşiyində» şeirini əzbərləyin. Qız qalasının şəklini çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## MÖVZU: MƏNİM VƏTƏNİM (2-ci SAAT)

**Qeyd**. Dərsin təşkili ilə əlaqədar ümumi məsələlərlə bağlı mövzunun 1-ci saatına baxmaq tövsiyə olunur.

**Dərsin gedişi**

**Tədqiqatın davamı:** ***I addım:*** Şagirdlərin düzgün tələffüz bacarıqlarının inkişafı və təkmilləşdirilməsi işi oxu bacarıqlarının təkmilləşdirilməsi ilə müvazi aparılır. Dialoq qurulur. Dialoqda, digər çalışmalarda oxu və praktik tanışlıq üçün verilmiş söz birləşmələrində spesifik səslərin daha çox işlədilməsi məhz bu istiqamətdə işlər aparmaq üçün nəzərdə tutulmuşdur. Odur ki, müəllim dialoqun rollar üzrə oxusunu təşkil etməli, düzgün tələffüzün formalaşmasını izləməlidir.

***II addım:*** Şagirdlərin yazı bacarıqlarının səviyyəsi imla yazı vasitəsilə izlənilir.

***III addım:*** Tələffüz üzrə işlər, eyni zamanda, söz birləşmələri tərtib etməklə hazır nitq modelləri ilə praktik tanışlığa real imkan yaradır, həmin söz birləşmələrinə xəbərlik şəkilçisinin artırılması ilə birləşmələrin cümləyə çevrilməsi üzərində müşahidə aparılır, Azərbaycan dilində cins kateqoriyasının olmadığına tərcümə zamanı xüsusi diqqət yetirilir və bununla bağlı təsəvvür genişləndirilir. Bu çalışmalarda vətən, xalq, ölkə və s. kimi sözlərin müxtəlif birləşmələrdə və cümlələrdə işlədilməsi həm həmin sözlərin şagirdlərin lüğətində fəallaşmasını təmin edir, həm də bu yolla Vətən anlayışı dərinləşdirilir.

Cümlə qurmaq istiqamətində işlər üçün nəzərdə tutulur. Lətifənin oxusu şagirdləri maraqlandırır, spesifik səslərin tələffüzünü təmin edir. «Lalə» şeirinin oxusu Vətən gözəlliklərini duymağa kömək edir, vətən sevgisini artırır.

**Yaradıcı tətbiqetmə və ev tapşırığı:** «Lalə» şeirini əzbərləyin. Yeni öyrəndiyiniz sözləri cümlələrdə işlədin. Lalə şəkli çəkin.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

# 63-cü və 64-cü DƏRSLƏR. (§34)

## MÖVZU: İL ƏRZİNDƏ KEÇİLƏNLƏRİN TƏKRARI VƏ ÜMUMİLƏŞDİRİLMƏSİ

**Standart:** 1.1.1.; 1.1.2.; 1.1.3.; 2.1.1.; 2.1.2.; 2.2.1.; 2.2.2.; 2.2.3.; 3.1.1.; 3.1.2.; 3.1.3.; 4.1.1.; 4.1.2.; 4.1.3.

**Təlim nəticələri:** Şagird müraciətlərə uyğun sadə tapşırıqları icra edir; dinlədiyi kiçikhəcmli mətndəki çətin sözləri müəyyənləşdirir; dinlədiyi kiçikhəcmli mətnin məzmununa aid suallar tərtib edir; verilmiş söz və söz birləşmələrini düzgün tələffüz edir; kiçikhəcmli sadə cümlələri (nəqli, sual) müvafiq qaydalara uyğun intonasiya ilə tələffüz edir; müşahidə etdiyi əşya və hadisələri qruplaşdırır; müşahidə etdiyi əşya və hadisələri birinci şəxsin dili ilə təsvir edir; sadə cümlələrdən (nəqli, sual) istifadə etməklə kiçikhəcmli dialoq qurur; hərfləri və sözləri, söz birləşmələri və cümlələri düzgün oxuyur; bir neçə cümlədən ibarət kiçik mətnləri oxuyur və məzmununu izah edir; oxuduğu mətndəki

sözləri lüğət vasitəsilə tədris dilinə və əksinə tərcümə edir; hərfləri və sözləri düzgün yazır; verilmiş söz birləşmələri və cümlə nümunələrini düzgün yazır; kiçikhəcmli mətnlər yazır.

**İnteqrasiya:** A-d. 1.1.3, 1.2.4, 1.4.1, 3.2.1, X-d. 1.1.2, 2.2.4, Riy. 1.1.1, H-b. 1.4.2, 2.3.1., 3.2.1, T-i. 2.2.2.

**Dərsin tipi**: İnduktiv.

**Dərsin forması:** Kollektivlə, böyük və kiçik qruplarla iş, cütlərlə iş.

**Dərsin üsulu:** Beyin həmləsi, şaxələndirmə, diskussiya, oyun-tapmaca.

**Resurslar:** Dərslik, şəkillər, plakat, hərflər toplusu, iş vərəqləri.

**Dərsin gedişi**

**Motivasiya:** Müəllim hər qrupa stolun üstündəki zərflərdən birini götürməyi təklif edir. Hər zərfdə bir ümumiləşdirici söz (meyvələr, çiçəklər, tərəvəz, ərzaq, paltar, məktəb ləvazimatları, quş, heyvan) verilir. Qrupun lideri zərfi açır və oxuduğu sözün əlamətlərini işarələrlə qrup üzvlərinə anladır. Hər sözə aid 5 nümunə söyləmək tələb olunur. Qruplara konkret vaxt verilir. Vaxt tamam olduqda oyun dayandırılır. Nəticələr əsasında motivasiya yaradılır. Digər bir oyun keçilmiş hərflərlə bağlı aparılır. Hər zərfə bir hərf qoyulur. Hərflər spesifik səslərlə bağlı olur (ü, ə, c, h, ö, ğ, g). Zərfləri götürən lider hərfləri qrup üzvlərinə göstərir. Çıxarılan hərflərin müxtəlif mövqelərdə işlənməsinə aid 5 nümunə deyilməsi tələb olunur.

**Tədqiqat sualı:** Azərbaycan dilindəki bütün hərfləri düzgün yaza və səsləri düzgün tələffüz edə bilirikmi? Verilmiş sözləri, cümlələri düzgün oxuya və həmin sözlərdən nitqimizdə istifadə edə bilirikmi?

**Tədqiqatın aparılması:** ***I addım:*** Müəllim şagirdlərin tələffüz bacarıqları üzrə təkrar aparır. Stolun üstündə hərflər yazılmış kartoçkalar qoyulur. Şagirdlər stola yaxınlaşaraq kartoçkalardan birini açır və işarəsini gördüyü səsi ayrılıqda tələffüz edir, həmin səsin işləndiyi (müxtəlif mövqedə) üç nümunə söyləyir. Bu istiqamət təkrar oxu zamanı da izlənir.

***II addım:*** Cütlərlə iş təşkil olunur. Cütlərə dərslikdəki 2-ci çalışmadakı bir sxemi tamamlamaq tapşırılır. Təqdimatlar hazırlanır, müzakirə aparılır.

***III addım:*** Qruplarla iş təşkil olunur. Hər qrupa ayrı-ayrı tapşırıqlar verilərək yerinə yetirmək tapşırılır. Təqdimatlar əsasında müzakirə aparılır.

***IV addım:*** Oxu bacarıqlarının səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə dərslikdəki «Tülkü və kəklik» mətninin oxusu üzrə iş aparılır.

Oxu bacarıqlarının səviyyəsi üzərində iş dialoqun rollar üzrə oxusu yolu ilə davam etdirilir.

***V addım:*** Şagirdlərin söz birləşmələri və cümlə qurmaq bacarıqlarının səviyyəsi dərslikdəki 1, 7, 9, 11-ci çalışmalar, rabitəli kiçik mətnlər üzrə isə 8 və 12-ci çalışmalar vasitəsilə müəyyənləşdirilə bilər. Dialoqun oxusu üzrə işlər növbəti dərsdə yerinə yetirilir.

Dərsin II saatı daha çox keçilənlərin ümumiləşdirilməsinə həsr edilir. Bu məqsədlə yoxlama testləri və çalışmalar (dərslikdəki 14 və 15-ci çalışmalar) üzrə yekunlaşdırıcı işlər aparılır.

**Nəticə və ümumiləşdirmə:** Azərbaycan dilində 34 səs və 32 hərf var. [Ğ və ı] səslərindən başqa, Azərbaycan dilində bütün səslər sözün müxtəlif mövqelərində işlənir. [Ü, ö, ə, g, ğ, h, c] səsləri Azərbaycan dilinin spesifik səsləridir. Azərbaycan dilindəki [a, ı, o, u, e, ə, i, ö, ü] səsləri sait, qalanlar isə samit səslərdir.

**Ev tapşırığı:** «Azərbaycan dilindən nələri öyrənmişəm» mövzusunda danışmağa hazırlaşın.

**Qiymətləndirmə:** Qiymətləndirmə vəsaitin 12-ci səhifəsindəki cədvəllər əsasında aparılır.

## YEKUN QİYMƏTLƏNDİRMƏ TESTLƏRİ

**1. Bütün sözlərdə işlənən hərfi tapın.**

Anar, nar, nənə, Nanə, nə
a) a; b) n; c) b; d) ə; e) r

**2. Bütün sözlərdə işlənən hərfi tapın.**

Banu, Anar, nar, ata, baba
a) a; b) r; c) u; d) n; e) b

**3. Hansı söz artıqdır?**

a) Ata; b) at; c) ana; d) nənə; e) baba

**4. Hansı söz artıqdır?**

a) nənə; b) baba; c) nə; d) Nanə; e) ata

**5. Səhv haradadır?**

a) Bu, babadır; b) Bu, nənədır; c) Bu, tardır; d) Bu, almadır.

**6. Səhv haradadır?**

a) Bu, nənədir; b) Bu, anadir; c) Bu, Lalədir; d) Bu, ələkdir.

**7. Səhv haradadır?**

a) O alır; b) O tutur; c) O yazırsan; d) O gətirir.

**8. Səhv haradadır?**

a) Mən alıram; b) Mən gəlir; c) Mən otururam; d) Mən tuturam.

**9. «Bu nədir» sualına cavablardan səhv olanı tapın.**

a) Bu, atdır; b) Bu, babadır; c) Bu, pişikdir; d) Bu, almadır; e) Bu, tardır.

**10. «Bu kimdir» sualına cavablardan səhv olanı tapın.**

a) Bu, Lalədir; b) Bu, qızdır; c) Bu, xaladır; d) Bu, qaranquşdur; e) Bu, əmidir.

**11. «Nə» sualına cavab olmayan sözü tapın.**

a) papaq; b) fil; c) dovşan; d) uşaq; e) qaşıq

**12. «Kim» sualına cavab olmayan sözü tapın.**

a) bacı; b) qardaş; c) müəllim; d) tülkü; e) direktor

**13. «Bu kimdir» sualına cavablardan biri səhvdir.**

a) Bu, nənədir; b) Bu, atadır; c) Bu, atdır; d) Bu, dayıdır.

**14. «Bu kimdir» sualına cavablardan biri səhvdir.**

a) Bu, komandirdir; b) Bu, Anardır; c) Bu, inəkdir; d) Bu, Lalədir; e) Bu, mənəm.

**15. Səhv haradadır?**

a) dəfdər; b) müəllim; c) məktəb; d) çanta

**16. Yazılışında  səhvə yol verilmiş sözü tapın.**

a) xoruz; b) toyux; c) quzu; d) inək

**17. Düzgün cavabı göstərin:**

a) bayrax; b) xalx; c) gözəl; d) məytəb

**18. Hansı söz hecaya düzgün bölünməmişdir?**

a) və-tən; b) kit-ab; c) qə-ləm; d) bay-raq

**19. Hansı söz hecaya düzgün bölünmüşdür?**

a) in-ək; b) qoy-ur; c) ya-tır; d) yuy-ur

**20. Hansını səbətə qoymaq olmaz?**

a)  b)  c)  d)  e) 

**21. Hansını yumaq olmaz?**

a)  b)  c)  d)  e) 

**22. Hansı ev heyvanı deyil?**

a)  b)  c)  d)  e) 

**23. Hansını suya qoymaq lazımdır?**

a)  b)  c)  d)  e) 

**24 . Hansını yemək olmaz?**

a)  b)  c)  d)  e) 

**25. Hansı yeyilmir?**

a)  b)  c)  d)  e) 

**26. Hansını cırmaq olmaz?**

a) 

b) 

c)  d)  e) 

**27. Hansı artıqdır?**



a) b) c) d) e)

**28. Hansı quş deyil?**



a) b) c) d) e)

**29. Hansı artıqdır?**



a) b) c) d) e)

**30. Hansı artıqdır?**



a) b) c) d) e)

**31. Hansı meşədə yaşamır?**



a) b) c) d) e)

**32. Hansını suya qoymaq olmaz?**



a) b) c) d) e)

**33. Hansı artıqdır?**



a) b) c) d) e)

**34. Hansı məktəb ləvazimatı deyil?**



a) b) c) d) e)

**35. Hansı şəkil düzgün qoyulmamışdır?**

tülkü, meyvə, süpürgə, maral, səbət



a) b) c) d) e)

## ƏLAVƏ OXU MATERİALLARI

### SƏRÇƏNİN SƏDAQƏTİ

Biri vardı, biri yoxdu, bir sərçə vardı. Bu sərçə başqa sərçələrə bənzəmirdi. Yayı aranda, qışı, payızı isə meşədə keçirirdi. Həmişə meşəni arandan çox sevərdi. Ona görə ki, qışda nə qədər qalın qar yağsa da, ağacların altı quru qalırdı. Sərçə bu quru yerlərdə dənlənər, qışın sərt keçməsini hiss etməzdi.

Payız günlərinin birində sərçə meşəyə doğru uçurdu. Bir də gördü ki, meşə od tutub yanır. Meşəbəyidən başqa, onun alovunu söndürən yoxdu. Meşəbəyi çox əziyyətlə vedrə-vedrə çaydan su daşıyır, meşənin yanan yerinə tökürdü ki, alov çox yayılmasın. Yazıq meşəbəyi qan-tər içində idi. Sərçə bu yanğını görüb çox təlaş keçirdi. Fikirləşmədən qanadlarını geniş açıb işə başladı. Tez-tez çaya baş vurur, dimdiyində su gətirir və meşənin yanan yerinə tökürdü.

Meşəbəyi sərçənin bu köməyini görüb çox təəccüb etdi.

— Ay allahın quşcuğazı, sənin dimdiyində gətirdiyin su bu yanğına nə edəcək? — dedi.

Sərçə dilə gələrək:

— Bunu mən də bilirəm, -dedi. Ancaq mən meşəyə olan məhəbbətimi, sədaqətimi göstərirəm. Sərçə bunu deyib sürətini bir qədər də artırdı. Tez-tez çaya baş vurub dimdiyində gətirdiyi suyu meşənin yanan yerinə tökürdü. Meşəbəyinin və sərçənin gətirdiyi sular elə bil bircə anda çoxaldı, selə-suya döndü. Meşənin alovu tüstülənib söndü. Qoca meşəbəyi rahat nəfəs aldı.

Sərçə də yaşıl budağa qonub dincəlirdi. Meşəbəyi sərçəyə baxdı, baxdı, sonra dedi:

— Ay allahın zərif quşcuğazı, kaş bəzi nankorlar, meşəni gizli qıranlar da sənin kimi meşənin qədrini biləydilər.

***Əli Səmədoğlu***

### BALACA ÇOBAN

Biri vardı, biri yoxdu, bir balaca çoban vardı. Bu çoban çox ağıllı idi. Onu hər yerdə tanıyırdılar. Bir gün onun xəbəri padşaha da çatdı. Hökmdar deyilən sözlərə inanmadı. Balaca çobanla özü söhbət etmək istədi. Əmr etdi ki, onu saraya gətirsinlər. Balaca çobanı tezliklə tapdılar və saraya gətirdilər.

Padşah dedi:

— Mənim üç sualıma cavab versən, səni oğulluğa götürəcəyəm. Özünü də sarayda saxlayacağam.

— Hansı suallardır? — uşaq soruşdu.

— Birinci sualım belədir: De görək dənizdə neçə damla su var?

Balaca çoban dedi:

— Hökmdar sağ olsun, bu asan sualdır. Amma mən damlaları sayıb qurtarana qədər əmr edin, dənizə axan bütün çayların qabağını kəssinlər.

Hökmdar heyran qaldı.

— Yaxşı ikinci sualıma cavab ver:

Göydə neçə ulduz var?

Balaca çoban dedi:

— Əmr edin, iri bir kağız versinlər.

Balaca çoban kağızın üstündə çoxlu nöqtə düzdü. Kağız görünməz oldu. Bundan sonra dedi:

— Padşah sağ olsun, göydəki ulduzların sayı kağızın üstündəki nöqtələrin sayı qədərdir. İnanmırsınızsa, sayın.

Bunu heç kəs saya bilmədi.

Padşah razılıqla gülümsündü.

— Üçüncü sualım: əbədiyyətdə neçə saniyə var?

Balaca çoban buna da dərhal cavab verdi.

Padşah dedi:

— Sən suallarımın üçünə də müdrik adam kimi cavab verdin. Bu gündən səni oğulluğa götürürəm. Sarayımda mənimlə olacaqsan.



***Qrim qardaşları***

## ÇEÇƏLƏ BARMAQ

Əldəki beş barmaq yoldaş idi. Bir gün bunlar səfərə çıxırlar. Az gedirlər, çox gedirlər, axırda (əldən düşüb) yorulurlar.

Baş barmaq deyir: Acmışıq.

Baş barmağın yanındakı deyir: Bəs nə yeyək?

Ortancıl barmaq deyir: Allah verəndən.

O birisi barmaq dözməyib soruşur: Allah verməsə, nə yeyək?

Beşinci barmaq tez dillənir: Oğurluq eləyək.

Belə deyəndə görünməz bir qılınc onun boynunu vurur. O da qalır hamıdan balaca. İşi belə görən o biri barmaqlar deyirlər ki:

— Daha oğurluq adını tutmaq olmaz. Yoxsa biz də çeçələ barmağın gününə düşərik. Gəlin halal çörək qazanıb yeyək.

Onlar bundan sonra halal çörək qazanıb yeyirlər.

***Musa Adilov***



## QIŞ GƏLDİ

Qonaq gəlir elə qış,
Soyumuşdur havalar.
Ağ geyinmiş hər tərəf
Dayanmadan yağır qar.

Heç qorxmurlar soyuqdan,
Geyinib isti paltar,
Qartopu oynayırlar
Çöldə qoçaq uşaqlar.

***T.Mütəllibov***

## SƏRÇƏ

Səhər-səhər bağçada
Bir sərçə dən yeyirdi.
Hərdən baxıb üzümə,
«cik-cik, cik-cik» deyirdi.



Çox çağırdım, gəlmədi,
Tutdu ağlamaq məni;
Birdən kolun dalından
Uçan gördüm sərçəni.

O yedi, doydu, qaçdı,
Birdən itdi gözümdən,
Bəs o balaca sərçə
Hara getdi gözümdən?!

O uçdu, uçdu, uçdu,
Qondu yaşıl budağa;
Ha çağırdım gəlmədi,
Uçub getdi uzağa.

***T.Elçin***



## QARANQUŞ

**Sözləri: T.Elçin,**
**Musiqisi Z.Cabbarzadənin**

Sən gələndə qaranquş,
Bu yerlərə yaz gəlir.
Dalınca qatar-qatar
Durna gəlir, qaz gəlir.
Getmə uzaq, qaranquş,
Sinəsi ağ qaranquş!

Çox ölkələr gəzmisən,
Oxu, nəğmən şirindir.
Dünyada ən gözəl yer
Öz yuvan, öz yerindir.
Xoş gəlmisən, qaranquş,
Qalmışdım nigaran, quş!

Alaca-bulaca,
Uçdu qondu ağaca.
***(Sağsağan)***

Bağda uçar səhər-səhər,
Verər bizə yazdan xəbər.
***(Qaranquş)***

Qanadı var uçmağa,
İynəsi var sancmağa.
***(Arı)***

Qanadı var, quş deyil.
Buynuzu var, qoç deyil.
***(Kəpənək)***

Bizdə biri kişi var,
Dörd dənə qıçı var.
***(Stol)***

Bir özüdür,
dörd gözü.
***(Düymə)***

Bir güzgüm var qapaqlı,
Dörd qırağı saçaqlı.
***(Göz)***

Bu yanı çəpər,
o yanı çəpər,
İçində atlı çapar.
***(Göz)***

Qanadı yoxdur, uçar
Ayağı yoxdur, qaçar.
***(Bulud)***

Bir toyuğum var,
Yer altında yumurtlar.
***(Kartof)***

Yaşıl tağım var,
Al otağım var;
Boz paltarımda
Göy qurşağım var.
***(Qarpız)***

Bir damım var,
Tək ayaqlı.
***(Göbələk)***

Atdan hündür,
İtdən alçaq
***(Yəhər)***

# TAPMACALAR

Balacayam, sarıyam,
Deməyin ki, darıyam;
Sizə çörək oluram,
Zəmilərin barıyam.
***(Buğda)***

Dənizdə bir ev gördüm,
Üstündə var dam, baca,
Yeriyir yavaş— yavaş,
Tapmacadır, tapmaca.
***(Paraxod)***

— Göydən endim ağappaq,
Oldum ağ şal, ağ papaq.
Meyvələri düşürtdüm,
Ağacları üşütdüm,
Dağlarda yumalandım,
Küləkdə komalandım.
Gün vurdu birdən-birə,
Əriyib keçdim yerə.
— Söhbətini burda kəs!
— Yaxşı, adım nədir bəs?
***(Qar)***

Deyin, nə vaxt
Əriyir qar,
Baş qaldırır
Yaşıl otlar?
***(Yazda)***

Deyin, nə vaxt
İsti olur,
Anbarlara
Taxıl dolur?
***(Yayda)***

Deyin, nə vaxt
Bağlar solur,
Yarpaqları
Yellər yolur?
***(Payızda)***

Deyin, nə vaxt
Sular donur,
Yerə ağ-ağ
Quşlar qonur?
***(Qışda)***

Görənlər bilir:
Götürdüyüm yük
Həmişə olur
Özümdən böyük.
Torpaqda dərin
Yuvam var-sərin.
Özüm çalışqan,
Adım?....
***(Qarışqa)***

***T.Elçin***

## ALABAŞ

*(YANILTMAC)*

Alabaşın başı ala,
Qaşı qara,
Qarabaşın qaşı ala,
Başı qara.

***T.Elçin***

## ƏKİL-BƏKİL

Əkil-Bəkil quş idi,
Ağaca qonmuş idi.
Getdim onu tutmağa,
O məni tutmuş idi.
Meydana salmış idi.

## MƏN DƏ, MƏN DƏ

— Gəl gedək bağa,
— Mən də, mən də.
— Çıxaq budağa,
— Mən də, mən də.
— Şaftalı yığaq,
— Mən də, mən də.
— Bağban gəlsin,
— Mən də, mən də.

## SANAMALAR:

Bir,
iki,
bizimki.
Üç,
dörd,
qapını ört.
Beş,
altı,
daşaltı.
Yeddi,
səkkiz,
Firəngiz.
Doqquz,
on,
qırmızı don.

# ƏDƏBİYYAT SİYAHISI


1. Abbasov Ə. Yeni kurikulumların səciyyəvi xüsusiyyətləri. Kurikulum-2008. №1. səh.21-31.
2. Abbasov Ə. Ümumtəhsil kurikulumlarının növləri. Kurrikulum-2008. №3. səh.7-13.
3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı. 2003.
4. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) «Azərbaycan məktəbi» jurnalı. 2007. №2.
5. Dərs planı nümunələri (1-ci sinif). Kurikulum-2008. №2. səh.79-90.
6. Dərs planı nümunələri (1-ci sinif). Kurikulum-2008. №4. səh.87-96.
7. Əhmədov A. Ümumi təhsil sistemində kurrikulum islahatı:real nəticələrə doğru. Kurikulum-2008. №1. səh.21-31.
8. Əhmədov A., Şərifov T., Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi. Kurikulum-2008. №1. səh.86-95.
9. Əliyev A. Ümumi təhsilin müasir kurrikulumları və yeni pedaqoji texnologiyalar. Kurikulum-2008. №2. səh.27-35.
10. Əlizadə Ə. Yeni pedaqoji texnologiyalar: bəzi psixoloji və pedaqoji məsələlər. Kurikulum-2008. №1. səh.71-80.
11. Əlizadə Ə. Yeni pedaqoji təfəkkür. Bakı. «Adiloğlu». 2001.
12. Əlizadə Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı. Pedaqogika. 2004.
13. Hacıyeva T. Yeni qiymətləndirilmə sistemi: formativ qiymətləndirmə. Kurikulum-2008. №4. səh.54-62.
14. İsgəndərov İ. Yeni dərsliklər necə olmalıdır? Kurikulum-2008. №2. səh.14-22.
15. İsgəndərov İ., Əhmədov A., Abbasov Ə. Şəxsiyyətyönümlü kurikulumlar əsasında yaradılan dərsliklərin xüsusiyyətləri. Kurikulum-2008. №4. səh. 7-13.
16. İş vərəqləri (1-ci sinif). Kurikulum-2008. №4. səh. 102-117.
17. Kərimova F., Əhmədova M., Varella G., Reyli Ə. İnteqrativ kurikulum: mahiyyəti və nümunələr. Bakı. «Adiloğlu». 2006.
18. Qədimova X. Fəal təlimdə qruplarla işin təşkili. Kurikulum-2008. №2. səh. 90-92.
19. Qədimova X. İnteraktiv təlim metodları. Bakı. 2005.
20. Mehdiyeva N. Yeni fənn kurikulumları və inteqrasiya. Kurikulum-2008. №1. səh.58-64.
21. Mehdiyeva N. Fənn kurikulumlarında bilik, bacarıq və dəyərlərin yeri. Kurikulum-2008. №3. səh.30-35.
22. Məmmədova İ., Kərimova B. «Subyekt-subyekt» münasibətlərinin formalaşması və onun təlim prosesində əhəmiyyəti. Kurikulum-2008. №4. səh.70-75.
23. Mərdanov M., Ümumi təhsildə yeni məzmun, yeni dərsliklər və yeni qiymətləndirmə sistemi. Kurikulum-2008. №4. səh.5-7.
24. Mərdanov M., Şahbazlı F. Azərbaycanın təhsil siyasəti (1998-2005). 2-ci kitab. Bakı. «Təhsil». 2005.
25. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Yeni kurs. Bakı. «Nurlan». 2007.
26. Rüstəmov F. Ümumi təhsilin milli kurikulumu və onun hazırlanması prinsipləri. Kurikulum-2008. №1. səh.38-44.
27. I sinifdə tədris olunan fənlər üzrə tematik planlaşdırma. Kurikulum-2008. №4. səh.117-140.
28. Süleymanova A. Fənn kurikulumlarını tətbiq edərkən. Kurikulum-2008. №3. səh.18-30.
29. Süleymanova A. Fənn kurikulumlarında məzmun standartları. Kurikulum-2008. №1. səh.48-58.
30. Süleymanova A. Yeni kurikulumların tətbiqi: nəzarət və dəstək. Kurikulum-2008. №4. səh. 13-23.
31. Ümumtəhsil məktəblərinin I-IV-cü sinifləri üçün fənn kurikulumları. Bakı. 2008.
32. Veysova Z. Fəal (interaktiv) təlim: müəllimlər üçün vəsait. Bakı, 2007.
33. Veysova Z. Fəal (interaktiv) təlim texnologiyası: psixoloji mexanizmləri və quruluşu. Kurikulum-2008. №1. səh.95-103.
34. Veysova Z. Fəal dərsi səmərəli keçirmək üçün müəllim nəyi bacarmalıdır? I hissə: Planlaşdırma bacarığı. Kurikulum-2008. №3. səh.60-67.
35. Veysova Z. Fəal dərsi səmərəli keçirmək üçün müəllim nəyi bacarmalıdır? I hissə: Planlaşdırma bacarığı (davamı). Kurikulum-2008. №4. səh.62-70.

**Buraxılış məlumatı**

# AZƏRBAYCAN DİLİ 2

Ümumtəhsil məktəblərinin 2-ci sinfi üçün
Azərbaycan dili (dövlət dili) fənni üzrə
dərsliyin metodik vəsaiti

**Tərtibçi heyət:**

Müəlliflər: **Həvva Abdullayeva**

Naşir **Xəlil Həsənoğlu**
Redaktor **Hafiz Rüstəm**
Texniki redaktor **Turqay Cəlallı**
Rəssam **Ülviyyə Həyatova**
Korrektor **Billurə Ələkbərova**
Dizayner **Tural Səfiyev**

**Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi: 2018-006.**

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018.**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Fiziki çap vərəqi 12,0. Formatı 57x82 1/8.
Səhifə sayı 96. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tirajı 865. Pulsuz. Bakı-2018.

**"KÖVSƏR" NƏŞRİYYATI**
**Bakı, AZ 1010, Dilarə Əliyeva küç., 251A/8A**

PULSUZ